**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRMİN DƏMİR qızı KƏRİMLİ**

# RUSİYA-UKRAYNA MÜNAQİŞƏSİNDƏ BÖYÜK DÖVLƏTLƏRİN ROLU (ABŞ, QƏRBİ AVROPA, RUSİYA)

**İxtisas: Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

Elmi rəhbər: ________________________

*Ə.Ə.ƏMİROV*

*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAKI-2017**

# MÜNDƏRİCAT

**Rusiya-Ukrayna münaqişəsində böyük dövlətlərin rolu (ABŞ, Qərbi Avropa, Rusiya)**

**Giriş..........................................................................................................3-8**

**I Fəsil. Rusiya-Ukrayna münaqişəsinin səbəbləri və ilkin inkişafı...........9-42**

**1.1**. Ukraynanın NATO və Aİ-yə inteqrasiya siyasəti və Rusiya.......9-27

**1.2.** Rusiyanın Ukraynaya ərazi iddiaları və enerji təhdidləri...........27-42

**II Fəsil. Rusiya -Ukrayna münaqişəsində ABŞ və Qərbi Avropa dövlətlərinin rolu..........................................................................................................43-68**

**2.1.** Krımın Rusiya tərəfindən ilhaqı və böyük dövlətlərin mövqeyi...43-56

**2.2.** Ukraynada separatçılığın böyük dövlətlər tərəfindən tənzimlənmə cəhdləri və Rusiya..........................................................................................56-68

**Nəticə..........................................................................................................69-71**

**İstifadə edilmiş ədəbiyyat siyahısı.............................................................72-76**

# GİRİŞ

**Mövzunun aktuallığı:** SSRİ-nin parçalandığı andan etibarən Ukrayna ilə Rusiya arasında əməkdaşlıq və münaqişə elementləri özünü eyni zamanda göstərirdi. Krımın mənsubiyyəti, Qara dəniz donanmasının bölgüsü, onun rus hissəsinin Sevastopoldakı baza məntəqələrində yerləşdirilməsi haqqında məsələlərin nizamlanması çətinliklə keçirdi. Buna baxmayaraq, 1990-cı illərin sonları üçün Rusiya-Ukrayna münasibətlərində, o cümlədən də hərbi-siyasi təhlükəsizlik sahəsində normallaşma dövrü başlandı. Lakin, Ukraynanın son illərdə Qərbə yönəlik xarici siyasəti Rusiyada müəyyən əndişələr yaratmaya bilməz. SSRİ parçalandıqdan sonra Ukrayna öz əməli siyasətini Rusiyadan hərbi-siyasi kənarlaşma prinsipi üzərində qurur. Ukraynanın tədricən Rusiyaya müqabil qüvvələr mərkəzindən birinə çevrilməsi meyli müşahidə edilir. Beləliklə, Ukrayna böhranının öyrənilməsi aşağıda sadalanan səbəblərdən aktualdır:

- Ukrayna coğrafi baxımdan Şərqi Avropa regionunun əhəmiyyətli parçası kimi çox mühüm geosiyasi əhəmiyyətə malik bir ölkədir. İyirminci əsrin əvvəllərində yaşamış məşhur ingilis geosiyasətçisi H.Makinderin nəzəriyyəsində göstərildiyi kimi, "kim Şərqi Avropaya nəzarət edərsə "hartland"ə sahib olacaqdır, "hartland"ə sahiblənən "dünya adası"na, "dünya adası"na sahib olan isə bütün dünyaya hakim olacaqdır. Makinder Ukraynanı "hartland"in önəmli nöqtəsi hesab edir və bildirirdi ki, Ukrayna üzərində nəzarət itirilərsə "hartland" üzərində hakim olmaq mümkün deyildir. Bu baxımdan Ukrayna həm Rusiya həm də Qərb üçün əhəmiyyətlidir.

-Münaqişənin tərəfləri beynəlxalq sistem baxımından mühüm aktorlardır. Rusiya fövqəldövlət olmaq arzusunu ortaya qoymuş, ənənəvi postsovet məkanında regional güc statusuna malik olan bir ölkədir. Ukrayna isə Qərb və Rusiya cəbhələrinin maraqlarının toqquşduğu dünyanın əhəmiyyətli geostrateji nöqtəsidir.

-Problemin mövzusu bir neçə baxımdan ABŞ-Rusiya münasibətlərinin əhəmiyyətini ortaya qoymaqdadır. Hər şeydən əvvəl, Şərqi Avropada hal-hazırda cərəyan edən hadisələrin fonunda hər iki aktorun bir növ regiona münasibətdə davranışını xarakterizə edir.

-Krımın ilhaq olunması, eləcə də Şərqi Ukraynada(Donetsk və Luqansk) baş qaldıran vətəndaş müharibəsi yalnız iki dövlət arasında qalmaqla məhdudlaşmadı, bütün dünya güclərinin diqqətini cəlb edən bir problemə çevrildi.

-Krımın Rusiya tərəfindən qeyri-qanuni ilhaqı suveren dövlətin faktiki olaraq ərazi bütövlüyünün pozulmasıdır ki, bu da birbaşa beynəlxalq hüququn hamılıqla qəbul olunmuş əsas prinsiplərinə ziddir.

-Ukrayna böhranı qeyd etdiyimiz kimi beynəlmiləl xarakter alıb.Belə ki, münaqişənin gələcəyi həm Rusiyanı, həm Avropa İttifaqını, həm də Birləşmiş Ştatları maraqlandıran məsələdir.

**Problemin öyrənilmə səviyyəsi:** Oliver Geden, Clemence Marcelis və Andreas Muarerin "Perspectives for the European Union's external policy" adlı birgə monoqrafiyasında İttifaqın geostrategiyasında enerji siyasəti, Rusiya ilə dialoq və s. məsələlər işıqlandırılır. Monoqrafiyada əsasən Avropanın enerji təminatının mümkün yolları göstərilir. Rusiyanın 2006-cı ildə qışın ortasında Ukraynanın qazını kəsməsi, Avropanın Rusiyadan asılılığı araşdırılır. Rusiyanın enerji ehtiyatlarına, o cümlədən də Avropa ölkələrinin enerji ehtiyaclarına dair bir sıra faktlar göstərilir. Alternativ yollar axtarılır (60).

Aİ Komissiyasının hazırlamış olduğu "The European Union and Russia: Close Neighbours, Global Players, Strategic Partners" adlı monoqrafiyada Aİ ilə Rusiya arasında strateji əməkdaşlığın perspektivləri, enerji məsələləri üzrə dialoq və s. məsələlər araşdırılır. Burada qeyd etdiyimiz kimi əsasən iqtisadi, ticarət, enerji məsələləri üzrə əlaqələr, problemli stuasiyalar araşdırılmışdır. Müəlliflər haqlı olaraq qeyd edirlər ki Rusiya qonşularına münasibətdə enerji silahından istifadə edir, bir növ bununla onları təhdid edir, əsasən də, Ukraynaya münasibətdə bu vasitəyə tez-tez əl atılması diqqətə çatdırılır (63).

Türkiyənin Bilecik Şeyx Edebalı Universitetinin dosenti Murat Ercanın "Uluslararası hukuk normaları bağlamında Kırım meselesi: self determinasyon mu?Ilhak mı? adlı monoqrafiyasında Krımın Rusiyaya ilhaq olunmasının beynəlxalq hüquqa uyğun olub olmadığı, öz müqəddəratını təyin etmə prinsipi ,həmçinin Rusiyanın Krımı ilhaq etməsinin öz müqəddəratını təyin etmə prinsipinə

uyğun olub olmaması məsələləri araşdırılır. Müəllif Krımın ilhaq olunması məsələsində Rusiya tərəfindən ortaya atılan bəzi arqumentləri diqqətə çatdırır. Məsələn, Rusiya tərəfdə belə düşünürlər ki, Krımda keçirilən referendum beynəlxalq hüququn xalqların öz müqəddəratını təyin etməsi prinsipinə uyğundur. Eləcə də belə bir fikirlər də mövcuddur ki, president Yanukoviç ölkədə vəziyyəti nizamlaya bilmədiyindən Rusiyadan yardım xahiş etmidşdir. Lakin müəllif doğru olaraq qeyd edir ki, Rusiya Krımdakı fəliyyətini hərbi gücün müşaiyəti ilə həyata keçirib. Dolayısıyla Krım əvvəlcə işğal, sonar isə ilhaq olunub. Rusiyanın bu addımı təbii ki beynəlxalq hüquqa ziddir (49).

2015-ildə Moskvada Ukrayna hadisələrinə dair Коппел-Ковтун Светлана Анатольевна adlı rus müəllifin "Трагедия Украины. Концлагерь вместо рая?" araşdırma əsəri çap olundu. Kitabda 2013-cü il Maydandan başlayan hadisələr özünəməxsus şəkildə təhlil olunur. Rusiya və Ukrayna xalqı maraqlı qüvvələr tərəfindən qızışdırılmış iki qardaş slavyan xalqı kimi təqdim olunur. Avromaydan hərəkatı hər iki tərəf üçün zəhərli bəhrələrini verdi. "Avropa cənnəti" haqqında arzular reallığa çevrilmədi. Niyə bir çox ukraynalılar icazə verdilər ki amerikalı və avropalı dostları onları idarə etsin? Ukraynalılarda ABŞ və Qərbin Rusiyaya qarşı nifrət hissləri yaratması sonda Avromaydan hadisələri ilə nəticələndi. Müəllif ukraynalıları bir növ Avropaya üz çevirməklə özlərinə quyu qazmaqda qınayır və hadisələrin özünəməxsus şəkildə səbəblərini axtarmağa çalışır. Təbii ki, biz qeyd olunan fikirlərlə əsasən razılaşa bilmərik, çünki bu kitabda bir milliyyətçilik təsiri nəzərə çarpır (67).

Ukraynalı politoloq Taras Berezovets 2015-ci ilin sentyabrında "Аннексия: остров Крым. Хроники гибридной войны" adlı kitabını təqdim etdi. Kitabda Krımın anneksiyası ilə bağlı bəzi sənədlər, Krımda 2014-cü ildə baş verən hadisələrin şahidləri və bilavasitə iştirakçılarının, Krım Tatar Məclisi üzvlərinin, Kırımda missiya keçən sülhməramlıların, tanınmış siyasətçilərin və Kırımda yaşayan sadə xalqın nümayəndələrinin ifadələri bir yerə toplanmışdır (71).

Rusiyanın beynəlxalq analitik jurnalı "Геополитика" Мир после Украины" adlı sayında Ukrayna hadisələrinə dair Михаил Антонов, Елена

Сазанович, Николай Бурцев, Вячеслав Дашичев və s. müəlliflərin məqalələrini dərc etmişdir. Müəlliflər araşdırmalarında əsasən Rusiyayönümlü mövqe sərgiləyirlər. Ukraynada baş verənlər kənar maraqlı qüvvələrin alovlandırdığı qığılcım kimi şərh olunur. Lakin bir sıra məqamlar var ki, zənnimizcə tamamilə qəbuledilməzdir. Məsələn V. Daşıçev "Украинская трагедия и новая холодная война" adlı məqaləsində hadisələri şərh edərkən Şərqi Ukraynada qondarma LXR və DXR yaradılmasına Şərqi Ukrayna əhalisini "Kiyev xuntası" rejimindən qorumaq üçün olan bir addım kimi qiymət verir ki, biz bu fikirlərlə razılaşa bilmərik. Həmçinin Krım yarımadasının Rusiyaya ilhaq olunmasının dünya ictimaiyyətinə yanlış təqdim olunduğunu, əslində Krımın tarixi Rusiya torpağı olduğunu əsaslandırmağa çalışır. Lakin hamımıza məlumdur ki, Krımın türk tarixi bu arqumenti tamamilə təqzib edir (66).

Bakı Dövlət Universitetinin magistrantı Məmiyeva Lalənin "Rusiya-Ukrayna qarşıdurması və Qərbin mövqeyi" adlı dissertasiyası da müasir dövr Ukrayna hadisələrinin təhlilinə əsaslanıb (17).

Qeyd edilməlidir ki, Ukrayna hadisələri ən müasir dövrə aid və davam edən bir problem olduğu üçün mövzunun araşdırılması zamanı Azərbaycanın və dünyanın aparıcı qəzet və jurnallarında dərc edilən məqalə və analitik yazılardan, o cümlədən çoxsaylı internet resurslarından istifadə edilmişdir. Münaqişənin dinamikası BBC news,CNN International, The Washington Post,The Guardian, Al-Jazeera, Reuters, РИА Новости,TASS, Русская Правда və s. kimi tanınmış internet səhifələrindən mütəmadi olaraq izlənmişdir.

**Tədqiqat işinin obyekti:**Tədqiqat işinin obyekti Ukraynada cərəyan edən hadisələr və bu hadisələr fonunda dövlətlərarası münasibətlərdir.

**Tədqiqat işinin predmeti:** Tədqiqat işinin predmetini Rusiya- Ukrayna münaqişəsində ABŞ-ın, Qərbi Avropa dövlətlərinin və Rusiyanın iştirakı təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri:**Tədqiqat işinin məqsədi Ukrayna böhranında böyük dövlətlərin(ABŞ, Qərbi Avropa Rusiya) iştirakı və təsirlərinin təhlil edilərək onların rolunun müəyyən edilməsindən ibarətdir.

Dissertasiyanın əsas vəzifələri isə aşağıdakılardır:

-Ukraynanın NATO və Aİ-yə inteqrasiya siyasətinin mövcud münaqişənin meydana çıxmasında təsirini müəyyən etmək;

-Rusiyanın Ukrayna ilə bağlı siyasətinin keçmişini və bugününü müqayisəli təhlil etmək;

-Ukrayna böhranının yaranmasında enerji amilinin rolunu müəyyən etmək;

-Krımın Rusiya tərəfindən ilhaq olunmasını beynəlxalq hüquq müstəvisində təhlil etmək və böyük dövlətlərin buna münasibətini araşdırmaq;

-Ukraynanın Donetsk və Luqansk bölgələrində baş qaldıran separatçılıq meyillərinə böyük dövlətlərin reaksiyasını müəyyən etmək;

**Tədqiqat işinin nəzəri-metodoloji bazası:** Təqdim olunan dissertasiyanın nəzəri-metodoloji bazası siyasi realizmin müddəalarına əsaslanır. Ukraynadakı son hadisələr dövlətlərin xarici siyasətinin hansısa ümumbəşəri maraqlara, ülvi dəyərlərə deyil, müəyyən milli maraqlara xidmət edən realist yanaşma üzərində qurulduğunu təsdiq etdi. Bu səbəbdən də, yaxın vaxtlara qədər əsasən idealist baxışlara köklənən Qərb mediasında artıq siyasi realizmin beynəlxalq münasibətlərdəki aparıcı rolunu etiraf edən fikirlərə tez-tez rast gəlmək olur. Təsadüfi deyil ki, Ukrayna olayları beynəlxalq münasibətlər nəzəriyəsində realist baxışların yenidən dirçəlişinə və "geosiyasətin qayıtması" barədə düşüncələrin meydana çıxmasına şərait yaratdı. Eyni zamanda, Ukrayna hadisələri ilə bağlı açıq hal alan Qərb-Rusiya qarşıdurması bir çoxları tərəfindən həm də "Soyuq müharibə"nin qayıdışı kimi qiymətləndirilir .

Tədqiqat işi yazılarkən əsas elementləri və onların qarşılıqlı əlaqələrini nəzərə alan sistemli yanaşma, ssenarilərin qurulması, elmi-müqayisəli təhlil və tarixi metodlardan istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi:** Ukrayna böhranı davam etməkdə olan bir prosesdir və müasir beynəlxalq münasibətlərdə əhəmiyyətli bir hadisədir. Bu baxımdan Azərbaycan dilli ədəbiyyatlarda Ukrayna münaqişəsində böyük dövlətlərin rolu yetərincə araşdırılmamışdır. Buna görə də bu sahədə araşdırmalarımız yenilik hesab olunur. Dissertasiya işində Ukrayna böhranının

mahiyyəti kompleks şəkildə təhlil edilmişdir. Münaqişəni doğuran səbəblər, münaqişənin iştirakçıları, mərhələləri, istiqamətləri geniş şəkildə araşdırılmışdır. Ukraynanın strateji-coğrafi mövqeyinin ABŞ-Rusiya rəqabətindəki roluna aydınlıq gətirilmişdir. Krımın tarixi və indiki ilhaqı arasında tarixi-siyasi təhlil aparılmışdır Avropanın enerji təhlükəsizliyində Ukraynanın tranzit ölkə kimi rolu ətraflı araşdırılmışdır. Ukraynanın Qərbə inteqrasiya xətti hərtərəfli tədqiq edilmişdir Münaqişənin gələcək inkişafı, onun beynəlxalq münasibətlərə təsirinə dair fikirlər ümumiləşdirilmişdir. Münaqişənin mümkün inkişaf variantları və onun beynəlxalq münasibətlərə təsirləri üzrə proqnozlar verilmişdir. Münaqişədə maraqlı olan dövlətlərin mövqelərinin qiymətləndirilməsi və müqayisəli təhlili aparılmışdır.

**Dissertasiyanın elmi və praktiki əhəmiyyəti:** Dissertasiya işinin elmi əhəmiyyəti Azərbaycan dilində Ukrayna münaqişəsinin səbəbləri, iştirakçıları, böhranın meydana çıxmasında Ukrayna dövləti daxilində Qərb və Rusiya yönlü fikir ayrılıqlarının, həmçinin enerji amilinin rolunun araşdırılmasından, o cümlədən dünyanın aparıcı güclərinin böhranda maraqlarının araşdırılmasından ibarətdir. Dissertasiya işinin praktiki əhəmiyyətinə isə araşdırmanın müvafiq sahədə aparılacaq gələcək tədqiqatlarda yararlı olması, eyni zamanda Universitetlərdə Rusiya-Ukrayna münasibətləri, o cümlədən Şərqi Avropada dövlətlərarası münasibətlərlə bağlı fənlərin tədrisində istifadəsinin faydalı ola biləcəyi göstərilə bilər.

**Tədqiqat işinin aprobasiyası:** Dissertasiya işinin mövzusu ilə əlaqədar müəllifin 2 məqaləsi və 1 tezisi işıq üzü görmüşdür. Azərbaycan Dillər Universiteti "Beynəlxalq münasibətlərin aktual problemləri" jurnalında "Krımın Rusiyaya ilhaq olunmasına böyük dövlətlərin münasibəti" adlı məqaləsi, həmçinin eyniadlı jurnalda "Ukrayna böhranının həllinə dair Minsk görüşləri və nəticələri" adlı növbəti məqaləsi dərc olunmuşdur. Bakı Dövlət Universitetində keçirilən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə magistrantların və gənc tədqiqatçıların elmi-praktik konfransında "Rusiya-Ukrayna qarşıdurmasının Aİ enerji siyasətinə təsiri" adlı tezisi işıq üzü görmüşdür.

**Dissertasiyanın strukturu:** Dissertasiya işi giriş, dörd yarımfəsildən ibarət olan iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I fəsil. Rusiya-Ukrayna münaqişəsinin səbəbləri və ilkin inkişafı

## 1.1. Ukraynanın NATO və Aİ-yə inteqrasiya siyasəti və Rusiya

Müstəqilliyini elan etdiyi vaxtdan Ukraynanın yeritdiyi çoxvektorlu siyasətin əsasında bütün məsələlərdə olduğu kimi, hərbi siyasi məsələdə də müstəqilliyin təminatı dururdu. Ukraynanın NATO ilə münasibətləri Ukrayna Şurası- NATO çərçivəsində imzalanmış müqavilələrlə tənzimlənirdi. "Sülh naminə tərəfdaşlıq" proqramında Ukrayna Respublikası da fəal iştirak edir. Ukraynanın məhdud hərbi kontingenti İraqda koalisiya qüvvələrinin xidmət keçməsi üçün göndərilmişdi. Eyni zamanda, qeyd edək ki, mövcud beynəlxalq sanksiyaların əksinə olaraq, Ukrayna hava əleyhinə müdafiə sistemində istifadə edilən "Kolçuqa" radiolokasiya sistemini S.Hüseyn rejiminə satmışdı.

Bununla yanaşı, Rusiya və digər MDB ölkələri ilə də hərbi-siyasi əlaqələr kəsilməmişdi. Bir sıra rus müşahidəçilər Ukrayna rəhbərliyinin NATO ilə Rusiya arasında manevr etdiyini qeyd edirdilər ki, bu da ilk növbədə daxili iqtisadi və siyasi problemlərlə izah olunurdu. Qeyd etmək lazımdır ki, Ukraynanın əvvəlki rəhbərliyinin, yəni Leonid Kuçmo hökumətinin belə manevrləri Qərbdə olduğu kimi, Şərqdə də, yəni Rusiyada da qıcıqlamaya səbəb olurdu. Ukraynanın hərbi-siyasi təhlükəsizlik sahəsində siyasətinin sonrakı istiqaməti məsələsi sonuncu prezident seçkilərində daha kəskin qoyulmuşdu.

"Narıncı inqilab" nəticəsində 2005-ci ildə başda V.Yuşşenko olmaqla hakimiyyətə gələn yeni rəhbərlik Avroatlantik strukturlarına inteqrasiyaya daha ciddi əhəmiyyət verməyə başladı. Bununla yanaşı, Kiyev Rusiya ilə münasibətlərdə xüsusən də Qara dəniz donanmasının 2017-ci ilə qədər Krım yarmadasında bazalaşması haqqında saziş üzrə öz üzərinə götürdüyü hərbi-siyasi öhdəliklərə sadiq qalacağını da bir daha təsdiqlədi.

Bir sıra mütəxəssislər belə hesab edirlər ki, rus bazasının Krımda iştirakı Ukraynanın NATO-ya birləşdirilməsi yolunu bağlayır. Həqiqətən də NATO-ya yeni üzvlərin qəbulu şərtlərindən biri onların ərazilərində başqa ölkələrin

bazalarının olmamasıdır. Amma NATO üzvlüyünə namizəd dövlətlər üçün daha bir şərt ondan ibarətdir ki, onların qonşu dövlətlərlə heç bir ərazi problemləri olmasın. Halbuki, Latviya və Estoniya kimi dövlətlər sərhədlər haqqında Rusiya ilə heç bir saziş bağlamadıqları halda, NATO-nun tərkibinə qəbul olundular. Ukraynanın NATO-ya qəbul edilməsi qərarı, hər şeydən əvvəl, bu təşkilatın strateji seçimindən və Ukraynanın özündən, xüsusən də bu ölkənin şərq və cənub regionlarının əhalisinin məsələyə münasibətdə konsessusa gəlib-gəlməyəcəyindən asılıdır.

Amerika politoloqu Z.Bjezinskinin də qeyd etdiyi kimi, "əgər Ukrayna öz müstəqilliyini qoruyub saxlamaq istəyirsə, o Avrasiyanın deyil, Mərkəzi Avropanın bir hissəsi olmalıdır, və əgər, o Mərkəzi Avropanın bir hissəsi olmaq istəyirsə, ilk növbədə, Mərkəzi Avropanın NATO və Aİ ilə əlaqələrində birdəfəlik iştirak etməli olacaqdır" (4).

Ukraynanın mövqeyi bir çox məsələdə ABŞ, NATO və Qərbi Avropa ölkələrinin maraqlarına uyğun gəlir. Qərbin strategiyasında Ukraynaya xüsusi rol ayrılır. Qərb Moskvanın Kiyevə təsirini məhdudlaşdırmağa, Ukraynanın Şərq sərhədləri boyunca ABŞ və NATO-nun "həyati vacib maraqları" xəttini çəkməyə səy edir. Ukraynanın üçüncü dövlətlər sahəsinə cəlb edilməsinin mənfi aspekti isə ondan ibarətdir ki, rus-amerikan, rus-qərbi alman və ya Rusiya-NATO münasibətlərinin kəskinləşəcəyi halda, Ukraynanın iştirakı ilə "bufer zona"nın Rusiya əleyhinə formalaşması üçün istifadə olunacaqdır (18, s.129-130-131).

Öz növbəsində, rus politoloqu N.A.Nartovun qeyd etdiyi kimi, "Rusiya və NATO arasında Ukraynanın əlaqələndirici zəncir olmaq cəhdinə Rusiyaya qarşı səssiz müharibə elan etmək kimi də baxıla bilər" (27,s.208). Əksər Rusiya politoloqlarının fikrincə Ukrayna öz ərazi iddiaları ilə bütün Avrasiya üçün təhlükə mənbəyidir və Ukrayna problemi həll edilmədən qitə iqtisadiyyatı haqqında danışmaq mənasızdır. Moskvanın Qara dəniz akvatoriyası üzərində mütləq nəzarəti olmadan Ukraynaya Qərb təsirinin qarşısının alınmasından danışmaq bir qədər çətindir.

Bu gün NATO ilə Rusiya arasında çox gərgin rəqabət mübarizəsi yoxdur. Lakin "Lal müharibələr" davam etməkdədir. Rusiya Avropanın şərq hissəsini NATO-ya uduzubdur (25, s.86). Fransa və Almaniya Ukrayna və Gürcüstanın NATO-ya üzvlük məsələsinin əleyhinə çıxırlar. O da məlumdur ki, dünya siyasi cəhətdən nüfuz dairələrinə bölünübdür. Ukrayna və Gürcüstanı Rusiya öz təsir dairəsi hesab etdiyindən, Almaniya və Fransa bu dövlətləri öz hərbi təsir dairələrinə almaqda ehtiyat edirlər. Azından ona görə ki, başa düşürlər ki, Rusiya tərəfindən Gürcüstan və Ukrayna hətta hərbi təcavüzə məruz qaladığı təqdirdə, Almaniya və Fransa təcavüzə məruz qalmış Ukrayna və Gürcüstana kömək etmək, bu dövlətləri hərbi cəhətdən müdafiə etmək iqtidarında olmayacaqlar (27,s.467).

Ukraynanın Rusiya və Aİ arasındakı geosiyasi vəziyyəti məsələsi Ukraynalı siyasətçilər tərəfindən bu və ya digər siyasi üstünlüklər əldə etmək naminə rus rəhbərliyinə təzyiq üçün tez-tez istifadə olunur. Əgər yarı-eksklav olan Kalininqrad vilayətini nəzərə almasaq, Rusiyanın Aİ ilə quru yol sərhədinin olmaması baxımından Ukraynanın Belarusdan fərqi ondan ibarətdir ki, Belarus Rusiyadan iqtisadi və maliyyə yardımı almaqda maraqlı olduğu halda, Ukrayna bir çox digər MDB ölkələri kimi, Qərbdən yardım almaqda maraqlıdır.

Kissincer "Diplomatiya" əsərində məhs Rusiyanı nəzərdə tutaraq sual edirdi: "O, öz tarixi ritmini bərpa etməyə və itirilmiş imperiyanı yenidən qurmağa can atacaqmı? O, ağırlıq mərkəzini Şərqə keçirəcəkmi və ya Asiya diplomatiyasında aktiv iştirakçı olacaqmı? O öz sərhədləri yaxınlığında, xüsusilə dəyişkən-narahat Orta Şərqdəki qarışıqlığa hansı prinsip və metodlarla reaksiya verəcək?" (56, s.8).

Ukraynanın NATO ilə hərbi-siyasi yaxınlığa cəhd göstərməsi Rusiya ilə yanaşı Belarusun da ciddi narahatlığına səbəb olur. Ukraynanın siyasi elitası ölkənin subregional əməkdaşlıq ideyalarına əsaslanan cürbəcür iqtisadi və hərbi-siyasi təşkilatlara cəlb edilməsi kursunu təcrübədə həyata keçirir. Bu, hər şeydən əvvəl Qara dəniz-Baltik dənizi ideyasıdır. Ukraynanın GUAM-da aparıcı rolunu da buna əlavə etsək geosiyasi mənzərə tamamlanır. Eyni zamanda, Ukrayna özünün Şimali Atlantika İttifaqının tamhüquqlu üzvü olacağını inkar etməyərək, NATO ilə

münasibətlərdə öz mövqelərini maksimum möhkəmləndirməyə cəhd edir. Ukraynanın Şimali Atlantika Alyansı ilə xüsusi münasibətləri haqqında bağlanılan Xartiya bunu təsdiq edən sənəddir.

Ukrayna-NATO əlaqələrinin yaxın keçmiş tarixinə qısaca nəzər salaq. Belə ki, 1991-ci ildə öz müstəqilliyini elan edən Ukrayna keçmiş Sovetlər Birliyinin hərbi strukturlarının və silahlı qüvvələrinin bir hissəsini miras saxladı. Ukrayna NATO-ya müraciət edərək soyuq müharibənin «mirasını» kiçik, müasir və daha səmərəli, ölkənin yeni təhlükəsizlik tələblərinə cavab verən bir qüvvəyə çevrilməsində, və eləcə də Ukraynanın Avropada sabitlik və təhlükəsizliyin təminatında iştirakına dəstək verməsini xahiş edir. NATO-nun bu sahədəki fəaliyyətinin üstün istiqamətləri Ukraynanın silahlı qüvvələrinə demokratik və mülki nəzarətin gücləndirilməsi və onların NATO-ilə birgə fəaliyətinin təkmilləşdirilməsini əhatə edir. 1994-cu ildə SNT-yə qoşulan və NATO-ilə əlaqləri və əməkdaşlığı genişləndirən Ukrayna bu təşkilatla məsləhətləşmələri dərinləşdirmək və praktiki yardımdan lazımi istifadə etmək imkanı qazandı. Əməkdaşlıq əlaqələri 1997-ci ildə NATO-nun Xüsusi Tərəfdaşlığa dair Xartiyanın imzalanması ilə daha da geniş vüsət aldı.

1997-ci il 9 iyulda Madriddə tərəflər arasında "Ukrayna və NATO arasında xüsusi əməkdaşlıq sazişi" imzalandı. Sazişdə təhlükəsizlik sahəsində əməkdaşlıq, problemlərin həll edilməsi, nüvə, bioloji və kimyəvi silahların yayılmaması, silahlar üzərində nəzarət məsələləri barəsində razılıq əldə edildi. NATO-ya üzv olan dövlətlər Ukraynanın nüvə silahına malik olmayan dövlət statusuna uyğun olaraq onun müstəqilliyini qoruyacaq, demokratiyanın inkişaf etməsinə kömək edəcəklərdi. Kiyevdə NATO-nun İnformasiya və sənədlər mərkəzi açıldı, bu mərkəz adətən tərəflər arasında əməkdaşlığı koordinasiya edirdi (22).

2002-ci il Fəaliyyət Planı: NATO ilə Tərəfdaş-dövlətlər arasında əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində sonrakı tədbirlər Tərəfdaşlar tərəfindən 2002-ci ilin noyabrında Praqa Zirvə görüşündə həyata keçirilib. AATŞ və Sülh Naminə Tərəfdaşlığın fəaliyyətinin hərtərəfli təhlili nəticələrinə əsasən, Tərəfdaş dövlətlər arasında siyasi dialoqu qüvvətləndirmək və gələcəkdə onların

qatıldıqları fəaliyyət növlərinin planlaşdırma, yerinə yetirmə və nəzarətində iştirakını genişləndirmək tövsiyə edilib. Praqa Zirvə görüşündə əməkdaşlığın yeni mexanizmi – Tərəfdaşlıq Fəaliyyətinin Planlaşdırılması təqdim edildi. İlk bu cür plan Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planı oldu. Bundan başqa, ilk dəfə olaraq Şimali Atlantika İttifaqına yalnız Tərəfdaşlığın müxtəlif fəaliyyət növləri «menyu» sundan tədbirləri sadəcə olaraq seçmək deyil, bunda marağı olan, onların daxili islahatlarının, məsələn, müdafiə və təhlükəsizlik sektorunda, daha sistemləşdirilmiş dəstəklənməsi barəsində xahişlə ona müraciət edən Tərəfdaş-dövlətlərə məqsədyönlü yardım etmək imkanı verən Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP) təklif edildi. FTƏP tərəfdaş dövlətlər üçün açıq elan edilib. Sənədi ilk olaraq 2004-cü ilin oktyabrın 29-da postsovet ölkəsi olan Gürcüstan imzaladı. Elə həmin ilin noyabr ayında isə NATO - Ukrayna Fəaliyyət Planı qəbul edildikdən sonra NATO ilə Ukrayna arasında əlaqələrin dərinləşməsi və daha da genişləndirilməsi üzrə tədbirlər görüldü. Həmin Fəaliyyət Planının əsas məqsədi Ukraynanın Şimali Atlantika Təhlükəsizliyi strukturlarına tam inteqrasiyası prosesində islahatlar aparılması səylərinin dəstəklənməsinə yönəlmişdir (55).

Ukraynada 24 noyabr 2004-cü il seçkilərində V.Yuşenko qalib gəldi. O, hakimiyyətə gələn kimi qərbyönümlü siyasət yürütməyə başladı. Çox keçmədi ki, "Ukraynanın NATO-ya tezliklə daxil olması öhdəlikləri haqqında konfidensial memorandum" meydana çıxdı. Memorandum Ukrayna ərazisinə NATO hərbi qüvvələrinin hər hansı hərbi əməliyyatlar zamanı daxil olmasına razılıq verilməsini nəzərdə tuturdu. Bu isə Ukraynanın öz suverenliyinin müəyyən hissəsinin itirilməsi demək idi. 2005-ci ilin 22 fevralında Ukrayna prezidenti V. Yuşenko NATO-nun Brüssel sammitində ölkəsinin Alyansa daxil olmaq arzusunda olduğunu elan etdi. 2005-ci ilin aprelində isə Ukrayna rəsmi olaraq "intensiv dialoq" rejiminə keçdi. Buna baxmayaraq, onlar demokratik islahatda ardıcıl və ölçülə bilən irəliləyişə olan ehtiyacı bir daha qeyd etdilər və təkrar etdilər ki, irəliləyişin sürəti Ukraynanın özündən asılıdır (20,s.29).

“Gücləndirilən Dialoq”un formulasının kökləri 1997-ci il Madrid Sammitinə əsaslanır. Burada NATO dövlət və hökumət başçıları qərara aldılar ki, "NATO üzvlüyünə səy edən dövlətlər ilə İttifaqın gücləndirilən dialoqlarına davam etsinlər”. Bu dialoqlar istənilən mümkün İttifaq qərarına mənfi rəysiz, mümkün NATO üzvlüyü ilə əlaqədar maliyyə və təhlükəsizlik, hərbi-siyasi problemlərin bütün diapazonlarını əhatə edir (58).

21 apreldə, Vilnüs görüşündə NATO mümkün İttifaq qərarına mənfi rəy olmadan Ukraynanı münasib islahatlarını və üzvlük səylərini başlamaq üçün “İntensivləşdirilmiş Dialoq”a dəvət etdi. XİN səviyyəsində NATO-Ukrayna Komissiyasının bu görüşündə həmçinin Ukraynanın islahat prioritetlərinin müdafiəsində əməkdaşlığı artırmaq üçün konkret və bilavasitə (təcili) tədbirlər seriyası haqqında razılığa gəlindi:

-demokratik institutların möhkəmləndirilməsi tədbirləri;

-siyasi dialoqu möhkəmlətmək;

-yenidən müdafiə və təhlükəsizlik sektorları islahatında kooperasiyanı təşviq etmək (56).

“İstənilən partnyorun NATO-ya daha yaxın gəlməsi onun NATO standartlarına və dəyərlərə hörmət etməsinə əsaslanır” - NATO Baş Katibi Jaap de Şeffer müxbirlərə dedi; “NATO və onun üzv dövlətləri Ukraynaya kömək etməyə hazırdılar”.

NATO-nun 3-4 aprel 2008-ci ildə keçirilən zirvə toplantısında Ukrayna və Gürcüstanın üzvlük məsələsi müzakirə edildi. ABŞ bu dövlətlərə dəstək verəcəyini təkrar etdi, amma Fransa və Almaniya onların təşkilata üzv qəbul edilməsinin Rusiyanı narahat edəcəyini iddia edərək, qarşı çıxdılar. Zirvə toplantısı sonunda ortaq qərar almaq mümkün oldu, Ukrayna və Gürcüstanın NATO-ya üzv olması üçün rəsmi prosesə başlanmasa da, önləri açıldı (23).

NATO-Ukrayna Komissiyasının iclasında çıxış edən alyansın baş katibi Yaap de Hoop Sxeffer müttəfiqlərin gələcəkdə Ukrayna və Gürcüstanı öz sıralarına qəbul edəcəklərinə dair qarantiya verdiklərini bildirib: “Bu gün biz NATO-Ukrayna əlaqələrində yeni mərhələyə başlayırıq. Bizim qərarımıza əsasən NATO

Ukrayna və Gürcüstanın gələcəkdə alyansa daxil olmasına təminat verir”. Onun sözlərinə görə Ukrayna NATO-nun fəaliyyətinə əhəmiyyətli töhfə verir və onun üzvlüklə bağlı Fəaliyyət Planı (MAP) hədəfi dəstəkləyir.

Rusiya-NATO zirvə toplantısında Prezident Vladimir Putin açıqca "Əgər Ukrayna NATO-ya üzv qəbul edilərsə, bu Ukraynanın mövcudluğunu itirməsi ilə nəticələnəcəkdir" desə də Qərb bu ultimatumu diqqətə almadı. Bu xəbərdarlığı diqqətə almayan ABŞ və Avropa İttifaqı 2008-ci ildə "Şərq tərəfdaşlığı" proqramını həyata keçirməyə başladı. Proqramın hədəfi Ukrayna, Moldova, Gürcüstan və digər dövlətlərin iqtisadi inkişafına və Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirmək idi (23).

Yanukoviçin dövründə NATO-Ukrayna (2010-2014) münasibətlərinə diqqəti çəkmək istərdim. Aydındırki, Qara Dəniz Donanması Rusiya və Ukrayna üçün yalnız iki dövlət arasındakı münasibətlər sistemi səviyyəsində əhəmiyyət daşımır. Bu məsələnin Qara dəniz hövzəsinin təhlükəsizliyi sisteminin yaradılmasına və Ukraynanın NATO-ya üzvlüyünün perspektivinə birbaşa aidiyyatı vardır. Viktor Yuşşenkonun prezidentliyi dövründə hər iki aspekt “havadan asılı” vəziyyətdə qalmışdı. Ona görə də Viktor Yanukoviçin həmin məsələ ilə əlaqəli tutacağı mövqe prinsipial əhəmiyyət daşımaqda idi. Onun tezisləri isə sadəydir: birincisi, Ukrayna Avropanın neytral dövlətlərindən biri olmalıdır. Bununla bağlı Ukrayna prezidenti Moskvada belə fikir bildirib: “NATO-ya gəldikdə isə Ukrayna bloklara qoşulmayan Avropa dövləti kimi NATO ilə münasibətlərini Ukraynanın milli maraqlarına uyğun quracaq. Və həmişə də belə olacaq”. Mətndən aydın görünür ki, V.Yanukoviç Ukraynanın NATO-ya üzv olacağını nəzərdə tutmurdu. İkincisi isə QDD-nin Sevastopolda qalması ilə bağlı məsləhətləşmələr 1997-ci il sazişindəki razılaşmalar əsasında aparılacaqdı (40).

İkinci tezisdə sətiraltı “Qara dənizdə Rusiyanın prioritetliyini qəbul etmək” fikri qeyd olunur. Göründüyü kimi, məsləhətləşmələr həmin sənədlər əsasında aparılacağı halda, başlıca müzakirə obyekti QDD-nin Sevastopolda uzun müddətə qalması və təhlükəsizliyin təminində Ukrayna - Rusiya tandeminin yaradılması ətrafında olmuşdu. Rusiyanın Qara dənizdəki Donanması ilə bağlı Ukrayna və

Rusiya dövlət başçıları tərəfindən imzalanmış saziş bu fikri bir daha təsdiq etdi. Aydındır ki, Ukrayna bölgədə təhlükəsizliyin təmin edilməsi məsələsində Rusiyanın strateji maraqlarını ciddi surətdə nəzərə almağa başlamışdı (40).

Ukraynada Viktor Yanukoviçin prezident seçilməsi bu ölkənin Rusiya ilə donanma məsələsində razılığın əldə edə biləcəyi ehtimallarını tam doğrultdu. V.Yanukoviçlə Rusiya prezidenti D.Medvedyev 2010-cu il aprelin 21-də Xarkovda 2017-ci ildən hesablanmaq şərti ilə növbəti 25 il müddətinə "Rusiya Qara dəniz Donanmasının Ukraynada qalması haqqında" sazişi imzaladılar. Sazişə əsasən, tərəflərdən biri etiraz etməsə, həmin müddət daha 5 ilə uzadıla bilərdi. Bu müqavilə dünya siyasi dairələrində dərhal reaksiya doğurdu. Hətta Ukraynada bir sıra ekspertlər V.Yanukoviçi ölkəni iki yerə bölməkdə günahlandırırdılar. Y.Timoşenko tərəfdarları isə sənədin parlamentdə təsdiq olunmayacağını bəyan etdilər. Lakin 27 aprel 2010-cu il tarixində Ukraynanın Ali Radasında (Parlament) baş vermiş qalmaqaldan sonra adı çəkilən saziş ratifikasiya olundu. V.Yanukoviç isə ölkənin indiki vəziyyətini nəzərə alaraq, başqa cür davranışın mümkün olmadığını bildirdi. Həmçinin, Ukrayna prezidenti V.Yanukoviç bu saziş müqabilində Rusiya tərəfinin qaz satışının qiymətində güzəştə getdiyini nailiyyət kimi qiymətləndirdi. Onu da qeyd etmək lazımdır ki, Rusiya tərəfi qaz satışının qiymətində güzəştə getməsi müqabilində Krımdakı enerji infrastrukturunu icarəyə götürüb. Rusiya prezidenti D.Medvedev isə bu müqavilələrin iki tərəfdaşın bir-birinə qarşı atdığı addımlar kimi qiymətləndirdi. Maraqlıdır ki, Qərb bu hadisəyə sakit reaksiya nümayiş etdirdi. ABŞ-ın dövlət katibi Hillari Klinton Ukraynanın balanslaşdırılmış siyasət yeritdiyini dilə gətirdi. NATO-nun Baş katibi Anders Foq Rasmussen isə Sevastopoldakı Hərbi Dəniz Donanması ilə əlaqəli sazişin imzalanmasının Ukraynanın bu quruma üzv seçilməsinə mane olmayacağını bəyan etdi (40).

2010-cu il seçkilərinin ardınca, 14 fevralda, Prezident Viktor Yanukoviç dedi ki, NATO ilə Ukraynanın əlaqələri hal-hazırda "dürüst" idi. O dedi ki, NATOnun Ukrayna üzvlüyünün problemi bir anda "meydana çıxa bilərdi, ancaq biz yaxın gələcəkdə bunu görməyəcəyik". 24 iyun, 2010-cu ildə Ukrayna Nazirlər Kabineti

həmin ildəki NATO ilə əməkdaşlığın illik milli proqramını həyata keçirmək üçün Fəaliyyət Planını bəyəndi. Bura daxil idi:

- NATO tərəfindən aparılan sülhü qoruyan missiyalarda və əməliyyatlarda NATOnun üzv dövlətlərinin və partnyorlarının silahlı qüvvələrinin personalında Ukrayna aviasiyanın və nəqliyyat materialının iştirakı (cəlb olunması)
- Kosovoda sülhü qoruyan əməliyyatda Ukraynanın iştirakının davamı (uzadılması)
- Əfqanıstanda və İraqda Ukraynanın sülhü qoruyan kontingentlərinin mümkün möhkəmləndirməyi
- NATO tərəfindən təşkil edilən bir neçə beynəlxalq tədbirlərdə Ukraynanın iştirakı
- NATO üzvlərinin strukturlarında Ukrayna qoşunun təlimi (tədrisi) (56).

Ukrayna və NATO Yanukoviçin prezidentliyi ərzində müştərək seminarları, birgə taktiki və strateji tapşırıqlar və əməliyyatları davam etdirdi.

V.Yanukoviçin söylədiyi bəzi fikirlər balanslaşma siyasətinin ilkin çalarlarını özündə əks etdirir. Məsələn, V.Yanukoviç andiçmə mərasimindən dərhal sonra gözlənildiyi kimi Moskvaya deyil, ilk öncə Brüsselə səfər edir və eyni zamanda çıxışında "keçmişdə deyildiyi kimi, bütün yollar Moskvaya aparır" ifadəsini işlədir. Yəni Brüsselə gedən yolun son duracağı yenə Kremldir. Bu fikrinə baxmayaraq V.Yanukoviç V.Putinin "Gömrük İttifaqına üzv olun" (Rusiyanın baş naziri Rusiya, Qazaxıstan və Belarusu birləşdirən Gömrük İttifaqını nəzərdə tutur) təklifinə birmənalı şəkildə "yox" deməsə də, "Ukrayna Rusiya səviyyəsinə çatmalıdır" kimi qeyri-müəyyən cavab verir. Əslində, V.Yanukoviçin xarici siyasət xəttinin ümumi prinsipləri elə də qəliz təsir bağışlamır. Bunlar aşağıdakılardır: Ukrayna ilə Rusiyanı yaxınlaşdırmaqla Avropa dəyərlərinə daha çox yiyələnmək. Bu prosesdə hərbi aspektdən çox (NATO-ya üzv olmaq kimi qıcıqlandırıcı iddia kimi) sosial-iqtisadi və mədəni aspektlərə üstünlük vermək dayanırdı (40).

Yanukoviç 2014-cü il, fevral ayında qalxan Avromaydan hadisələrinin arasında Ukraynadan qaçdı. Bu inqilabın nəticəsində, müvəqqəti Yatsenyuk hökuməti Ukraynada hakimiyyətə gəldi. Yatsenyuk hökuməti başlanğıcda bəyan

etdi ki, onun Ukraynanı NATO-ya üzv etmək niyyəti yoxdur. 2014, Fevralın axırında, NATO-nun Baş Katibi Anders Fogh Rasmussen təsdiq etdi ki, NATO üzvlüyü hələ də Ukrayna üçün seçimdir. Parlament seçkilərinin ardınca 2014-cü ilin oktyabr ayında, yeni hökumət NATO-ya birləşməyi prioritet etdi. 23 dekabr, 2014-də Ukrayna parlamenti Ukraynanın qoşulmama statusundan imtina etdi, hansı ki, Rusiya tərəfindən kəskin ittiham edilən addım idi. 29 dekabr, 2014-cü ildə Ukrayna Prezidenti Petro Poroshenko (25 may may 2014-cü ildə prezident seçilib) NATO-ya qoşulmaq üçün referendum keçirməyə söz verdi (37).

NATO-nun genişlənməsi ABŞ-ın birqütblü dünya şərtləri altında öz uğurlarını inkişaf etdirmək cəhdi ilə əlaqədardır. Bu proses dolayı və birbaşa yolla Rusiyaya qarşı yönəlmişdir və "anakonda" strategiyasının davamı hesab edilir. Bu prosesin nəticəsində ABŞ "heartland"dən mümkün qədər əraziləri öz geosiyasi nəzarətinə keçirmək niyyətindədir (1,s.334).

1994-cü ilin iyununda Rusiya özü üçün bir sıra xüsusi şərtlər müəyyən edərək, başqa dəvət olunmuş dövlətlər kimi "Sülh naminə tərəfdaşlıq" NATO proqramına qoşuldu. Bu proqram çərçivəsində o öz nümayəndələrini NATO-nun Brüsseldəki mənzil-qərargahına göndərmək hüququ əldə etdi, çoxmillətli sülhyaratma qüvvələrinin tərkibində Bosniyada düşmən tərəflərin ayrılmasında iştirak edən rus və Ukrayna batalyonları (müqaviləçilərdən ibarət) formalaşdırıldı, qoşunlara və birgə qərargah və hərbi təlimlərə təftiş səfərləri keçirildi (28,s.352).

NATO "Sülh naminə tərəfdaşlıq" proqramına cənubdan gələn islam fundamentalizmi təhlükəsindən qoruma rolu ayırır. Rusiyanın ona qoşulması başlıca olaraq siyasi təcriddə qala biləcəyi qorxusundan doğmuşdu (28,s.352).

Əslində, bir müddət, sanki təkcə Rusiya deyil, Ukrayna da ABŞ-ın strateji tərəfdaşına çevrilmiş kimi görünür. Lakin gəlin, bu barədə Bjezinskinin fikrinə diqqət yetirək: "Yetkin strateji tərəfdaşlıq konsepsiası gözə və qulağa xoş gəlsə də, aldadıcıdır. Amerika Yer kürəsində hakimiyyəti heç vaxt Rusiya ilə bölüşmək niyyətində olmamışdır və hətta bunu istəsə də, edə bilməzdi. Yəni Rusiya dünyada Amerikanın real tərəfdaşına çevrilmək üçün sadəcə olaraq həddən artıq

zəif, sosial baxımdan həddən artıq geriləmiş dövlət idi. Dünyada Amerika ilə eyni status əldə etmək iddiası Rusiyanın siyasi elitasının nəinki keçmiş Sovet İttifaqı ərazisində, hətta Mərkəzi Avropanın satellitləri olmuş ölkələrə münasibətdə də üstün geosiyasi mövqe ideyasından imtina etməsini çətinləşdirirdi".

"Yaxın xaric " konsepsiyası adı altında bir neçə geosiyasi doktirina-regional iqtisadi əməkdaşlıq, Rusiya, Belarus və Ukraynadan ibarət "Slavyan İttifaqı" yaradılması, Şərqi slavyan dövlətlərinin Qazaxıstan və Qırğızıstanla birlikdə "Avrasiya İttifaqı" yaradılması və bəzi başqa doktrinalar mövcuddur. Bütün ssenarilərdə avrasiyaçılıq doktrinasından irəli gələn imperiya konteksti nəzərə çarpır (16,s.45).

NATO-nun qarşısından geri çəkilmək istəməyən Rusiya hətta alyansı NATO-nu özünün MDB daxilində yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT-ni) tanımağa çağırıbdır. 1992-ci ildə formalaşdırılan (KTMT-yə Rusiya ilə yanaşı Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Ermənistan və Belarus daxildirlər). Kreml onu genişləndirərək NATO-ya qarşı hərbi alyansa çevirmək məqsədini güdür. Rusiyanın NATO yanında Daimi nümayəndəliyinin rəhbəri D.Roqozin 2009-cu ilin sentyabrındakı açıqlamasında NATO-nun KTMT-nin mövcudluğunu görməməzliyə vurmasını gülünc və qeyri-ciddi münasibət kimi dəyərləndirmişdir. Rusiyalı diplomat tərəflər arasında saziş imzalanacağına ümidvar olduğunu da bildirmişdir. Rəsmi Moskvanın NATO qarşısında qoyduğu tələbə qurumun yeni Baş katibi A.Rasmussenin münasibəti isə belə olmuşdur: " Hərbi alyans KTMT-yə daxil olan dövlətlərlə əlaqələr qurub və təşkilatın nümayəndəsi NATO-Rusiya Şurası çərçivəsində Brüsseldə keçirilən görüşlərə dəvət edilir. İki təşkilat arasında münasibətlərin rəsmiləşdirilməsi ilə bağlı isə NATO daxilində konsensus yoxdur" (19,s.57-58).

Avropa İttifaqına inteqrasiya: Aİ son 25 ildə genişlənmə istiqamətində müəyyən addımlar atıb ki, bu da bir sıra problemləri meydana gətirib. Yuqoslaviyanın bölünməsində Aİ birbaşa iştirak edib. Təşkilatın genişlənmə siyasəti son nəticədə Ukrayna böhranına gətirib çıxaran səbəblərdən biri olmuşdur.

Afrikanın şimalında, Suriya, İraq və Əfqanıstanda baş verən proseslərdə də Aİ-nin öz rolu vardır. Sürix protokollarının imzalanmasında, Ermənistan-Türkiyə sərhədlərinin açılması məsələsində bu təşkilatın canfəşanlığı yaddan çıxmayıb. Brüssel həmin məsələdə Türkiyəyə xeyli təzyiqlər edib. Bütün bunlar onu təsdiqləyir ki, Aİ üçün digər istiqamətlərlə yanaşı, postsovet məkanının da əhəmiyyəti artıb. Təşkilatın bu istiqamətdə yeritdiyi siyasətin mütəxəssislərin diqqət mərkəzində olması da elə məhz bununla izah olunur. Təhlil göstərir ki, buradakı mənzərə heç də tam aydın deyil. Aİ-nin yol verdiyi səhvlər və bir çox digər amillər vəziyyəti xeyli mürəkkəbləşdirib. Bu faktorların prizmasından Brüsselin nə kimi addımlar atacağı maraq doğurur (21).

Ukraynanın Avropa Birliyinə üzvlük məsələsi ilk dəfə 1993-cü ildə Essendə keçirilən görüşdə müzakirə olundu. Görüşdə Ukrayna ilə yeni münasibətlərdən danışıldı. Qeyd edildi ki, Ukraynada demokratik və iqtisadi islahatların AP tərəfindən müdafiə olunması siyasəti davam etdiriləcəkdir. Bunun nəticəsində Ukrayna bir sıra problemlərin  ağırlığından qurtula biləcəkdir.

EKOFİN şurasınn iclası zamanı Aİ-nin maliyyə və iqtisadiyyat nazirləri qərarın qəbul edilməsini təxirə saldılar. Avropa Komissiyasının təcili olaraq 85 milyon ekyü məbləğində istiqraz formasında on il müddətinə Ukraynaya vermək və orada demokratiyanı dəstəkləmək təklifi qəbul edildi.Avropa Komissiyası EKOFİN şürasına xahişlə  müraciət etdi ki, ödənişin istiqraz formasında verilməsini şəraitə uyğun həll etsin. Ukrayna üçün təqdim olunan balansın ödənilməsi Çernobil AES-in bağlanması ilə əlaqədar idi. Qərbi Avropa ölkələrindən Fransa, Almaniya, Belçika, nəinki Avropa İttifaqı səviyyəsində, habelə ferdi qaydada yardım göstərməyə hazır idilər.Təsadüfi deyil ki, bu məqsədlə xüsusi layihə hazırlanmışdı. Komissiya elan etdi ki, şuranın xahişi ilə hazırlanmış strateji sənədə baxmaq lazımdır. Bu zaman prosesin uzanması təhklükəsi yaranmışdı. Noyabr ayında Ukrayna parlamenti müqaviləni təsdiq etdi. Nəticədə Ukraynaya maliyyə yardımı prosesi hiss olunacaq dərəcədə sürətləndi. Avropa Parlamentinin büdcə Komissiyasının təşəbbüsü ilə Ukraynaya 1997-ci il üçün 40 milyon ekyüyə yaxın yardım edilməsi müəyyənləşdirildi.

Essen görüşündən keçən dövr ərzində Avropa İttifaqı və Ukrayna arasında müxtəlif proqramlar çərçivəsində əməkdaşlıq davam etdirilmişdir. Bu məqamda, 1992-2006-cı illər arasında həyata keçirilən TACİS proqramı, Avropa qonşuluq siyasəti çərçivəsində İNOGATE və TRASEKA proqramları, həmçinin altı postsovet ölkəsinə (Azərbaycan, Belarus, Moldova, Ukrayna, Gürcüstan, Ermənistan) şamil olunan Şərq tərəfdaşlığı layihəsini qeyd edə bilərik.

Ukraynanın avroatlantik məkana inteqrasiyasında son dönəmin hadisələri xüsusi qeyd olunmalıdır. Söhbət "Şərq tərəfdaşlığı" çərçivəsində Avropa İttifaqına assosiativ üzvlükdən gedir. Qeyd etdiyimiz kimi, Qərblə Rusiya arasında maraqlar uğrunda geosiyasi savaşın əsas cəbhə xətti Ukraynadan keçir. Belə ki, Üç Cənubi Qafqaz dövləti- Azərbaycan, Ermənistan, Gürcüstan, o cümlədən Ukrayna və Moldovanın "Şərq Tərəfdaşlığı" layihəsi çərçivəsində Avropa Birliyinə assosiativ üzvlüyə qəbul edilməsi məsələsi gündəmə gəldi. İlk mərhələdə, yəni 2014-cü ilin noyabrında Litvanın paytaxtı Vilnüsdə keçirilən AB-nin genişlənmə sammitində üç ölkənin- Ukrayna, Moldova və Gürcüstanın assosiativ üzvlüyə qəbulu nəzərdə tutulurdu (24).

Bunun Rusiya siyasi dairələrində sakit qarşılanmadığı şübhəsizdir. Təsadüfi deyil ki, eyni vaxtda Rusiya tərəfindən Cənubi Qafqaz respublikaları, Ukrayna və Moldovanın Gömrük İttifaqına üzvlüyü məsələsi gündəmə gəlmişdi.

Avropa İttifaqının Ukrayna siyasətini yalnız Rusiya faktoru müstəvisində qiymətləndirmək birtərəfli yanaşma olardı. Burada enerji, nəqliyyat, iqtisadiyyat və hərbi sahələri əhatə edən çoxlu sayda amillər də rol oynayır. Ukrayna Şərqi Avropanın böyük dövlətlərindən biri kimi xüsusi geosiyasi əhəmiyyətə malikdir. Bunları nəzərə alan Aİ bu ölkə ilə xüsusi münasibətlər yaratmağa can atır.

Bu bağlılıqda assosiativ üzvlük sazişinin imzalanmasını təşkilatın uğuru hesab etmək olar. "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Brüsselin Kiyevlə əlaqələri maksimum dərəcədə inkişaf etdirmək niyyətində olduğu da məlum faktlardandır. Ayrılıqda NATO-nun Ukrayna ilə sıx əməkdaşlıq planları haqqında kifayət qədər informasiyalar yayılıb. Bir sıra ekspertlərin fikrincə, Kiyev NATO-

nu Avropanın hərbi-siyasi dayağı hesab etsə də, onun bu quruma qoşulmaq perspektivi yoxdur.

Hazırda Aİ üçün Ukrayna istiqamətində ən vacib məsələ ölkənin ərazi bütövlüyünü təmin etmək və iqtisadi böhranı aradan qaldırmaqdan ibarətdir. Bunun üçün azad ticarət zonasının yaradılmasına böyük ehtiyac var. Lakin Moskva hələlik assosiativ üzvlük sazişinin bu hissəsinin reallaşmasına imkan vermir və çətin ki, Kreml bu mövqeyindən çəkilə. Çünki bu halda Rusiya iqtisadiyyatı zərər görə bilər. Deməli, hələlik Aİ-Ukrayna əlaqələrinin yüksələn xətlə inkişafının qarşısında əngəllər mövcuddur. Bununla yanaşı, əməkdaşlığın konkret hüdudları da məlumdur.

Bu, 18 mart 2014-cü ildə Brüsselin qəbul etdiyi bir sənədlə müəyyənləşib. Burada Aİ-nin Ukraynanı “Avropa Qonşuluq Siyasəti və “Şərq tərəfdaşlığı” çərçivəsində önəmli bir tərəfdaş” hesab etdiyi vurğulanıb. İndiki şərtlər daxilində proseslərin bu müstəvidə necə inkişaf edəcəyi haqqında birmənalı proqnoz vermək riskli olardı. Çünki ortaya gözlənilməz geosiyasi və hərbi faktorlar çıxıb. Ukrayna uğrunda mübarizə bütün kəskinliyi ilə davam etməkdədir (21).

Maraqlıdır ki, Qərb analitikləri arasında Ukrayna böhranında Vaşinqton və Brüsseli günahlandıranlar az deyil. Onlar hesab edirlər ki, böyük dövlətlər qonşuluqdakı potensial təhlükələrə həmişə həssas olublar. Ukraynada da bu təhlükəni məhz Qərb yaradıb və Moskva buna mütləq reaksiya verməli idi. Başqa tərəfdən, mütəxəssislər Ukraynanın Aİ-yə inteqrasiyasını heç də tam müsbət hadisə kimi qiymətləndirmirlər. Birincisi, Kiyevin “Avropaya inteqrasiya istiqamətində əldə etdiyi nailiyyətlər elə də çox deyil”; ikincisi, “Aİ-yə üzvlüyün mənfi nəticələri yalnız qısa müddətdə deyil, həm də uzun zamanda öz təsirini göstərə bilər”. Rəsmi Kiyev isə bu məsələyə hər şeydən əvvəl ölkənin davamlı və sabit iqtisadi inkişafı müstəvisində baxır. Göründüyü kimi, burada məqsədlə real vəziyyət arasında müəyyən ziddiyyətlər var.

Hazırda Aİ Ukraynaya maliyyə dəstəyi verir, onun təhlükəsizliyinin təmini üçün addımlar atır. Bunların qaneedici olması məsələsi isə açıqdır. Başqa faktorlarla yanaşı, vəziyyəti qeyri-müəyyən edən həm də yuxarıda vurğuladığımız

Aİ-Rusiya münasibətlərindəki problemlərdir. Yaxın perspektivdə burada ciddi dəyişikliklərin ola biləcəyini proqnozlaşdırmaq çətindir. Kiyev sanki Avropa İttifaqı ilə Rusiyanın arasında sıxılır. Onun öz qarşısına çıxan problemlərin həlli istiqamətində atacağı addımlardan çox şey asılı olacaq. Bununla yanaşı, Ukraynanın kifayət qədər mürəkkəb geosiyasi vəziyyətə düşdüyü də etiraf olunmalıdır.

Moldova haqqında da eyni fikirləri söyləmək olar. Ancaq bu ölkədə separatizm Ukraynadakı qədər ixtilaflara hələlik aparıb çıxarmayıb. Doğrudur, Moskva Aİ-yə assosiativ üzvlüklə bağlı rəsmi Kişinyovu bir neçə dəfə xəbərdar edib ki, Dnestryanıda vəziyyət gərginləşə bilər. Rusiya üçün hər hansı iqtisadi təhlükə yaranarsa, Kreml hərəkətə keçə bilər. Burada əsas səbəb Aİ-nin Moldova ilə azad ticarət zonasını formalaşdırmaq məsələsinə böyük önəm verməsidir. Çünki Moldova prinsipcə, balaca və kasıb ölkədir. Onun iqtisadi yardıma ciddi ehtiyacı vardır. Ancaq maraqlıdır ki, bu proses elə əzəldən bir qədər qeyri-müəyyən məzmun aldı.

Belə ki, Avropa İttifaqı Moldovada istehsal olunan məhsulların idxalına məhdudiyyətlər qoydu. Məsələn, hər bir Aİ sakini il ərzində cəmi 40 qram Moldova alması ala bilərdi! Bundan başqa, Moldovanın daxili bazarında yerli istehsalçılarla Avropa şirkətlərinin rəqabəti birinciləri çox çətin vəziyyətə salardı. Bunlar diqqətə alınmaqla, Kişinyov üçün "keçid mərhələsi" adlanan və ticarətdə bir sıra güzəştlərin edilməsini nəzərdə tutan sənəd hazırlandı. Bununla da aydın oldu ki, Aİ-yə assosiativ üzvlük bu ölkəyə tez bir zamanda fayda verməyəcək (18).

Digər tərəfdən, Ukrayna böhranı Brüssel-Kişinyov münasibətlərində əlavə çətinliklər yaratdı. Birincisi, aydın oldu ki, Moskva istənilən zaman Moldovaya müdaxilə edə bilər. İkincisi, çox şey ölkədə 2014-cü ilin noyabrında keçirilmiş parlament seçkisinin nəticələrindən asılı olacaqdı. Bunları nəzərə alaraq, Moldova ehtiyatlı davrandı. Parlament seçkisinin nəticələri də bu aspektdə maraq doğurur. Birinci yerə 20,51 %-lə sosialistlər çıxıblar, ikinci yerdə liberal demokratlar 20,16%, sonrakı yerlərdə Demokratik Partiya 15, 8% və liberallar 9,67%-lə qərarlaşıblar. Kommunistlərin mühafizəkar qanadı isə 17 faizdən bir qədər çox səs

toplayıb. Bununla da Moldova parlamentində "Avropa qanadı"nın üstünlük təşkil edəcəyi məlum olub. İndi aktual məsələ ölkənin Avropa İttifaqı ilə əməkdaşlığının hansı məzmun alacağıdır. Çünki Moldova parlamentində mövqelərin fərqli olacağına şübhə yoxdur (21).

Hətta Avropa meyilli demokratik qüvvələr arasında belə bu və ya digər məsələlər üzrə fikir ayrılığı vardır. Buraya sosialistləri və kommunistləri də əlavə etmək gərəkdir. S.Markedonov bu bağlılıqda yazır: "..."Sol Moldovanın" rəyini nəzərə almamaq mümkün deyil. Əgər gələcək məqsəd stabil və təhlükəsiz Avropadırsa, onda daxili parçalanmaların və çəkişmələrin aradan qaldırılması üzərində indidən düşünmək lazımdır".

Bunlar onu göstərir ki, Moldovanın Avropa İttifaqı ilə əməkdaşlığı hələlik bir neçə qeyri-müəyyən faktorlarla müşayiət olunur. Ukrayna böhranının buna təsiri hiss ediləcək dərəcədədir. Eyni zamanda, parlament seçkiləri təsdiqlədi ki, bütövlükdə bu ölkə Avropaya inteqrasiya yolunu seçib. Prosesin nə zaman başa çatacağı haqqında proqnoz vermək riskli işdir. Rusiyanın təzyiqi ilə Aİ-Moldova münasibətlərinin müəyyən transformasiyalara məruz qalması mümkündür. Çünki ölkə daxilində siyasi sabitliyin pozulması üçün Moskvanın əlində imkanlar vardır. Təcrübə göstərir ki, belə hallarda Kreml situasiyanı dəyişə bilir. Belə ki, 2008-ci ildə Gürcüstanda baş verən hadisələr həmin fikri təsdiq edir. Avropa İttifaqının Cənubi Qafqaz ölkələri ilə də münasibətlərində həmin faktor hələ də öz təsirini göstərməkdədir.

Rusiyanın Cənubi Qafqaz siyasəti tarixən ona əsaslanıb ki, bu region Rusiyanın "ənənəvi imperiyası"nın bir hissəsidir. Rusiya çalışır ki, Cənubi Qafqazda siyasi münaqişələrin həllində hegemon aktor olsun. Həmçinin iqtisadi aspektə baxsaq görərik ki, Rusiya Cənubi Qafqazda Qərbin həyata keçirdiyi infrastruktur layihələrinə əngəl olmağa çalışır. Lakin, bəzi Rusiyalı ekspertlər hesab edir ki, Rusiya özünün cənub sərhədlərinin təhlükəsizliyindən və özünümüdafiə potensialından əmin olmaq istəyir. Bu Rusiyaya münaqişəyə və hegemonluğa meyilli aktor imicini qazandırır, lakin hər bir dövlətin özünümüdafiə hüququ vardır və rusiya da bu hüququndan istifadə edir.

Qafqaz araşdırmalar mərkəzinin direktoru Vladimir Degoey iddia edir ki, Rusiya öz qonşuluğunu yenidən təşkil etməldir. Aİ ya bunu qəbul etməli, ya da potensial münaqişələrlə üzləşməlidir. Çünki Avropa İttifaqı Cənubi Qafqazda kənar oyunçudur. Avropa İttifaqı Cənubi Qafqazla bağlı hər hansı bəyənatlar verə bilər, ancaq onun regionda mövcud olması keçmiş SSRİ-nin bir hissəsi olan Rusiyanı daim ayıq-sayıq olmağa vadar edir. Aİ və NATO-nun Rusiyanın cənub sərhədləri boyunca hər hansı hərbi infrastruktur yaratması vəziyyətində Rusiyanın reaksiyası proqnozlaşdırıla bilər (30).

Qafqaz Rusiya və Qərbi Avropa geosiyasi maraqlarının ənənəvi toqquşma məkanıdır. Lakin artıq Moskvanın nəzarətindən çıxmış bu regionu ciddi geosiyasi fəaliyyət meydanına çevirmək, amerikanpərəst qüvvələrin regiondan sıxışdırılmasına nail olmaq, bunun üçün isə regionda sosial-siyasi vəziyyəti gərginləşdirmək və siyasi sabitliyi pozmaq lazımdır (65, 805).

Avropa İttifaqı və NATO-nun genişlənməsi ilə əlaqədar Ukrayna son nəticədə bu və ya digər təşkilatın hissəsi olmaq istəyib-istəməməsi barədə qərara gələ biləcəkdir. Çox guman ki, özünün xüsusi statusunu gücləndirmək üçün Ukrayna hər iki təşkilata daxil olmaq istəyəcək. Çünki onlar həmsərhəddirlər və cərəyan edən daxili dəyişikliklər nəticəsində Ukrayna bu təşkilatlara üzv olmaq hüququnu qazanır. Etiraz bəyanatlarına baxmayaraq, Rusiya NATO-nun 1999-cu il genişlənməsinə və Mərkəzi Avropa ölkələrinin bir neçəsinin ora daxil edilməsinə susmaqla razı olacaq, çünki , kommunizmin süqutundan sonrakı dövrdə Rusiya ilə Mərkəzi Avropa ölkələri arasında mədəni və sosial fərq əhəmiyyətli dərəcədə genişlənmişdir. Və əksinə, Rusiyaya Ukraynanın NATO-ya daxil olması ilə razılaşmaq çox çətin olacaq, çünki onun razılığı bu faktı etiraf etməsi demək olardı ki, Ukraynanın taleyi Rusiyanın taleyi ilə daha bağlı deyildir. Nəzərə alınması vacib olan əsas məqam budur: Avropanın tərkibinə daxil olan Rusiya Avropada Ukraynasız ola bilmədiyi halda, Avropanın tərkibinə daxil olan Ukrayna Avropada Rusiyasız ola bilər (3,s.184-185).

NATO-nun Ukraynanı öz sıralarına qəbul etmək niyyəti və bu prosesin hətta ölkənin şərqində məlum hadisələr fonunda baş verə biləcəyinə dair iddiaların ortaya çıxması Rusiyayla Qərb dövlətləri arasında onsuz da gərgin olan vəziyyəti getdikcə daha da pisləşdirir. Xatırladaq ki, Rusiya Ukraynada sabit vəziyyətin yaranması üçün bu ölkənin şimal alyansının üzvü olmayacağına dair NATO-dan təminat istəyir.

Prezident Vladimir Putinin sözçüsü Dmitri Peskov bildirib ki, Rusiya Ukraynanın NATO-ya qoşulması haqqında heç kəsin fikirləşməyəcəyi barədə 100 faizlik zəmanət istəyir. NATO-nun rəsmi nümayəndəsi Oana Lunqeskunun sözlərinə görə, Ukrayna 2010-cu ildən bloklara qoşulmamaq siyasətini həyata keçirməyə qərar verib: "NATO Ukraynanın suveren qərarlarına hörmət edir və Rusiya da bunu etməlidir. Ukraynanın NATO-ya üzvlüyünə gəlincə, ittifaqın liderləri 2014-cü il 4-5 sentyabr tarixlərində keçirilən Uels sammitində bildirdilər ki, NATO "açıq qapı" siyasəti həyata keçirir və bu, ittifaqın ən böyük müvəffəqiyyətlərindən biridir. Genişlənmə üzrə qərarlar NATO-nun özünə aiddir".

Rusiya heç bir zaman Ukraynanın itirilməsi ilə barışa bilməz. Çünki bu Rusiyanın Avropaya çıxışdan məhrum olması deməkdir. Həm də Rusiyanın bir milli dövlət kimi və ya imperiya dövləti kimi özünü təsdiqi Ukraynanın mövqeyindən asılıdır (14).

Avropa İttifaqının, NATO-nun Şərqə doğru genişlənməsi prosesi son 20 ildə Rusiya tərəfindən narahatlıqla müşahidə edilir. NATO-nun, Avropa İttifaqının Şərqə doğru genişlənməsi Rusiyanın iqtisadi və siyasi təhlükəsizliyini təhdid edən, onu sərhədləri daxilində qalmağa məcbur edən mahiyyətdə idi. Rusiya üçün bu münasib hal deyil. Çünki bu durumda post-sovet ölkələri Rusiyanın təsir dairəsindən uzaqlaşacaqdı. Rusiya bunun qarşısını almaq üçün post-sovet ölkələrin demək olar ki, hamısında təsirli mexanizmlərə sahibdir və bəzən bu mexanizmlərdən istifadə edir.

Nəticə etibarilə, Ukrayna coğrafi baxımdan Şərqi Avropa regionunun əhəmiyyətli parçası kimi çox mühüm geosiyasi əhəmiyyətə malik bir ölkədir. İyirminci əsrin əvvəllərində yaşamış məşhur ingilis geosiyasətçisi H.Makinderin

nəzəriyyəsində göstərildiyi kimi, "kim Şərqi Avropaya nəzarət edərsə "hartland"ə sahib olacaqdır, "hartland"ə sahiblənən "dünya adası"na, "dünya adası"na sahib olan isə bütün dünyaya hakim olacaqdır. Makinder Ukraynanı "hartland"in önəmli nöqtəsi hesab edir və bildirirdi ki, Ukrayna üzərində nəzarət itirilərsə "hartland" üzərində hakim olmaq mümkün deyildir .

Bjezinski yazır ki, Sovet İttifaqınnın dağılması dönəmində ən çox narahatlıq doğuran məqam məhz Ukraynanın itirilməsi oldu. Müstəqil Ukrayna dövlətinin meydana çıxması bütün rusları yalnız özlərinin siyasi və etnik mənşələrinin xarakterini yenidən dərk etməyə məcbur etmədi, həm də Rusiya dövlətinin böyük geosiyasi uğursuzluğa düçar olduğunu göstərdi. Bu təkcə iqtisadi itkilər demək deyildi, həm də etnik və dini cəhətdən ruslarla sıx bağlı olan 52 milyon insanın itirilməsi demək idi (3,s.142-144).

Ukraynanın itirilməsi bu səbəbdən geosiyasi məqam oldu ki, Rusiyanın geostrateji eçimi kifayət qədər məhdudlaşdırıldı. Rusiya hətta Baltikyanı respublikalarsız və Polşasız da Ukrayna üzərində nəzarətini saxlamaqla qətiyyətli hərəkət edə, "Avrasiya imperiyası"nda öz lider mövqeyini qoruyub saxlaya və Cənub və Cənub Şərq regionlarında yaşayan qeyri-slavyan xalqları öz iradəsinə tabe etdirə bilərdi. Lakin Ukraynanın itirilməsi Rusiyanın o dövr üçün etnik ziddiyyətlər içərisində dolaşıb qalmasına şərait yaratdı (3,s.142-144).

Beləliklə, prezident Yanukoviçin gözlənilmədən Aİ ilə assosiativ üzvlük sazişini imzalamaqdan imtina etməsi Ukraynada inqilabi hərəkata gətirib çıxardı. Yanukoviçin bu qərarına siyasi dairələrdə müxtəlif cür qiymət verilir. Məsələnin görünən tərəfi isə odur ki, Yanukoviç məhz Rusiyanın təzyiqləri qarşısında geri çəkildi.

2014-cü il iyun ayının 27-də Brüsseldə təntənəli imzalama mərasimi ilə Ukrayna, Moldova və Gürcüstan uzun sürən müzakirələr və münaqişələrin sonunda Avropa İttifaqına assosiativ üzv olmaq haqqında müqaviləni imzaladılar. Son olaraq qeyd edək ki, Ukraynanın assosiativ üzvlüyə qəbulu heç Aİ-nin bütün ölkələri tərəfindən sevinclə qarşılanmır və hətta Moskva faktoruna daha çox önəm vermək lazım olduğunu düşünənlər də az deyil (24).

Moskva və NATO arasında isti münasibətlərin yaradılması cəhdlərinə baxmayaraq, alyans gələcək Rusiya mövqeyini müdafiə edən faktor rolunu oynamaqda davam edir. Buraya eləcə də Ukrayna və Gürcüstan da aid edilir. Bəzi Avropa ölkələri Almaniyanın Avropaya təsirinin qarşısını almağın yolunu alyansda görürlər. Onu da unutmaq olmaz ki, bu, NATO-nun Şərqə doğru genişlənməsi təşəbbüsü idi.

NATO-nun genişlənməsi ABŞ-ın birqütblü dünya şərtləri altında öz uğurlarını inkişaf etdirmək cəhdi ilə əlaqədardır. Bu proses dolayı və birbaşa yolla Rusiyaya qarşı yönəlmişdir və "anakonda" strategiyasının davamı hesab edilir. Bu prosesin nəticəsində ABŞ "heartland"dən mümkün qədər əraziləri öz geosiyasi nəzarətinə keçirmək niyyətindədir (1, səh.332-334)

## 1.2. Rusiyanın Ukraynaya ərazi iddiaları və enerji təhdidləri

SSRİ-də baş verən hadisələr dünyada böyük geosiyasi dəyişikliklərə gətirib çıxardı. Dünyada və Avropada cərəyan edən proseslər SSRİ-nin daxili, ictimai-siyasi, iqtisadi, mədəni və psixoloji həyatına da təsir etdi. Mərkəzdənqaçma meylləri artdı, milli münasibətlər kəskinləşdi. Xalqlar dostluğu xalqlar arasında düşmənçiliklə əvəz edildi. Dünyanın siyasi xəritəsində yeni müstəqil dövlətlər yarandı (13, s.50).

Geosiyasi situasiyanın inkişafının mümkün variantlarından biri şimali Avrasiyanın ərazisində öz təsirinə görə keçmiş SSRİ ilə müqayisə edilə bilən geosiyasi subyektin yenidən törənməsidir. "çoxqütblü dünya"nın təşəkkülü ehtimalı da inkar olunmur (8, s.813).

Rusiyanın I Pyotrun hakimiyyətinin sonuna qədər xarici siyasət strategiyasından çıxmayan iki vəzifə vardı:

- Baltik dənizi vasitəsilə Avropaya çıxış əldə etmək;
- Qara dəniz boğazları vasitəsilə dünya okeanına çıxmaq; (2,s.172).

Rusiya təkrarən dünya gücünə sahib olmaq üçün özünün dünya siyasətini aşağıdakı istiqamətlərdə həyata keçirir:

- ilk növbədə Avro-Asiyada güclənmək və yeni əsaslı potensial mərkəzinə çevrilmək, bu baxımdan,
- postsovet məkanlarına təkrar olaraq geri qayıtmaq, bu məqsədlə, MDB-ni və KTMT-ni gücləndirmək;
- postsovet məkanında Aİ-yə bənzər və NATO-ya alternativ olan hərbi-siyasi ittifaqları yaratmaq;
- pravoslav dünyasına təkrarən rəhbərlik etmək və Aİ-də yer almış slavyan dövlətlərini geri qaytarmaq;
- Şərqi Avropanın pravoslavlarının yenidən hamisinə çevrilmək;
- Avropada, xüsusilə slavyanların dövlətlərində, ABŞ-ın hərbi qüdrətinin qarşısını almaq;
- dünyada, xüsusilə Avropa üzərində təsirlərdə enerji nəhəngi kimi öz qüdrətini saxlamaq, regional enerji layihələrini həyata keçirmək və s. (26, s.377-384).

Jirinovski təklif edir ki, Rusiya SSRİ dövründə yaradılmış bütün nəqliyyat-keçid və xarici aləmlə sərhəd-çıxış məntəqələrinə nəzarəti zorla əlinə almalı, Baltik dənizi və Qara dəniz istiqamətindəki xarici siyasətini fəallaşdırmalıdır. Bu ideyaların əsasında o, MDB ölkələrinin də işğalı məsələsini irəli sürür (10,s.218).

Ukraynanın geosiyasi əhəmiyyəti aşkardır. Rusiya üçün Ukrayna Avropa bazarlarına əsas marşrutdur. Ukrayna həm də Rusiyaya qarşı Qərbin mümkün hücumlarına buferdir (39).

Ortaq mədəniyyət və tarixə malik olmaqlarına baxmayaraq, Ukrayna və Rusiya arasında ötən əsrdə yaşanan münasibətlər bugünkü qarşıdurmanın təməli hesab edilir.

Ukraynanın əhəmiyyətini yaxşı başa düşən Rusiya prezidenti Vladimir Putin 2013-cü ilin mart ayında Krımın ilhaqından sonra Ukrayna ilə qardaşlıq münasibətlərindən danışmışdı. "Biz Ukraynanı yalnız yaxın qonşu deyil, həmişə qardaş ölkə hesab etmişik" (34).

SSRİ-nin parçalandığı andan etibarən Ukrayna ilə Rusiya arasında əməkdaşlıq və münaqişə elementləri özünü eyni zamanda göstərirdi. Krımın mənsubiyyəti, Qara dəniz donanmasının bölgüsü, onun rus hissəsinin Sevastopoldakı baza məntəqələrində yerləşdirilməsi haqqında məsələlərin nizamlanması çətinliklə keçirdi. Lakin 1990-cı illərin sonları üçün Rusiya-Ukrayna münasibətlərində, o cümlədən də hərbi-siyasi təhlükəsizlik sahəsində normallaşma dövrü başlandı.

Qara dəniz donanmasının bölgüsü haqqında məsələdə razılaşma əldə edildi. Donanma gəmilərin təqribən 80 %-i Rusiyadan alındı. 1997-ci il 31 mayda dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında imzalanmış Rusiya-Ukrayna müqaviləsində bir-birinə bütün sahələrdə iddiaların, ocümlədən də, ərazi iddialarının olmaması qeyd edildi ki, bu da Krımın mənsubiyyəti haqqında mübahisələrin sona çatması demək idi.

1998-ci ilin sonunda Sevastopolun qeyri-müəyyən statusuna son qoyan tam miqyaslı müqavilənin imzalanması ilə Rusiya və Ukrayna arasındakı münasibətlərdə bir çox neqativ təsir göstərən məsələlər aradan götürüldü.

2003-cü ildə birgə quru yol sərhədləri xəttini müəyyən edən Dövlət sərhədi haqqında Rusiya-Ukrayna müqaviləsinin imzalanması ilə əldə edilmiş nəticələr daha da möhkəmləndirildi. 1997-ci ilin "böyük" müqaviləsi ilə paralel olaraq Rusiya tərəfinin Qara dəniz donanması və digər hərbi obyektlərin Krımdakı baza məntəqələrindən istifadə olunması şərtləri haqqında sazişlər imzalandı. Rusiya Federasiyasının Krımdakı hərbi-dəniz bazaları haqqında saziş 2017-ci ilə qədər qüvvədədir, Rusiya həmçinin iki "Dnepr" (Mukaçevo və Sevastopol) RLS-dən məlumat alır. Rusiya stansiyalarında Ukrayna hərbiçiləri xidmət edir, istismar xərcləri isə Moskva və Kiyev arasında bərabər bölünürdü.

1994-cü ildən etibarən rus təyyarəçilərin məşqlər aparması üçün Rusiyanın hər il icarəyə götürdüyü kompleksin istismarı üzrə Rusiya və Ukrayna müdafiə nazirlikləri arasında 2003-cü ilə qədər böyük ixtilaflar olmamışdı. Lakin, 2003-cü ildə Ukrayna müdafiə nazirliyi bu sistemdən imtina etdi, çünki Rusiya 2002-ci ildə həmin məşqlərə görə Ukraynanın dövlət büdcəsinə nəzərdə tutulmuş 300 min dolları ödəməmişdi.

Ukrayna böhranı həm də XX əsrin geopolitikasında enerji amilinin əsas rol oynadığını aydın göstərdi. Avropa liderlərinin cavabları Birləşmiş Krallığın strateji maraqlarını dəyərləndirən enerji ittifaqının necə dəstəkləndiyini nümayiş etdirdi. Bir neçə həftə sonra artıq enerji məsələsi Avropa səviyyəli diskussiyalarda dominantlıq təşkil edirdi. Çünki Aİ sammitləri 2030-cu ilə qədər Avropa mühitini və enerji hədəflərinin müzakirəsinə yönəlmişdi. Bu faktdır ki, Ukraynada baş verən hadisələrin Rusiyada diplomatik böhranın yaranması Avropada enerji məsələsini siyasi gündəmə gətirdi və mətbuatın ən çox müzakirə edilən mövzusuna çevrildi.

Ukrayna böhranı kimi davam edən dondurulmamış böhranı həll etmək üçün Avropa liderləri Avropanın enerji təhlükəsizliyini inkişaf etdirmək üçün birgə fəaliyyətə ehtiyac duydular. Onlar enerji səmərəliliyi və bərpa oluna bilən enerji məsələlərinin vacibliyini vurğuladılar. Belə ki, böhran zamanı enerji sahəsindəki əməkdaşlıq iqlimin dəyişikliyinə uzunmüddətli təhdid probleminin həll edilməsinə yönəldilir, çünki bu əməkdaşlıq Avropanın xarici siyasəti və dünyadakı yerinin müəyyənləşməsində artan rol oynayır.

Baxmayaraq ki, Aİ-nın enerji mənbələri və təchizatçıları müxtəlifdir, Rusiya qazı və neftinin növbəti 20-25 il ərzində Avropa bazarlarında yüksək səviyyədə ixracı gözlənilir. Bu Rusiya ilə Aİ-nın coğrafi yaxınlığı və uzun müddətli tərəfdaşlıq razılaşmasının mövcud olması ilə əlaqədardır. Bu baxımdan Avropa İttifaqı qazın Avropaya müxtəlif marşrutlarla çatdırılması üçün Rusiya ilə birgə iş görür. Hər iki tərəf Stokman qaz yatağı, Burqas-Aleksandropolis neft boru kəməri, Şimal axını qaz kəməri kimi layihələr həyata keçirməklə tərəfdaşlığı dəstəkləyir (60, səh.16)

Rusiya həqiqətən Avropa İttifaqının və Avropa kompaniyalarının vacib enerji təchizatçısıdır. Rusiya dünyanın ən böyük təbii qaz yataqlarına malik ölkəsidir. Rusiya Avropanın enerji istehlakının 25 %-dən çoxunu təmin edir. Eyni zamanda Rusiyanın Avropaya ixrac etdiyi xammal materialı onun federal büdcəsinin 40 %-ni təşkil edir. Aİ Rusiyadakı xarici investisiyaların 80 %-nə nəzarət edir. Bu, qarşılıqlı asılılıqdan xəbər verir və gələcək tərəfdaşlıq üçün ümumi hədəflər yaradır (63, səh.3-7)

Krımı silah gücü ilə işğal etməklə yanaşı Rusiya öz qonşularına qarşı enerji silahından da istifadə etdi. Qazpromun sözçüsü Serqey Kupriyanov "Ukrayna Rusiyaya qaytarmalı olduğu 1,55 mlrd dollar borca sahibdir" demişdir. Həmçinin ,o,qeyd etmişdir ki, keçmiş prezident V.Yanukoviçlə V.Putin arasında danışıqlara əsasən güzəştə gedilmiş hesabları da Gasprom nəzərə almalıdır.

Ötən onilliklər ərzində Rusiya iki dəfə Ukraynaya yanacaq təchizatını kəsib. Bu da Avropada öz mənfi təsirini göstərib. Lakin bu gün Avropa tranzit yolu kimi Ukraynadan çox da asılı deyil. Sovet dönəmində Ukrayna öz yataqlarını istismar edə bilirdi. Lakin 1991-ci ildə müstəqillik əldə olunduqdan sonra korrupsiya məhsuldarlığı azaltdı. Müasir dövrdə Ukrayna Qazpromdan daha çox asılıdır. Hətta belə demək mümkünsə, Rusiya qazından asılılıq müstəqil dövlət kimi Ukraynanın varlığını şübhəyə qoyur (63).

2008 - 2009-cu illərin qovuşuğundakı qışda Rusiya "bir gülləyə iki dovşan vurmağa" , yəni birbaşa Ukraynanı qazsızlıqla "boğmağa", dolayısı yolla da Avropanı "dondurmağa" cəhd göstərdi (Avropaya ixrac edilən Rusiya qazının təxminən 80 %-i Ukrayna üzərindən nəql olunur) . Rusiya "qızım (Ukrayna) sənə deyirəm, gəlinim (Avropa) sən eşit" prinsipini əsas tutaraq birinciyə qarşı qaz şantajına ("müharibəsi"nə) başladı, ikincini isə açıqcasına təhdid etdi. Rəsmi Kiyevin müstəqil beynəlxalq siyasətini, xüsusilə də tezliklə NATO üzvü olmaq planını, habelə Gürcüstanı hərtərəfli dəstəkləməsini və s. əsla həzm edə bilməyən Rusiya Ukrayna ilə yeni "qaz müharibəsi"nə başlamaqla, bir növ, onu cəzalandırmaq istədi.

Bununla yanaşı Rusiya həm də Ukraynanın “etibarsız tranzit ölkə” imicini yaratmağa və bu yolla da “Şimal və Cənub axınları”nın zəruriliyini əsaslandırmağa çalışır. Ukraynanı oyundankənar vəziyyətə salmaqla “Cənub axını”nın üzləşdiyi problemləri aradan qaldırmaq və onun tranzit ölkələri kimi nəzərdə tutulan Bolqarıstan, Türkiyə, Rumıniya ilə dil tapmağa cəhdlər göstərir. Bu layihənin gerçəkləşməməsi rəsmi Moskvanı Avropa yönündəki əsas tranzit ölkədən (Ukraynadan) möhkəm yapışmağa vadar edəcəkdir. Başqa bir ehtimala görə isə Kreml Ukraynanın tranzit dəyərini yaxşı bildiyindən onun boru xətlərini ələ keçirmək məqsədini güdür (19, s.435-436).

2005, 2006-cı illərdə Qərb müşahidəçiləri hesab edirdilər ki, Rusiya 2004-cü il inqilabına görə qışın ortalarında qazı kəsməklə Ukraynanı cəzalandırırdı. 2009-cu ildə Rusiya Ukraynanın qaza olan borcunu ödəmədiyindən narahat olmağa başladı və bu bütün Avropaya nüfuz etdi. Ukraynadan keçməklə Rusiya 12 Avropa ölkəsini qazla təmin edir. Rusiyanın qaz kranını bağlaması, Serbiya və Xorvatiyanın Rusiya qazından məhrum olmasına səbəb oldu, həmçinin Fransa və Avstrya da qazın 30 %-dən məhrum oldu. Hətta Rusiya və Ukrayna iqtisadiyyatları bundan ziyan çəkdi. Ukrayna yalnız 2009-cu il ərzində tranzit gəlirlərində 100 milyon dollar itirdi (60).

2014-cü ildə Ukrayna prezidenti Viktor Yanukoviç hakimiyyətdən salındı və Ukraynanın Krım yarımadasında Rusiya hərbi qüvvələri hakimiyyət binalarını nəzarət altına götürdü. Rusiya ötən il Yanukoviçə vermiş olduğu iqtisadi dəstəyi geri götürməyə qərar verdi və bu məsələ Ukraynanın borcuna və təbii qazın 30 %-nə təsir göstərdi. Vladimir Putin qeyd etmişdir ki, bunun siyasətlə heç bir əlaqəsi yoxdur. “Biz sizə pul və ucuz qiymətə qaz verdik, siz qaydalı şəkildə ödədiniz. Biz qazın qiymətini ucuzlaşdırdıq, lakin heç bir ödəniş edilmədi. Ona görə də Qazprom çox təbii şəkildə deyir ki, heç bir gediş ola bilməz”. Beləliklə də Avropa və Amerika liderləri Rusiyanın dünya karbohidrogen ehtiyatının dünya iqtisadiyyatına necə təsir göstərəcəyi sualı ilə üzləşdi. Ukraynada isə hakimiyyətin öz ayaqları üzərində dayanmasına kömək etməyə çalışırdılar.

Hadisələrin sonrakı gedişində NATO-nun xarici işlər nazirləri Rusiya ilə bütün praktiki sivil və hərbi əməkdaşlığı təxirə salmaq haqqında razılığa gəldi. NATO baş katibi Anders Foq Rasmussen bildirdi ki, Ukraynanın Krım regionunun Rusiyaya ilhaq edilməsi Avropanın təhlükəsizliyi üçün öldürücü zərbədir. NATO blokuna daxil olan 28 ölkənin xarici işlər nazirləri Krımın işğalından sonra Brüsseldə keçirilən birinci görüşdə Rusiyanın qanunsuz hərəkətini ciddi şəkildə tənqid etdilər. Həmçinin, onlar müxtəlif sahələrdə NATO-nun Rusiya ilə tərəfdaşlığını təxirə salmaq barədə razılığa gəliblər. Lakin diplomatik münasibətlər səviyyəsində Rusiya-NATO Şurası münasibətlərinin davam etdirilə biləcəyini də əlavə ediblər: "İlk olaraq böhran məsələsində baxışları dəyişməyə imkan vermək lazımdır. Biz iyunda keçiriləcək növbəti görüşdə NATO-Rusiya münasibətlərini nəzərdən keçirəcəyik, (59).

Rusiyanın Ukraynadakı işğalçı hərəkətləri soyuq müharibə dövründə SSRİ-nin tərkib hissələri olan Estoniya, Latviya və Litva kimi ölkələrdə də narahatlığın yaranmasına səbəb oldu. Birləşmiş Krallıq ABŞ və Fransa da daxil olmaqla bir neçə NATO ölkəsi regionda hərbi təlimlər keçmək üçün hərbi təyyarələrlə kömək etməyi təklif etdilər. ABŞ-da senatı Ukraynaya dəstək vermək üçün qanun qəbul etmək və Krımın qanunsuz birləşdirilməsi ilə əlaqədar olaraq Rusiyaya qarşı sanksiyaların tətbiq edilnəsinə razılıq verdi. Rasmussen NATO-nun mesajının aydın olduğunu bildirdi. O, Rusiyanı beynəlxalq hüquq normaları və Ukraynanın sərhədlərini tanımaqla problemi həll etməyə çağırdı. O, həmçinin Ukraynaya öz hərbi qüvvəsini inkişaf etdirmək üçün dəstək də təklif etdi. O, bildirdi ki, Rusiyanın NATO-dakı missiyası açıq olaraq qalır, lakin Ukrayna mövzusu gündəliyin əsas mövzusudur. 2016-cı ilin aprelin əvvəllərində Vladimir Putin Almaniya kansleri Angela Merkelə bildirib ki, qoşunların Şərqi Ukrayna sərhədlərindən çıxarılması üçün göstəriş verib. Lakin Rasmussen BBC-yə təəssüflə bildirib ki, Rusiya vədinə əməl etmədi. Eyni zamanda Rusiyanın dövlət enerji şirkəti olan Qazprom Ukraynaya ixrac etdiyi qazın qiymətinin artması ilə bağlı bəyanat yayıb. Qazprom rəsmisi Aleksey Miller bildirib ki, Ukraynaya satılan Rusiya qazının hər min kub metri 2014-cü ilin ikinci rübündə 385,5 dollara çatıb.

Həmçinin Miller qeyd edib ki, Ukraynanın Rusiyaya qaz borcu 1,7 milyard dollara çatıb (61).

Yaxın dövrlərdə baş vermiş böhran məsələsində enerjinin hansı rolu oynadığını aydınlaşdırmaq üçün dörd məsələni bilmək vacibdir:

1. V.Putinin gücünü aşağı salmaq üçün ABŞ bazara daha çox qaz çıxarmalıdır. ABŞ təbii qazının ixracına məhdudiyyətlərin azalması Rusiyanın qazdan diplomatik silah kimi istifadə etməsini azaldır. Qaz istehsalında Amerikanın dominantlığı enerji siyasətində böyük gücə çevrilməsinə səbəb olur. Ağ Ev sözcüsü Con Boehner bildirib ki, prezidentin ata biləcəyi təcili addım ABŞ-ın ixrac etdiyi təbii qazın qəbul olunmasına imkan yaratmaqdır. Qlobal bazara yeni təchizatlar artırmaqla ABŞ qaz ixracatında özünü təsdiqləyib. Bununla da dünyanın qaz bazarına öz siqnalını göndərir.Sonda dəyişməyəcək bir məsələ var - Ukrayna təbii qaza görə vacib tranzit ölkəsidir.

2. Bir qrup analitiklərin fikrincə Rusiya hər kəsin fikirləşdiyi qədər güclü deyil. Rusiya üçün bütün vəziyyətlərdə və təxirə salınmış enerji mövzularında Ukrayna və Avropa Rusiya üzərindən gələcək üçün vəziyyətin daha da pisləşməsindən çəkindirir. Rusiya yeni qaz xətləri hazırlayana qədər Avropaya qaz ixrac etmək üçün Ukraynadan hələ də asılıdır. Tim Boersma hesab edir ki, təzyiqləri artırmaq üçün Avropa düzgün yoldadır. Burda bütün tərəflər nəyisə itirə bilər. Lakin hal-hazırda Rusiyanın itirəcəyi Avropanın itirəcəyindən daha çoxdur. Rusiyanın Avropa bazarına ehtiyacı var, həmçinin Rusiyanın Avropanın tələblərinə ehtiyacı var. Vəziyyəti çətinləşdirmək Rusiya üçün doğrudan da yaxşı deyil.

3. İndi Ukraynadan korrupsiyanı təmizləmək vaxtıdır. Ukrayna uzun müddət Rusiya qazına bağlı olub. Bu iqtisadiyyatı modernləşdirmək meyillərini boğub. Bəzi dairələrdə hesab edirlər ki, Yanulkoviçin ətrafında qaz mafiyası olub, yəni o tək olmayıb. Qaz lobbisi Ukrayna vasitəsilə Rusiya qazının Avropaya axıdılmasından pul oğurluyub. Bu korrupsiya halıdır.

4. Birləşmiş Ştatlar və Avropa İttifaqı enerji islahatları həyata keçirməklə öz yardım hədəflərinə kömək edirlər. Barak Obama administrasiyası enerji təhlükəsizliyi və enerji sektorunda islahatlar üçün bir milyard dollar dəyərində

yardım ayırmışdır. Həmçinin Avropa İttifaqının on beş milyard dolarlıq yardım boğçası Ukraynanın qaz - tranzit sistemini modernləşdirmək üçündür. Çox ehtiyac duyulan bu cür hamilik enerji islahatlarına dəstək vermək üçündür. Uğur üçün böyük şanslar var. Bu köməyi indi də etməzsəniz nə vaxt edəcəksiniz? Çünki Rusiya induviduallara kömək etmək marağında deyil. Ukraynadakı yeni hökumət əməkdaşlıq edə bilməsə köhnə hökumət kimi borclu qalacaq. Ona görə də islahatlar həyata keçirmək üçün tamamilə uyğun vaxtdır (63).

Ukraynada baş verən hadisələrə tarix elmləri doktoru, professor Vyaçeslav Daşıçevin şərhinə nəzər salaq. Müəllif qeyd edir ki, Ukrayna hadisələri – 21 fevral 2014 tarixində Kiyevdə qanunsuz dövlət çevrilişi və amerika hökuməti, yəni radikal millətçilər, rusofoblar və A. Turçinovun, A. Yatsenukun, D. Yaroşun, O. Tyaqnibokun və digərlərinin başçılığı altında Banderanın tərəfdarları tərəfindən hakimiyyətin qanunsuz yolla zəbt edilməsi ilə bağlı bu təbliğat xarakterli psixoloji kampaniya tam gücü ilə işə salındı. Çevriliş və onun üçün nəzərdə tutulan kadrlar ABŞ xüsusi xidmət orqanları tərəfindən hazırlanmışdır. Çevrilişdən öncə 2004-cü il tarixli Ukrayna "narıncı inqilabı" baş verdi. Onun həyata keçirilməsinə və Ukrayna siyasətinin Qərbə çoxillik bağlılığına Amerika 5 milyard dollar vəsait xərcləmişdir. Burada Rusiyanın cənub-qərb sərhədində ona düşmən olacaq dövlətin yaradılması məqsədi güdülürdü. Məhz bu cür "Ukrayna ssenarisi" ABŞ tərəfindən işlənib hazırlanmışdır.

Müəllifin bildirir ki, Qərbin siyasi elitasında çoxdan bəri belə bir fikir mövcud olmuşdur ki, Ukraynasız Rusiya böyük dövlət statusunu itirəcək, xarici qüvvələr qarşısında çox zəif olan marginal ölkəyə çevriləcək. Amerikanın xarici siyasətinin qabaqcıl memarlarından olan Zbiqnev Bjezinski bu fikrə sahib idi. O hər vəchlə öz konsepsiyasını ABŞ dövlət departamentinə sırımağa çalışırdı. Həmin konsepsiyanın məntiqinə görə Ukrayna ilə Rusiyanı qarşı-qarşıya qoymaq, onların münasibətlərini dərindən sarsıtmaq, Ukraynanı Rusiya üçün düşmən qüvvəyə çevirmək üçün hər vasitəyə əl atmaq və Avropa, hətta Dünya müharibəsinə çevrilə biləcək silahlı münaqişənin başlanması üçün hər imkandan istifadə etmək lazımdır.

V.Daşıçevin fikrincə, Ukrayna cəmiyyətinin bu cür milliyyətçi, antirusiya və Amerika yönümlü transformasiyasının prosesləri Ukraynanın mərkəzi hökumətinin dəstəyi ilə mümkün olmuşdur. Mərkəzi hökumətin amerikayönümlü siyasətini hətta qərəzsiz Qərb analitikləri belə aşkar edə bilirdilər. Belə ki, məşhur siyasətçi və publisist, Avropa parlamentinin sabiq deputatı Culyetto Kyezo yazırdı: "Müstəqillik illərində Ukrayna dövlətinə dörd prezident başçılıq edirdi, hamısı öz vətəndaşları qarşısında sosial borcun elementar formada anlamadan fəaliyyət göstərirdilər. Onlar məsuliyyətsiz insanlar idi. Kravçuk nəhəng ölkənin dağılması barədə sənədi imzalamışdır. Onun ukraynalı kolleqaları – Kuçma, Yuşenko və Yanukoviç ondan fərqlənmirdilər, onlar sərbəst fiqurlar deyildilər, qarar qəbul etmək imkanları yox idi, onlar sadəcə xaricdən gələn göstərişləri icra edirdilər, onlar adi muzdlu işçilər idi. Ukrayna çoxdandır ki, ABŞ-nın əlində idi" . Təəccüblüdür ki, Ukraynada baş verən bu hadisələr Zurabovun başçılığı altında Kiyevdəki Rusiya səfirliyinin diqqətindən kənarda qaldı və səfirlik Rusiyanın yaxınlığında düşmən dövlətinin yaradılmasının qarşısını almadı. Avromaydan Rusiya ictimaiyyəti üçün gözlənilməz oldu.

Beləliklə müəllif belə nəticəyə gəlir ki, bütün bunlar Ukrayna cəmiyyətinin sağlam qüvvələrinin hiddət və müqaviməti ilə nəticələnməyə bilməzdi. Yekunda, Ukraynanın cənub-şərqinin əksər əhalisi referendumda Kiyev rejimindən ayrılmanın, ölkənin federativ quruculuğunun lehinə və Rusiyaya qarşı düşmənçilik siyasətinin əleyhinə səs verdi. Milli iradə nəticəsində Luqansk və Donetsk xalq respublikaları yaradıldı, hansılar ki, bir müddət sonra vahid Novorossiya ittifaqına birləşdilər. ABŞ hakim dairələri bunu heç gözləmirdilər. Onlar İraq, Əfqanıstan, Livan, Misir, Suriya və Amerika imperializminin qurbanı olmuş digər dövlətlərdə olduğu kimi yanlışlığa yol vermişdirlər. Vaşinqtonun, bütün döyüş sursatlarından, hətta ABŞ-dan gətirilmiş, istifadəsi qadağan edilmiş fosforlu bombalardan istifadə etməklə kiyev xuntasının köməyi ilə cənubi-şərqi Ukraynanın əhalisinə qarşı hərbi əməliyyatların həyata keçirilməsindən başqa yolu qalmadı.

V.Daşıçev Donetsk və Luqanskda baş verən hadisələri özünəməxsus şəkildə şərh edir: LXR və DXR dinc əhalisinə qarşı hərbi əməliyyatlar, Kiyev xuntasının hakimiyyətinin təsdiqindən başqa, ABŞ üçün əhəmiyyət kəsb edən məqsədə - dinc əhalinin müdafiəsi məqsədilə Rusiya hökumətini Ukraynaya qoşunun yeridilməsinə təşviq etməyə nail olmağa xidmət edirdi. Çünki, Federasiya Şurasının 1 mart 2014-cü il tarixli fərmanı ilə Prezident Putin bunu etmək səlahiyyətinə malik idi. Onun həyata keçirilməsi NATO üçün münaqişəyə açıq-aşkar müdaxilə etmək üçün bəhanə olacaqdı. Belə olan halda bütün Avropanı bürüyəcək müharibə başlayacaqdı. Kremldə ABŞ-nın bu mənfur planını ifşa etdilər və Ukraynaya hərbi müdaxilədən vaz keçdilər. Bu ağıllı və məsuliyyətli bir qərar idi, baxmayaraq ki, onu qəbul etmək heç də asan deyildi, belə ki, Kiyev xuntasının insanlığa zidd olan hərbi əməliyyatlarının təsiri altında olan cənubi-şərqi Ukraynanın dinc əhalisi köməksiz qalacaqdı (66).

O, həmçinin qeyd edir ki, Krım yarımadasının Ukraynanın tərkibindən çıxması və Rusiyanın tərkibinə keçməsi qərb ictimaiyyətinə tamamilə yanlış formada təqdim edilmişdir. Krım tarixi barəsində məlumatın olmamasından istifadə etməklə, qərb ölkələrinin sakinlərinə təlqin edilirdi ki, guya Krım əsrlər boyu Ukraynaya məxsus olub, Rusiya isə, Ukraynada baş verən hərc-mərclikdən istifadə edərək, ekspansiv siyasətə meylli olmasını nümayiş elətdirməklə yarımadanı işğal etmişdir. Bu yalan Vaşinqtona ona görə lazım idi ki, 2008-ci ildə Cənubi Osetiyada müharibənin təhrikindən sonra ikinci dəfə Rusiyanın timsalında "düşmən obrazını" təsdiq etsin.

Müəllif Rusiya rəhbərliyinin ağır dilemma qarşısında qalaraq referendumda 96% səs çoxluğu ilə Krımın Rusiyanın tərkibinə keçməsinin lehinə səs vermiş yarımada sakinlərinin istəyini yerinə yetirmək, yaxud Krımı maydan Ukraynasının tərkibində saxlamaq, ABŞ-na Rusiyaya qarşı informasiya müharibəsini başlamaq imkanını verməmək kimi seçimlərlə qarşı qarşıya olduğu bir zamanda düzgün qərar qəbul etdiyini bildirir.

Lakin bilirik ki, Krım tarixən nə Ukraynanın, nə də Rusiyanın tərkib hissəsi olub. Krım tarixi türk torpağıdır. 1783-cü ildə Rusiya tərəfindən işğal olunub. 1954-cü ildə isə Ukraynanın Rusiyaya birləşdirilməsinin 300 illiyi münasibətilə Nikita Xruşşov tərəfindən Ukraynaya bağışlanıb.

O, qeyd edir ki, əhalisi mahiyyət etibarı ilə ruslardan təşkil olunmuş Krımın Ukraynanın tərkibinə keçirilməsi barədə Nikita Xruşovun ağla zidd qərarı ləğv edilmiş və Krım xalqının tarixi vətənin tərkibinə qayıtması istəyi yerinə yetirilmişdir. İkincisi, Kiyev "xunta"sı ABŞa Krımda öz hərbi bazalarını yerləşdirmək hüququnu verməkdən məhrum edildi, əks təqdirdə bu, Rusiya və onun Qara Dənizdəki mövqeləri üçün təhlükə yaradacaqdı. Lakin Rusiya bu qərarın kənar təsirləri ilə barışmalı oldu: ABŞ, Krımı zəbt etmiş işğalçı ölkə kimi qələmə verilən Rusiyaya qarşı, intensivliyinə və miqyasına görə ağlasığmaz dərəcədə böyük olan informasiya müharibəsinin başlanması üçün Krım hadisəsindən istifadə etdi. ABŞ-nın antirusiya informasiya-təbliğat xarakterli müharibəsinə Krım hadisələri ilə bağlı NATO və AB cəlb edilmişdir. 2014-cü ilin may ayında Obama Vest Point hərbi akademiyasının müdavimləri qarşısında etdiyi çıxışında Rusiyanın uğurla dünya birliyindən izolyasiya edilməsi ilə öyünürdü (66).

Bu informasiya müharibəsinin əsas tərkib hissəsi ABŞ və AB Rusiyaya qarşı olan sanksiyaları oldu. Onlar Amerikanın qlobal hakimiyyət siyasətinin əsas hədəflərindən biri olan "Rusiyanın Avropadan kənarda saxlanılması", Rusiyanın Avropa ölkələri ilə əməkdaşlığının dərinləşməsinə imkan verilməməsi, həmçinin De Qolun "Avropa – La-Manşdan Urala qədər" ideyasının həyata keçirilməsinin və ya La-Manşdan başlayaraq Sakit okeana qədər ölkələrin güclü geosiyasi mühitinin yaradılmasının qarşısının alınması məqsədini güdürdü. Sanksiyalar həmçinin ABŞ və Avropa ictimaiyyətinə psixoloji təsir göstərməyi, bunun Rusiya tərəfindən Ukraynanın daxili işlərinə müdaxiləsinə, siyasi və iqtisadi stabilliyin pozulmasına görə "cəza metodu" olduğunu ictimaiyyətə təlqin etməyi nəzərdə

tuturdu. Əslində ABŞ tərəfindən yaradılanlar, həyasızcasına və həqiqətə zidd olaraq Rusiyanın ayağına yazıldı (66).

Müəllif Ukraynanın hazırkı prezidenti Pyotr Poroşenkonu iri oliqarx, şübhəli reputasiyaya malik olan milyarder adlandırır. Onun hakimiyyətə gətirilməsinin səbəbini isə Maydan rejimini leqallaşdırmaq kimi göstərir. Bildirir ki, Poroşenko Maydan rejiminin xalqa qarşı yönəlmiş siyasi kursunu davam etdirir.

Bütün bunlara AB və NATO ilə əməkdaşlığa yönəlmək, Rusiyaya qarşı düşmənçilik, onunla münasibətdə müxtəlif çətinliklərin yaradılması, cənub-şərqi Ukrayna əhalisinə qarşı amansız müharibə, kəskin millətçiliyə verilən üstünlük, ukrayna xalqının əsl milli dəyərlərinin nədən ibarət olması sualının təhrifi və onlara xidmət etməyin yolları daxildir. 27 iyun tarixində Poroşenko Brüsseldə AB ilə iqtisadi assosiasiya barədə müqavilə imzaladı. V. Daşıçevə görə bu müqavilə ukrayna iqtisadiyyatının inkişaf maraqlarına heç də uyğun deyil və ona ciddi ziyan vurur. Rusiya ilə iqtisadi münasibətlərə xitam verilməsi səbəbi ilə Ukrayna ildə 30-40 milyard dollar məbləğində pul itkisi ilə üzləşmişdir. Əgər əks tədbirlər görülməsə, Rusiyanın illik itkiləri 100 milyard dollar təşkil edəcək. Bütün bunlar Ukraynanın və onunla sıx əlaqədə olan ABŞ siyasətinin antirusiya ssenarisinə uyğun idi. Vaşinqton istəyinə nail oldu. Kiyevdə amerikanın əl altılar rejimi hakimiyyətə gəldi və Rusiyaya qarşı düşmənçilik mövqeyini nümayiş elətdirməyə başladı. Avropada təhlükəli gərginlik ocağı yaradıldı. Faktiki olaraq Rusiyaya qarşı "soyuq müharibəyə" start verildi, həmin müharibəyə NATO və AB ölkələri cəlb edildi (66).

Təbii ki qeyd olunan fikirlərlə tam olaraq razılaşmaq mümkün deyil. Çünki hadisələr əsasən Rusiyanın maraqları əsas götürülərək şərh olunur. O cümlədən Krımın Rusiyaya ilhaqı, Şərqi Ukraynada parçalanma meyilləri, qondarma LXR və DXR kimi qurumların yaradılmasına müəllifin sərgilədiyi mövqe tamamilə qəbuledilməzdir. Çünki istənilən halda bu suveren dövlətin ərazi bütövlüyü prinsipinə, yəni beynəlxalq hüququn hamılıqla qəbul edilmiş əsas normalarına

ziddir. Digər tərəfdən Ukraynada baş qaldıran münaqişəli vəziyyətdə professor V.Daşıçevin qeyd etdiyi kimi Qərb günahkardırsa, eyni zamanda Rusiyanın da payı vardır. Belə ki Ukrayna həm Rusiyanın, həm də Qərbin həyati əhəmiyyətli maraq dairəsinə daxildir. SSRİ-nin parçalanmasından sonra Ukraynada baş verən qərbə inteqrasiya meyilləri Rusiya tərəfindən qısqanclıqla qarşılanırdı. Nəticə etibarilə, müəllifin qeyd etdiyi kimi münaqişədə sadəcə Qərb müttəfiqləri məsuliyyət daşımır (66). Oxşar mövqe Koppel-Kovtun Svetlana Anatoleevnanın "Трагедия Украины. Концлагерь вместо рая?" adlı kitabında da nəzərə çarpır. Bu əsərdə hadisələr ABŞ və müttəfiqlərinin Ukrayna əhalisində Rusiyaya qarşı nifrət hissləri oyatmaqla iki qardaş slavyan dövlətin düşmənə çevrilməsi şəklində şərh olunur. Müəllif ukraynalıları Qərbə inanmaqda günahlandırır. Qeyd edir ki, Ukraynalılar Qərbə üz tutmaqla "Avropa cənnəti" haqqında arzularını nəinki reallığa çevirə bilmədilər, hətta öz quyularını özləri qazdılar (67).

Ümumiyyətlə, biz Rusiya-Ukrayna münaqişəsini araşdırarkən iki tamamilə bir-birini təkzib edən cəbhə ilə qarşılaşırıq: Rusyönümlü yazılar və Qərbyönümlü yazılar. Ukrayna ictimai fikrində də məhs bu cür əks mövqelər mövcuddur. Ruspərəst mənbələr iddia edirlər ki, münaqişə Qərbin birbaşa dəstəyi ilə süni şəkildə yaradılıbdır. Bütün bunların səbəbi Rusiyanın timsalında düşmən obrazı yaradıb cəmiyyətə bu cür təqdim etmək və Rusiyanı təcrid etməkdir. Bu qrup müəlliflərin yazılarında Rusiya və Ukrayna kənar qüvvələrin pozucu fəaliyyəti nəticəsində düşmən səviyyəsinə qədər gətirilmiş iki qardaş xalq kimi təqdim olunur. Bəzi müəlliflər hətta SSRİ-nin dağılmasını təəssüflə bildirirlər. Məsələn, Eduard Birovun "Украинская трагедия русского мира. Работа над ошибками" adlı məqaləsində bu mövqeni görə bilərik (70). O, yazır ki, ilk və ən böyük bədbəxtlik 1991-ci ildə vahid respublikanın parçalanması oldu.

Krımda doğulub böyümüş Taras Berezovetsin "İşğal. Krım adası. Hibrid müharibənin xronikası"adlı kitabında isə Krım xalqının haqq səsi dünya ictimaiyyətinə çatdırılır. Rusiyanın Krımda işğalçılıq hərəkətləri Krım xalqının sadə nümayəndələrinin dilindən alınmış ifadələrlə ətraflı şəkildə şərh olunub.

Müəllif yazır ki, hər kəs Ukrayna və Rusiyanın ayrılığının silahsız, qansız baş verdiyini düşünür, lakin Krımda qanlı olaylar 1991-dən yaşanmışdı (71,s.17-19).

Qarşı tərəfdə isə tamamən əks fikirlər yer alır. Rusiyanın imperialist, təcavüzkar addımlarından bəhs olunur. Rusiya işğalçı dövlət kimi təqdim olunur.Onun beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozması pislənilir.

Fikrimcə, hər hansı təsir altında söylənmiş fikirlər heç vaxt tam doğru ola bilməz. İstənilən məsələyə münasibət fərqli ola bilər, çünki burda bir subyektivlik var. Lakin faktlar öz yerində qalır. Fakt isə ərazi bütövlüyü pozulmuş, ictimai fikri bir-birinə qarşı dayanan iki əks mövqeyə parçalanmış, vətəndaş müharibəsi ilə qarşı-qarşıya qalan bir ölkə- de-fakto parçalanmış Ukraynadır.

Yuxarıda tamamilə birtəfli mövqedən çıxış edən V.Daşıçevin fikirlərini geniş şəkildə verilib. O, bütün baş verənləri Qərbin Rusiyaya qarşı siyasətinin nəticəsi kimi şərh edir. Krım məsələsinin, o cümlədən cənub-şərqi Ukraynada baş verənlərin dünya ictimaiyyətinə yanlış şəkildə çatdırıldığını bildirir. Krımı yanlış olaraq Rusiyanın tərkib hissəsi adlandırır. Ancaq fikirlər birtərəfli olsa da müəyyən həqiqət payı vardır. Doğrudan da Qərb- Rusiya münasibətlərində bir "soyuq müharibə" izi görmək mümkündür.

Yenə də münaqişədən ən çox əziyyət çəkən, diqqətdən kənarda qalan, humanitar böhran vəziyyətində yaşayan bölgənin sivil əhalisidir. Fikrimizcə ilk növbədə münaqişəli ərazilərdə yaşayan əhalinin təhlükəsizliyi təmin olunmalı, silahlar susmalı, daha sonra problem danışıqlar masasında gündəmə gəlməlidir.

Hesab edirəm ki, Ukrayna, belə demək mümkünsə, Qərb-Rusiya tarixi qarşıdurmasının qurbanı oldu. Ukraynaya bir tərəfdən Qərb dövlətlərinin, digər tərəfdən də Rusiyanın müdaxilə etməsi bu ölkənin öz daxilində parçalanma meyillərinin yaranmasına gətirib çıxardı.Təbii olaraq ölkə daxilində fikir müxtəlifliyi meydana çıxdı. Rusiya bu vəziyyətdən məharətlə istifadə etdi və Ukraynanın Rusiyaya yaxın olan Şərq ərazilərini, o cümlədən Krımı özünə

birləşdirməyə başladı. Lakin faktiki baş verən bu ilhaqa hüququ qiymət verilə bilməzdi. Beləliklə də silahlı münaqişə daha da alovlandı və bugünkü kəskin səviyyəyə gəlib çatdı.

Beləliklə, Rusiya-Ukrayna münaqişəsinin səbəblərini aşağıdakı kimi ümumiləşdirmək olar.

Rusiya-Ukrayna münaqişəsinin meydana çıxması və bugünkü səviyyəyə gəlib çatmasında həm daxili və həm də xarici amillərin rolu vardır. Fikrimcə, daxili amillərə Ukraynanın öz daxilində mövcud olan parçalanma meyillərini aid etmək olar. Belə ki, Ukraynada tarixən sağsahil və solsahil Ukraynası adlanan bir bölgü vardır və bu ərazilərin əhalisində kəskin siyasi fikir ayrılığı mövcuddur. Tarixən sağsahil Ukraynasının əhalisi  Rusiyaya, solsahil Ukraynasının əhalisi isə Avropaya meyilli olmuşdur. Həm Rusiya , həm də Avropa bu reallıqdan yararlanmışdır.

Lakin əsas səbələr kimi xarici amilləri, yəni Qərbin və Rusiyanın müdaxilələrini göstərmək olar:

-Rusiyanın tarixi ərazi iddiaları, Ukraynanı öz maraq dairəsi kimi görməsi, SSRİ-nin dağılmasından sonra yenidən  postsovet ölkələrini, o cümlədən də Ukraynanı təsir dairəsində saxlamaq siyasəti yeritməsi;

-Qərbin Rusiya ilə mövcud rəqabəti, SSRİ-nin süqutundan sonra soyuq müharibənin davamı kimi Rusiya ilə rəqabət və bu baxımdan postsovet ölkələrində nüfuz uğrunda mübarizəsi;

-İqtisadi amil: Avropanın Rusiyadan enerji asılılığı, Rusiyanın enerji silahından istifadə etməsi və  enerji tranziti kimi Ukraynanın həlledici rolu;

Zənnimcə, göstərilən daxili və xarici amillər Ukraynada illərdir davam edən minlərlə insanın həyatına son qoyan, dinc əhalinin öz yaşadıqları ərazilərdən didərgin düşməsinə səbəb olan və ən əsası Ukraynanın ərazi bütövlüyünün faktiki

olaraq pozulmasına qədər davam edən bugünkü Rusiya-Ukrayna münaqişəsinə gətirib çıxarmışdır.

# II fəsil. Rusiya -Ukrayna münaqişəsində ABŞ və Qərbi Avropa dövlətlərinin rolu

## 2.1.Krımın Rusiya tərəfindən ilhaqı və böyük dövlətlərin mövqeyi

2014-cü ilin martın 16-da Rusiya tərəfindən Ukraynanın tərkib hissəsi olan Krım yarımadasında qondarma referendum keçirildi və referendumun nəticələrinə əsaslanaraq Krım Rusiya Federasiyasının tərkibinə daxil edildi. Lakin bu referendum əksər dünya ölkələri tərəfindən qəbul edilmədi və qondarma adlandırıldı. Qərbi Avropa ölkələri və ABŞ bunu qəbul etməməklə yanaşı həm də Rusiyaya qarşı bir sıra sanksiyalar tətbiq etməyə başladılar və qondarma referendumu da, Krımın ilhaqını da kəskin şəkildə pislədilər. Rusiya prezidenti V.Putin isə martın 21-də Krımın Rusiyanın tərkibinə qatılması barədə razılığın ratifikasiyası haqqında sənədi imzaladı və öz ölkəsində Krımın Rusiya tərkibinə daxil edilməsi faktını rəsmiləşdirdi (45).

Bəs Krımın ilhaq olunması nə dərəcədə beynəlxalq normalara uyğundur? Bu referendumla bağlı dünya ictimaiyyətinin ortaq qənaəti necədir, və ya bu məsələdə ortaq qənaət varmı? Bütün bunları araşdırmağa çalışacağıq.

Krım yarımadası Ukraynanın cənubundakı kiçik bir yarımadadır. Ərazisi kiçik olmasına baxmayaraq Qara dəniz sahillərindəki bütün ölkələr üçün strateji əhəmiyyəti vardır.

Krımın türk tarixi – türk birliklərinin Avrasiyanın şərqindən qərbinə doğru yayılmalarının ilk dövrlərindən başlayır. XIII əsrə qədər Krım yarımadası, əsasən, Roma və Bizans imperiyalarının təsir dairəsində olsa da, bir çox tarixi mənbələr bu bölgəyə türksoylu qıpçaqların gəlişinin hələ V-VI əsrlərdən etibarən başladığını təsdiq edir. Sonrakı əsrlərdə digər türk tayfalarının da Krım yarımadasına yayılması daha geniş vüsət alaraq, yarımadanın etnik mənzərəsini tamamilə türklərin xeyrinə dəyişmişdi. Nəticədə, XIII əsrin əvvəllərindən Krım ərazisində ardıcıl olaraq Türk, Monqol, Qızıl Orda hakimiyyətləri mövcud olmuşdur. Tarixən türklərin yayıldıqları ərazilərdə zəngin dövlətçilik ənənələrinin əsasını qoyması

Krımdan da yan keçməmişdi (12). Qızıl Ordanın əhəmiyyətli dərəcədə zəifləməsindən istifadə edən Krım türkləri I Hacı Girayın rəhbərliyi ilə 1441-ci ildə tarixdə ilk dəfə müstəqil Krım xanlığının əsasını qoydular. 1453-cü ildə Konstantinopolun fəthi bütün regionda geosiyasi durumu türklərin xeyrinə dəyişdi. Yaranmış əlverişli şəraitdən istifadə edən Krım xanlığı Osmanlı imperiyası ilə ittifaqa girməklə düşmənlərə qarşı güclü cəbhə formalaşdırmağa nail oldu. 1475-ci ildə Krım xanlığı Osmanlı imperiyasının təbəəliyinə keçsə də, geniş miqyasda muxtariyyət hüquqları əldə edərək, XVIII əsrin sonlarına qədər öz dövlətçiliyini qoruyub saxlaya bildi. Beləliklə, ötən ən azı beş yüz il ərzində bu regiona türklərin ruhu hopmuşdu (47).

Başıbəlalı Krımın tarixində  Azərbaycanın tarixinə bənzər məqamlar çoxdur. Bu yurd yeri də qədimdən bu günə qədər  bir çox tayfaların, xalqların yürüşünə, qələbəsinə, məğlubiyyətinə şahidlik eləməli olub. Ancaq Krımı eradan əvvəlki qaranlıq minilliklərdən götürüb bugünkü günümüzə gətirib çıxaran tarix buranın həmişə bir türk yurdu olduğunu təsdiq edir (15).

Qara dənizdə yerləşən yarımada tarix boyu Rusiya, Osmanlı imperiyası və Qərb dünyasını qarşı-qarşıya qoyub. 2009-cu ildə isə Moskva Bələdiyyəsinin rəhbəri Krım barəsində bunları demişdi: “Ukrayna Rusiyaya məxsus torpaqları geri qaytarmalıdır”.

Dünya siyasi tarixində təxminən 700 illik bir keçmişə sahib olan Krım geosiyasi və geostrateji baxımdan hər zaman mühüm rollara sahib olmuşdur. Krım orta əsrlərdən başlayaraq  Qızıl Orda, Osmanlı, Rusiya, ABŞ, Aİ kimi qurumların nüfuz sahibi olmağa çalışdığı kilidli bir bölgədir. Hər bir super gücün Krımla bağlı baxış bucağı fərqli olmuşdur. Məsələn Krım Qızıl Orda dövləti üçün yurd yeri, ana vətən  idi və bu baxımdan Krıma sahiblənmişdi. Osmanlı dövləti üçün Qaradəniz bölgəsini türkləşdirmək və gələkdə güclənəcək Rusiyanın bu bölgəyə iddialarının qarşısını almaq baxımından Krım əhəmiyyət daşıyırdı. Rusiya üçün isə isə Krım isti dənizlərə çıxmaq üçün açar rolunu oynayırdı (49).

Hər zaman “isti dənizlərə” çıxmaq xəyalı ilə yaşayan Rusiya üçün Krımın simvolik mənası var. Krım Ukraynanın bir parçası olsa da Rusiyanın burada böyük

dəniz donanması mövcuddur. Rusiya və Ukrayna arasında əldə olunan razılaşmaya əsasən, rəsmi Moskva ehtiyac olsa Krımdakı əsgərlərin sayını 20 minə qədər çatdıra bilərdi (31).

II dünya müharibəsində Krım mühüm rol oynadı. Adolf Hitler şərqdə Rusiyaya qarşı açdığı cəbhədə 1941-ci ildə vacib qələbə qazandı. Həmin ilin sonunda Krım yarımadasının böyük hissəsi almanların nəzarəti altına keçdi və 1942-ci ilədək bura nəzarət edə bildilər. Krım Hitler üçün Qafqaza çıxışda strateji məna daşıyırdı. Bəs Sovetlər birliyi dönəmində Krım necə Ukraynanın tərkibinə keçdi? 1954-cü ildə Sovet İttifaqının rəhbəri Nikita Xruşov Rusiyanın "Krım" xəyalını yenidən canlandırdı. O, 1654-cü ildə əldə olunmuş Perejaslau anlaşmasından istifadə etdi. 1954-cü ildə Ukrayna Sovet İttifaqının tərkibinə qatıldı. Lakin Krım 40 il Rusiyanın təkibində qaldı. SSRİ dağılandan sonra Krım yenidən Ukraynanın tərkibinə qatıldı (31).

Müasirlərinin yazdığına görə, Sovet İKP MK-nın o vaxtkı birinci katibi Nikita Xuruşov hələ 1944-1947-ci illərdə bu barədə düşünürdü. Həmin illər Nikita Xruşşov Ukraynada nazirlər sovetinin sədri idi. Stalinin ölümündən bir il keçməmiş, 1954-cü ilin yanvarın 25-də Krımın Rusiyadan alanaraq Ukraynanın tərkibinə keçirilməsi haqqında məsələ Sovet İKP MK rəyasət heyətində müzakirəyə çıxarıldı. Məsələ 11 bəndən ibarət idi, cəmi 15 dəqiqə müzakirə edildi. Rəyasət heyəti Krımla bağlı təklifini qəbul etdi. Krım Rusiyadan alınaraq Ukraynaya verildi. Partiyanın bu qərarına əsasən 1954-cü il fevralın 19-da SSRİ Ali Sovetinin Rəaysət Heyəti fərman verdi. Buna qədər Rusiya Sovet Fedaritiv Respublikasının Rəyasət heyəti məsələni müzakirə etmişdi. Rəyasət heyətinin 29 üzvündən 13-ü iştirak etsə də qərar qəbul edilmişdi. Əslində yetərsay olmadığına görə rəyasət heyəti belə qərar qəbul etməyə səlahiyyətli deyildi. SSRİ vahid dövlətdi, bir ərazinin bu respublikanın, yaxud digərənin olması o qədər də əhəmiyyət kəsb etmirdi. Heç kim yerli əhalinin fikrini soruşmamışdı, məsələ ilə bağlı referendum keçirmək gündəlikdə olmamışdı. Tarixçilərin fikrincə, partiya rəhbərləri bu mövzunu dilə belə gətirmədilər (35).

Krım rəhbərliyi Ukraynadan ayrılmaqdan danışır, amma unudurlar ki, 230 il əvvəl Osmanlı İmperiyası ilə Çar Rusiyası arasında bağlanmış Kiçik Qaynarca müqaviləsinə görə yarımadanın belə adımlar atmağa hüququ yoxdur. Həmin müqavilə bu gün də qüvvədədir və 1783-ci ildə çariça İkinci Yekaterina tərəfindən imzalanmış həmin müqavilədə deyilir: Krım Osmanlı İmperiyasının tərkibindən çıxaraq Rus İmperiyasının tərkibinə keçir. Müqavilədə yazılıb ki, yarımada öz müstəilliyini elan edə bilməz və üçüncü ölkəyə verilə bilməz. Belə olan halda Krım avtomatik şəkildə Türkiyənin ərazisi hesab olunmalı idi.

1991-ci ildə SSRİ dağıldı, Ukrayna öz müstəqilliyini elan etdi. Həmin il Türkiyə Kiçik Qaynarca müqaviləsinə istinad edərək Krımı geri tələb edə bilərdi. Amma O vaxtkı Türk hökuməti, prezident Turqut Ozal yaranmış geosiyasi vəziyyəti nəzərə alaraq bu məsələni qaldırmadı. Türk hökuməti Krım tatarlarının huquqlarının qorunması ilə bağlı bəyanatla kifayətləndi. İndi həmin hadisələrdən xeyli vaxt keçib. Krım Rusiyaya birləşməsi üçün əvvəlcə Ukraydan ayrılmalıydı. Türkiyə yalnız Krım Ukraynadan ayrıldıqdan sonra öz sözünü deyə bilərdi.

Lakin hadisələrə yalnız XX əsr prizmasından, yəni yalnız öz mənafeyinə uyğunluq mövqeyindən baxaraq, Krımın 1954-cü ildə Sovet İttifaqı tərkibində Ukrayna Sovet Sosialist Respublikasına verildiyini bəhanə gətirən Rusiya Krımı yenidən işğal etdi.

2013-cü ilin Avromaydan hadisələri Ukrayna tarixində çox çətin bir dövrə yol açdı. Maydan hərəkatı sözdə qalib gəldi və prezident Viktor Yanukoviç ölkəni tərk etdi. Ukraynada hakimiyyəti Ali Rada ələ keçirdi. Görünən isə odur ki, hərəkatın ardınca Ukraynada daxili vəziyyət nəinki sabitləşmədi, hətta Rusiyanın birbaşa müdaxiləsi nəticəsində Ukrayna Sevastopolu və Krımı itirdi, həmçinin də Şərqi Ukraynda separatçı qüvvələr baş qaldırdılar. Ukrayna faktiki olaraq bölünmə təhlükəsi ilə üz-üzə qaldı.

Baş verən hadisələrin Rusiyanın bölgədəki nüfuzunu alt-üst etdiyi barədə fikirlər səsləndiyi bir vaxtda Rusiya hərbi və siyasi üstünlüyə malik olduğu Krım bölgəsi vasitəsilə Kiyevə cavab vermiş oldu.

Qeyd etdiyimiz kimi, Ukrayna xalqı 21 noyabr 2013-cü ildə Kiyevin Azadlıq Meydanına çıxdı. Prezident Yanukoviçin Avropa Birliyi ilə assosiasiya haqqında razılaşmadan imtina barədə qərarı və bu barədə baş nazir Nikolay Azarovun bəyənatı etiraz aksiyalarının başlanmasına təkan verdi. Noyabrın 30-da xüsusi təyinatlı "Berkut" dəstələri Azadlıq Meydanına toplaşan etirazçılara qarşı güc tətbiq etdi. Yanvarın 16-da Ali Radada qəbul olunan, insanların etiraz aksiyalarında iştirak etmək hüququnu məhdudlaşdıran qərarlar isə vəziyyəti daha da pisləşdirdi. Yanvarın 22-də Kiyevin Qruşevski küçəsində "Berkut" ilə etirazçılar arasında yenidən baş verən qarşıdumalarda üç nəfər həyatını itirdi (51).

Fevralın 18-də isə Kiyevdə hüquq-mühafizə orqanları ilə aksiya iştirakçıları arasında yeni – həlledici toqquşmaların başlanmasından bir gün sonra isə Ukrayna Təhlükəsizlik Xidməti antiterror əməliyyatı rejiminin tətbiq olunduğunu elan etdi. Fevralın 21-də Ukrayna prezidenti Viktor Yanukoviç və Maydan hərəkatının liderləri olan Vitali Kliçko, Arseniy Yasenyuk və Oleq Tyaqnibok arasında Ukraynada siyasi böhranın nizama salınması haqqında razılaşma imzalandı.

Fevralın 22-də gecə Maydan fəalları hüquq-mühafizə əməkdaşları tərəfindən tərk edilmiş hökumət binasını tutaraq, bir sıra tələblər, o cümlədən prezident Yanukoviçin təcili istefası tələbini irəli sürdülər. Artıq proseslərin qarşısıalınmaz nöqtəyə gəldiyini başa düşən Yanukoviç canını Rusiyaya qaçmaqla qurtardı.

Yanukoviç kimi müttəfiqini itirməklə həm də Kiyevdə siyasi təsir gücündən məhrum olan Rusiya Krım planının icrasına başladı. 2014-cü ilin 16 martında Krımda referendum keçirildi və referenduma qatılanların doxsan altı faizi Rusiyaya birləşməyin lehinə səs verdi. Bir gün sonra isə Putin Krımın Rusiyaya birləşməsi qərarını təsdiqlədi və Georgiyevsk sarayında Krım Respublikası və federal şəhər statusunda Sevastopol Rusiyanın 84 və 85-ci federal dairələri elan edildi (51).

Göründüyü kimi, Rusiya tərfdarı Yanukoviç hakimiyyətinə qarşı başlanan etirazlar Rusiya tərəfindən ciddi reaksiya ilə müşaiyət olundu və sonrakı mərhələlərdə Ukrayna sərhədlərini aşaraq beynəlxalq təhlükəsizliyə qarşı ciddi

təhdidə çevrildi. Digər tərəfdən üç il ərzində Suriyada baş verənləri həll edə bilməyən beynəlxalq birliyin diqqəti Krımın bağımsızlığı ilə başlayan, getdikcə daha da ciddiləşən və həlledilməz şəklə gələn hadisələrin üzərində cəmləndi. ABŞ və Avropa İttifaqı referendumun nəticələrinin beynəlxalq hüquqa əks olduğunu, bu referendumu tanımadıqlarını və Rusiyaya qarşı sanksiyaların tətbiq ediləcəyini elan etdilər.

Dumada çıxışında, Krımın tarixinə toxunan Putin onun sakinlərinə qarşı baş verən ədalitsizliyi yada saldı, Krım tatarlarının sürgün olunması faktını belə təqdim etdi ki, Stalin dövründə ancaq milli azlıqlara qarşı deyil, ruslara qarşı da repressiyalar baş verirdi. O, qeyd etdi ki, Rusiyanın tərkibinə daxil olan Krımda 3 dövlət dili olacaq, rus, ukrayna və tatar dillləri. 1954-cü ildə Krımın Ukraynaya verilməsini qanunsuz adlandıran Putin bildirdi ki, Xruşşov 30-cü illərdə Ukrayna xalqına qarşı həyata keçirdiyi repressiyalara görə çəkdiyi vicdan əzabının təsirində idi və ya öz hakimiyyətini bərkitmək üçün Ukrayna elitasının köməyinə ehtiyacı var idi.

Kiyevdəki maydan hadisələrinə toxunan Putin bildirdi ki, Ukraynanın rüşvətxor hakimiyyətinə qarşı çıxan vətəndaşlarını başa düşür. Lakin sonradan, bu hadisələrdən Ukraynanın millətçi radikalları öz məqsədləri üçün istifadə etdi. Putin xatırladır ki, hər il 3 milyona yaxın Ukrayna vətəndaşı Rusiyada işləyərək çörək pulu qazanır, Ukrayna ÜDM-nin az qala 1/3-ni Rusiyada işləyən Ukrayna miqrantlarının evə göndərdiyi pullar təşkil edir. Qərbin sankisyalarına toxunan Putin deyir ki, onsuz Rusiyaya qarşı iqtisadi məhdudiyyətlər mövcud idi. Ukraynanın NATO-ya daxil olması planlarına münasibət bildirən Putin "Kiyev - qədim Rusiyadır" dedi. Bildirdi ki, Ukraynanın NATO-ya daxil olması o deməkdir ki, NATO donanması Krıma gələcək, Rusiya cənub sərhədlərində olacaq. "Mən təsəvvür edə bilmirəm ki, biz Krıma gedəndə NATO dənizçiləri tərəfindən qəbul olunacağıq. Onlar pis oğlanlar deyillər, amma yaxşısı budur qoy onlar bizə qonaq gəlsinlər, biz onlara yox".

Separatçılığı dəstəkləməklə Rusiyanın öz daxilindəki separatçılıqla üz-üzə qalması təhlükəsinə münasibət bildirən Putin bunu Qərbin hədəsi kimi

qiymətləndirdi və sual formsında Qərbin Rusiyanın daxilində "5-ci kolonu"nun mövcudluğunu bildirdi.

Çıxışının sonunda Putin gürültülü alqışlar altında Rusiya Federasiya şurasını və Dumasını Krımın və Sevastopol şəhərinin Rusiya Federasıyasının tərkibinə daxil olması haqda qərarın dəstəklənməsini xahiş etdi (29).

2014-cü ilin martında Krım yarımadasında təşkil edilmiş qondarma referendum Krımı yenidən Rusiyanın inzibati sərhədləri çərçivəsinə qaytardı. Rusiyanın hakim dairələri bu referendumun "şəffaf", əhalinin böyük əksəriyyətinin iştirakı ilə keçirildiyini iddia etdilər.

İki yüz ildən artıq müddətdə Rusiya imperiyasının tərkibində təqiblərə, işgəncələrə, ayrı-seçkiliyə məruz qalmış bir toplum hansı əsaslarla yenidən imperiya asılılığına düşməyə "hə" deyə bilərdi?! Odur ki, qondarma referendumun keçirilməsindən dərhal sonra Krım Tatarları Məclisi Baxçasarayda toplaşaraq yarımadanın ərazisində Krım Tatar Muxtar Vilayətinin yaradıldığını elan etdi. Bu addım əslində, heç bir beynəlxalq hüquq normasına sığmayan qeyri-qanuni anneksiyaya etiraz nümayişi idi. Muxtariyyət elan edilməsi ilə bağlı beynəlxalq ictimaiyyəti, BMT-ni, Avropa Şurasını, ATƏT-i, İslam Konfransı Təşkilatını rəsmi şəkildə məlumatlandırmaqla Məclis yarımadada baş verən ilhaq prosesinin Krım türklərinin iradəsi xaricində baş verdiyini bir daha bəyan etdi. Məhz o gündən etibarən Krım türklərinin hüquq və azadlıqları uğrunda mübarizə aparan şəxslərin öz doğma yurdlarını tərk etməyə məcbur edilməsi və Krım Tatar Milli Məclisinin sədri Mustafa Krımoğlunun yarımadaya qayıdışına yasaq qoyulması Krımda real durumun nə qədər acınacaqlı olduğunu göstərir. Bu barədə Britaniynın məşhur "The Sunday Times" qəzeti yerli əhaliyə istinadən məlumat verir ki, "Krım tatarlarının hüquqlarının kobudcasına pozulmasına qarşı hər hansı formada etiraz edilməsi insanların həyatı bahasına baş gələ bilər. Krımın qeyri-qanuni anneksiyasına qarşı çıxanların bir çoxunun itkin düşməsi və ya qeyri-müəyyən şəraitdə öldürülməsi hallarına tez-tez rast gəlinir." Bu, Krım türklərinə qarşı başlanan repressiya siyasətinin yeni dalğasından xəbər verir (12).

Avropa İttifaqı Parlamentinin qəbul etdiyi 13 mart 2014-cü il tarixli Qətnamədə Krımda keçirilmiş referendumun qeyri-qanuni olduğu bildirilsə də, etnik azlıq adlandırılan, əslində, yarımadanın əhalisinin əhəmiyyətli qismini təşkil edən Krım türklərinin hüquq və azadlıqlarının təmin edilməsinin zəruriliyi barədə heç bir müddəaya rast gəlinmir. Yalnız BMT Baş Assambleyası tərəfindən 27 mart 2014-cü ildə qəbul edilmiş Bəyannamədə Ukraynanın ərazi bütövlüyünə dəstək ifadə edilməklə yanaşı Krım türklərinin pozulmuş hüquqlarının bərpa edilməsinin vacibliyi qeyd edilmişdir (12).

Hadisələrə rusyönümlü qüvvələrin münasibətinə nəzər salaq. Tarix elmləri doktoru, professor Vyaçeslav Daşıçev "Ukrayna faciəsi və yeni soyuq müharibə" adlı məqaləsində Ukraynada baş verən hadisələri ABŞ-ın antirusiya siyasətinin kəskin şəkildə şiddətlənməsinin nəticəsi kimi qeyd edir. O yazır ki, 2014 – cü ilin əvvəli ABŞ antirusiya siyasətinin kəskin surətdə şiddətlənməsi ilə yadda qaldı. Kəskinləşmənin əsas mənbəyi Ukrayna oldu ki, həmin ölkədə baş verən hadisələr yalnız onun üçün deyil, həmçinin Rusiya və Avropa üçün çox təhlükəli nəticələrə səbəb oldu. Bütün əlamətlərə görə Avropada müharibəqabağı siyasi böhran yaradılırdı (66).

Vaşinqtonun yürütdüyü siyasətin bütün dünya üçün təhlükəli olduğunu müşahidə edən məşhur amerikalı tarixçi və politoloq, Nyu-York və Prinston universitetlərinin professoru Stiven Koen 16 iyun 2014-cü il tarixində Vaşinqtonda keçirilən rusiya-amerika forumunda etdiyi çıxışında demişdir: "Bizim bugünkü görüşümüz son onilliklər ərzində Rusiya və Amerika arasında baş verən münaqişənin ən pis və potensial ən təhlükəli dönəminə təsadüf edir. Bəlkə də analoji vəziyyət 1962-ci ildə Karib böhranı zamanı mövcud idi. Fevral ayında Kiyevdə hakimiyyətin qanunsuz yolla devrilməsi nəticəsində Ukraynada başlayan vətəndaş müharibəsi artıq ABŞ və Rusiya arasında müharibəyə çevrilməkdədir. Belə ki, ağlasığmaz vəziyyət artıq təsəvvür oluna bilir. Söhbət ABŞ başçılığı ilə NATO ilə postsovet Rusiyası arasında real müharibədən gedir". Digər qərb və rusiya alimləri və siyasətçiləri də dünyanın taleyi ilə bağlı narahatçılıqlarını ifadə etmişlər (66).

Tədqiqatçı qeyd edir ki, XX əsrdə avropanın hakim elitaları özlərinin böyük dövlətçilik ambisiyalarında ilişərək, millətlər üzərində hökmranlıq əldə etmək, onlara öz iradəsini sırımaq istəyi ilə, iki "qaynar" və bir "soyuq" müharibəni başlamışlar. Bu müharibələr həqiqətən də Avropa üçün fəlakətli dağıdıcı aqibətlə nəticələndi. ABŞ üçün isə onlar qlobal super dövlətə çevrilmək üçün unikal geosiyasi şərait yaratdılar. Okeanın o tayında qalıb, bir əsr davam edən "avropa qiyamından" fayda əldə etməklə ABŞ asanlıqla Avropaya öz hegemonluğunu sırıya bildi6 (65).

Qəbul etmək lazımdır ki, ABŞ-nın bu cür yüksəlişinə İkinci dünya müharibəsindən sonra ağılsız sovet siyasəti şərait yaratmışdır. Qələbədən sonra Stalin və onun ardıcılları fəal şəkildə messianizm xarakterli kommunizm ekspansiyasını həyata keçirməyə başladılar, halbuki onlar, bunun öz ölkələri və dünya birliyi üçün hansı ağır geosiyasi nəticələr verəcəyi barədə düşünməmişlər. Demək olar ki Avropanın yarısı o zamanlarda sovet hakimiyyətinin təsiri altında idi. Qərb ölkələrinin hakim qüvvələri Sovet İttifaqının timsalında özləri üçün ciddi təhlükə gördülər və onun qarşısını almaq üçün Birləşmiş Ştatların başçılığı altında ümumdünya antrisovet koalisiyasında birləşdilər.

Okeanın o tərəfində olan dövlət onların müstəqilliyinin hərbi və siyasi təminatçısı və müdafiəçisi olmuşdur. Bunun sayəsində o, Qərbi Avropa ölkələrini öz iradəsinə tabe edə bildi. Avropada amerika hökmranlığının başlıca aləti 1949-cu ildə yaradılmış Şimali Atlantika bloku olmuşdur. Onun baş katibi İsmey o zaman NATO-nun amerika doktrinasını bu cür şərh etdi: "Amerikalıları Avropada, almanları yüyəndə, rusları isə avropadan kənarda saxlamaq". Mahiyyət etibarı ilə həmin doktrina müasir dövrdə də qüvvədədir.

Sovet İttifaqı üçün "soyuq müharibə" ağır yükə çevrildi. O sovet hakimiyyətinin gücünün tükənməsinə və onun 1991-ci ildə dağılmasına səbəb oldu. Bundan sonra ABŞ üçün qlobal hökmranlığın bərqərar edilməsi, birqütblü dünyanın və amerika imperiyasının yaradılması üçün gözəl fürsətlər yaranmışdır. Bütün bunlar ABŞ administrasiyası tərəfindən işlənib hazırlanmış "Yeni Amerika əsri layihəsində" daha aydın təzahür etmişdir.

Lakin amerikanın siyasi strateqləri nahaqdan öz planlarının asanlıqla və maneəsiz reallaşacağına inanırdılar. Dünyada böyük dəyişikliklər baş verdi. İlk öncə 1985-1990 illərdə Sovet İttifaqında baş verən yenidən qurulma zamanı messianizm ekspansiyası siyasətinə xitam verilmiş və Sovet İttifaqının xarici siyasət kursunun yeni sülhsevər prinsipləri işlənib hazırlanmışdır. Avropada mövcud olan yeni vəziyyət ABŞ üçün əlverişsiz olan bir çox xüsusiyyətlərlə səciyyələnmişdir.

İlkin olaraq  Avropa ölkələri üçün "Şərqdən gələn təhlükə" sovuşdu. Bununla da onların ABŞ köməyindən olan asılılıqları aradan getdi. Avroatlantik birliyin eroziyası əlamətləri yaranmağa başladı. Bu azmış kimi, bütün bunlara kapitalist iqtisadiyyatını bürüyən böhran ucbatından ABŞ mövqelərinin dünya arenasında zəifləməsi əlavə olundu. Hökmranlıq siyasətinin həyata keçirilməsi nəticəsində ABŞ-nın "imperiya gərginliyi" daha çox hiss olunurdu. 2013-cü ilə amerikanın dövlət büdcəsinin defisiti 17 trilyon dollara çatmışdır. Bundan başqa, dolların dünyanın əsas ödəniş vasitəsi olmaması təhlükəsi yarandı və bu təhlükə artmaqda idi. Bu isə amerikanın qlobal hegemonluğunun sonu ilə nəticələnə bilərdi (66).

Referendumdan əvvəl ABŞ və Qərb müttəfiqləri məsələni BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxardılar  və referendumun nəticələrinə əsaslanaraq Krımın hüquqi statusunda ediləcək  hər hansı dəyişikliyin beynəlxalq birlik tərəfindən  tanımayacağı haqda layihəni TŞ-na təqdim etdilər, lakin Rusiya Ukraynanın ərazi bütövlüyü məsələsinə diqqət çəkən və Krımdakı referendumun nəticələrinin tanınmamasını nəzərdə tutan bu layihəyə veto qoymaqla qərarın qəbulunu əngəllədi.

ABŞ prezidenti Barak Obama bildirdi ki, Rusiya Ukraynaya müdaxilə etməklə beynəlxalq hüquqa qarşı gəlmiş olur. Rusiya buna görə cəzalandırılmalıdır. Bütün dünya Rusiyanın atdığı addımların Ukraynanın suveren hüquqlarını və beynəlxalq hüquq normalarını pozduğunu anlayır. Həmçinin Krımla bağlı Rusiyanın hərəkətləri beynəlxalq sülh və təlükəsizliyi təhdid edir. 2014-cü ilin martın 2-də ABŞ senatının Xarici Əlaqələr Komitəsinin sədri Con Kerri bəzi

ölkələrin XİN başçıları ilə telefonda danışmış və bildirmişdir ki, onlar Rusiyanı izolə etməkdə ortaq baxışlara sahibdirlər. Lakin Almaniya XİN Frank-Volter Steinmeier Ukrayna-Rusiya probleminə diplomatik yolla aydınlıq gətirilməsinin vacibliyini vurğulamışdır (46).

Almaniya XİN-nin məsələyə bu cür yanaşması zənnimizcə normaldır. Çünki ABŞ-Rusiya ticari-iqtisadi əlaqələri ilə Avropa ölkələri-Rusiya əlaqələri eyni deyil. ABŞ-Rusiya ticarət əlaqələri ABŞ-ın toplam ticatərinin hardasa bir faizini təşkil edir. Avropa ölkələrində isə bu fərqlidir. Avropa ölkələrinin Rusiya ilə geniş enerji, ticari-iqtisadi əlaqələri var və bu əlaqələri bir anda kəsmək mümkün deyil.

Məsələyə beynəlxalq münasibətlər üzərindən baxdıqda, Yanukoviçin qərb ölkələrinin dəstəyi ilə hakimiyyətdən devrilməsi və qərbyönümlü müxalifətin hakimiyyət başına gəlməsi Rusiyanın həyati maraqlarının olduğu bir ölkənin Moskva üçün itirilməsi anlamına gəlir. Bu səbəbdən də, Rusiyanın hadisələrə sakit qalmayacağı tam təbii qarşılanmalıdır. Rusiyanın Ukraynanı Qərbə güzəştə gedəcəyini düşünmək reallığa uyğun deyil. Rusiya əhalisinin təxminən altmış faizi ruslar və ya russdilli olan Krımı ələ keçirməklə, sanki Qərbə meydan oxudu.

Hadisələrə beynəlxalq hüquq müstəvisində baxsaq, nəticə etibarilə Rusiya Krımı əvvəlcə işğal etdi, sonra isə ilhaq edərək özünə birləşdirdi. Rusiya nə qədər Krıma müdaxiləni bölgədəki rus vətəndaşlarına və hərbi hissələrinə təhdidin qarşısını almaq adı altında qanuniləşdirməyə çalışsa da, məsələ beynəlxalq hüquq baxımından bir işğal faktıdır (54).

Beynəlxalq hüquqa görə, bir dövlətin açıq bir şəkildə digər bir dövlətə aid ərazi üzərində nüfuzunu yayması və səlahiyyətlərə sahib olması işğal faktıdır. Məsələyə xalqların öz müqəddəratını təyin etmə hüququ baxımdan baxıldıqda, bir məqama diqqət yetirmək lazımdır. “Öz müqəddəratını təyin etmə” o deməkdir ki, hər bir xalq xaricdən müdaxilə olmadan sərbəst olaraq özü öz statusunu müəyyən edə bilər və öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirə bilər (11,s.38). Belə ki xalqların öz müqəddəratını təyin etmə hüququ müstəmləkə və ya işğal altında olan xalqlara olub, bu xalqların öz iradələri ilə dövlətini qurmasını və ya başqa bir dövlətə birləşməsini nəzərdə tutur.

Krımın Rusiya tərəfindən ilhaq edilməsi bir sıra mütəxxəssislərin dəyərləndirmələrində rəsmi Moskvanın yeni imperiya yaratmaq niyyəti ilə əlaqələndirlir və prezident Putinin Qərbi, xüsusilə də ABŞ-ı aldatması kimi qiymətləndirilir.

Qərbin nüfuzlu siyasətçiləri, ekspertləri və media nümayəndələri Barak Obamanı sərt tənqid edirlər. Tənqidçilər ABŞ dövlət başçısının prezident Putinin məqsədlərini proqnozlaşdıra bilmədiyi qənaətini irəli sürürlər. Sovet İttifaqının dağılmasından sonra bir çox siyasətçilərin Rusiyanın Ukraynanı, xüsusilə də Krımı ilhaq etmək niyyətində olması haqqında xəbərdarlıqlar etmələrinə baxmayaraq, Barak Obama administrasiyasını bu bəyanatları nəzərə almadığına görə də tənqid edirlər. Obamanı tənqid edən dairələrdə belə hesab edirlər ki, zaman-zaman verilən bu açıqlamalar nəzərə alınsaydı və gərəkli tədbirlər görülsəydi bu gün Rusiya Krımı ilhaq edə bilməzdi. Digər tərəfdən, Putinin təbliğatçıları bildirirlər ki, Moskva Krımı ilhaq etməklə Vaşinqtonu artıq baş vermiş fakt qarşısında qoydu. Barak Obama administrasiyasının belə tənqid olunmasına Vaşinqtondan verilən bəzi açıqlamalar da əsas verir.

Məsələn, Vaşinqtondan yayılan məlumatların birində qeyd edildiyinə görə, ABŞ kəşfiyyatı Rusiya qoşunlarının Ukrayna ilə sərhəddə cəmləşməsini müşahidə etsə də, əsgərlərin sərhəddi keçməsi ilə bağlı əmrin olması barədə məlumat əldə edə bilməyiblər. Qərb mediasında, ABŞ kəşfiyyatının Rusiya rəsmilərinin danışıqlarını dinləməsinə baxmayaraq, hücum olacağı ilə bağlı informasiya əldə olunmadığı haqda da məlumatlar yer alır.

Rusiyanın Krımı ilhaq etməsinə görə Obama administrasiyasına qarşı yönələn tənqidləri diqqətlə izlədikdə, bunun bir kampaniya olması şübhəsi yaranır. Hətta Rusiyanın Krımı ilhaq etməsinin özünün də Vaşinqtonun təxribatının nəticəsi olması istisna edilə bilməz (6).

Bir sıra mütəxəssislərin qənaətinə görə isə, Vaşinqton son iyirmi ildə məhz Avropa üzərində söz sahibi olmaqla ABŞ-ın dünya liderliyini qoruyub saxlaya bilmişdi, lakin son zamanlar vəziyyət dəyişmişdir. Rusiyanın Krımı ilhaq etməsi ilə yeni reallıq meydana gəldi. Qeyd olunan mülahizələrə görə, Avropa üzərində

hakimiyyətini təmin edən ABŞ-ın yeni hədəfi Avrasiyadır. Rusiyanın Krımı ilhaq etməsi ABŞ-ın bu məqsədə gedən yollarına işıq salmış oldu.

Krımın ilhaq edilməsi bir sıra iqtisadi dəyişikliklərə də səbəb oldu və bu Krımın yerli əhalisinə təsirsiz ötüşmədi. Rusiya ilhaqından sonra Qərb ölkələri sanksiyalar siyasətinə başladılar və xeyli sayda Avropa və Amerika şirkətləri Krımı tərk etdi. Məsələn, McDonalds kimi fast-food şirkətləri, Visa, Mastercard, Apple və s. şirkətlər artıq Krımda fəaliyyət göstərmir (48).

Krımın işğalından üç il keçsə də, Qərbin mövqeyi barışmaz olaraq qalır. Britaniyanın xarici işlər nazirliyinin yaydığı bəyanatda XİN başçısı Philip Hammond israr edir ki, Rusiya Krımı Ukraynaya qaytarmalıdır.

"Bir il öncə Krımın Rusiya tərəfindən qanunsuz ilhaq olunması beynəlxalq qanunvericiliyin açıq-aşkar pozuntusu idi. Bu, Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə tam saymazlıq göstərdi və mən ilhaqı sərt qınayıram", cənab Hammond deyib (5).

XİN başçısının sözlərinə görə, Birləşmiş Krallıq ötən il Krımda keçirilən "referendumu" tanımır, səsvermə isə olanları ört-basdır edən əməliyyat olaraq həyata keçirilib. Philip Hammond qeyd edib ki, sərhədləri dəyişmək üçün gücün tətbiq olunması "tamamilə qəbuledilməzdir" və beynəlxalq təhlükəsizliyi təhlükə altına qoyur. Krım ötən il martın 18-də formal olaraq Rusiyaya birləşdirilib, lakin bu addım beynəlxalq icma tərəfindən tanınmayıb (5).

Anoloji reaksiyanı Fransanın da nümayiş etdirdiyini görürük. Fransa Rusiyanın Krımı işğalının üçüncü ilində müraciət edərək beynəlxalq tanınan sərhədlər çərçivəsində Ukraynanın ərazi bütövlüyü və suverenliyinin tam olaraq yenidən təsis edilməsini istəyib. Fransa XİN-nin şərhində bildirilir ki, sərhədləri müzakirəyə qoymaq beynəlxalq hüquqa ziddir, beynəlxalq təhlükəsizliyi birbaşa təhdid etməkdir, bütün ölkələrin suverenlik və ərazi bütövlüyünü qorumaqla bağlı nizamda ciddi fəsadlar yaradır. Buna görə beynəlxalq ictimaiyyət, Avropa İttifaqı və Fransa Krımın Rusiya tərəfindən işğalını tanımır (33).

Krımın Rusiya tərəfindən işğalına Polşa, Çexiya və s. kimi ölkələrdən də sərt reaksiya göstərildi. Ümumilikdə Aİ-dən Ukraynanın Rusiyaya olan qaz borcunu

ödəyəcəyi ilə bağlı bəyanatlar səsləndi. Bu barədə ABŞ tərəfindən də səslənən fikirlər mətbuatda yer alır.

Tanınmış politoloq, Rusiyaya münasibətdə və Ukrayna hadisələri ilə bağlı sərt mövqe tərəfdarı olan Bjezinski isə hesab edir ki, ABŞ Ukraynada gedən proseslərə kifayət qədər fəal yanaşmır. Onun fikrincə, ABŞ artıq Ukraynadakı proseslərə sadəcə reaksiya verməklə kifayətlənməyib, böhranın nəticələrinin formalaşdırılmasında aktiv iştirak etməlidir: "Hadisələrə reaksiya verməklə onları yönləndirmək arasında böyük fərq var. Reaksiya ümumi qələbəyə, bizim dəyərlərimizin, gücümüzün və kəşfiyyatımızın uğuruna inamı nəzərdə tutur. Bu yanaşma qısamüddətli perspektivdə əldə oluna bilən nəticələrə köklənməyi və bizi maraqlandıran məsələlərlə yanaşı, Rusiyanın maraqlarını da nəzərə almağı tələb edir. Çünki, bu cür yanaşma nəticəsində böhran tərəflərdən heç birinin tam qələbəsi ilə başa çatmayacaq" (4).

Sonda onu qeyd edək ki, Qərbdə Ukrayna hadisələrinə kəskin reaksiya bildirildi. Ukraynaya ərazi bütövlüyü məsələsində dəstək nümayiş etdirildi, Rusiyaya, o cümlədən, Donbas və Krımdakı separatçılara qarşı sanksiyalar tətbiq edildi. Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsini bu hadisələrlə müqayisə etdikdə belə nəticəyə gələ bilərik ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması faktı dünya ictimaiyyəti tərəfindən qəbul olunub və BMT TŞ-da bu barədə dörd qətnamə qəbul olunub, lakin bu günə qədər münaqişədən keçən dövr ərzində təcavuzkara qarşı heç bir sanksiya nəzərdə tutulmayıb. Bu isə ikili standartların tətbiq olunduğunu düşünməyə əsas verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) direktoru Fərhad Məmmədovun qeyd etdiyi kimi, "Əgər hər hansı bir ölkənin sərhədlərinə təhdid mövcuddursa, onların silahlı yolla dəyişdirilməsinə cəhd varsa, dünya ictimiayyətində buna qarşı birmənalı cavab formalaşmalı, günahkar tərəfə sanksiyalar tətbiq olunmalıdır. Əgər bu sanksiyalar bir ölkəyə tətbiq olunur, digərinə isə tətbiq olunmursa, o zaman əlbəttə ki, biz yaxın gələcəkdə dünyada yeni münaqişələrin şahidi ola bilərik" (34).

## 2.2. Ukraynada separatçılığın böyük dövlətlər tərəfindən tənzimlənmə cəhdləri və Rusiya

Ukraynada baş verən  gərgin hadisələr (əslində müstəqillik uğrunda müharibə) müasir dünya siyasətinin diqqət mərkəzində olan məsələdir və şübhəsiz ki, ən yeni dünya tarixinin ağır səhifələridir. Keçən dövr ərzində bu ölkə və orada baş verən hadisələr  istisnasız olaraq bütün böyük güclərin diqqət mərkəzində olub.

2013-cü ilin noyabr ayından bu yana baş verən hadisələrə baxdıqda görürük ki, Yanukoviçin Aİ-Moskva arasında yürütməyə çalışdığı tarazlıq siyasəti heç də uğurlu olmadı. Burada Rusiya amili ilə yanaşı, həm  də Aİ-nın Ukraynanı hansı geosiyasi, siyasi və iqtisadi pəncərələrdən dəyərlndirdiyi də önəmli rol oynadı. Ancaq Aİ Moskvanın təsiri ilə imzalanmayan Ortaqlıq müqaviləsinə reaksiyasını Kiyevdəki Maydan hadisələrini dəstəkləməklə ortaya qoydu.

Ukrayna hadisələri hal-hazırda strategiya və taktiki maraqların tərkibində qərarlaşıb. Rusiya strateji maraqlarını təmin etmək üçün taktiki addımlardan, hərbi-iqtisadi vasitələrdən istifadə edir.  Vaxtilə,  -SSRİ dövründə "simbioz" yaşamış (iqtisadiyyatları, mədəniyyələri, siyasətləri müştərək olmuş) Rusiya və Ukrayna əlaqələri və münasibətləri  indi Ukraynanın az qala servituta çevrilməsi (ölkə de-fakto  ərazisinin bir qisminə dair olan hüquqlarından məhrum olub)  ilə gərginləşməkdədir. Təbii ki, çoxbucaqlı diplomatiya (əsasən, Avropa-Rusiya diplomatiyası) Ukrayna üçün çıxış yolunu vəd etmir və sadəcə olaraq oyunların tərkibi olaraq qalmaqdadır. Ukrayna hadisələri timsalında hərb və diplomatiya özü üçün predmet əldə edib. Ukrayna-Rusiya hadisələri daha çox makro geosiyasətin, makro maraqların  tərkibidir. Rusiyanın regional taleyi bu məsələdə həll olunur.

Krımın itirilməsi və Donetsk və Luqansk bölgələrində separatçılığın baş qaldırması, Ukraynanın  şərqində Rusiyayönümlü qüvvələrlə başlayan qarşıdurmalar Ukraynanı parçalanma təhlükəsi ilə üz-üzə qoydu.

Belə ki, hökümətin dəyişməsindən sonra Kiyev və ona yaxın ərazilərdə etirazlar səngidi, lakin Rusiyameyilli əhali Yanukoviçin hakimiyyətdən

getməsindən sonra hakimiyyət başına keçən yeni hökumətə qarşı ayağa qalxdılar. Krımın ilhaq olunmasından sonra etnik rusların üstünlük təşkil etdiyi Odessa, Xarkov, Donetsk, Luqansk kimi şəhərlərdə etirazlar başladı. Etirazlar Şərqi Ukraynanın Donbas bölgəsində silahlı münaqişəyə gətirib çıxardı. 2014-cü ilin aprelin sonlarına qədər Donetsk və Luqansk əyalətlərinin böyük hissəsi üsyançılar tərəfindən ələ keçirildi. Hökumət mərkəzlərində Ukrayna bayraqları endirilərək üsyançıların və Rusiyanın bayraqları qaldırıldı. Nəticə etibarilə, Donetsk və Luqansk kimi iki böyük şəhər və eyni zamanda iki böyük əyalət mərkəzi ələ keçirildi (32).

İlk əvvəllər Ukraynada yeni qurulan hökumət daxilində qarışıqlıqlar üzündən Ukrayna Ordusu geri planda durmuşdur. Yalnız may ayının sonu, iyunun əvvəllərində Ukrayna Ordusu ümumi hücuma keçdi və silahlı qarşıdurmalar başlandı. Ordu havadan və qurudan üsyançıların mövqelərini güclü bombardman etdi və bu əsnada xeyli sayda dinc vətəndaş da həyatını itirdi. On minlərlə insan Qərbi Ukraynaya, Rusiya, Macarıstan, Bolqarıstan kimi qonşu ölkələrə sığınmaq məcburiyyətində qaldılar.

İyunun əvvəllərində Ukrayna Ordusu üsyançıların əlindəki ən önəmli nöqtələr hesab olunan Kramatorsk və Sloviansk ərzilərini ələ keçirdi. Lakin Rusiyanın dəstəyini artırması nəticəsində üsyançılar hökumət binalarını ələ keçirdilər və Donetsk və Luqansk Xalq Respublikalarını qurduqlarını elan etdilər. 2014-cü ilin iyun ayının 26-da Luqansk və Donetsk Respublikaları birləşərək Xalq Birliyi Respublikasını qurduqlarını bəyan etdilər (32).

Göründüyü kimi, Maydanda başlayan hadisələr sonrakı mərhələlərdə ciddi böhranlı vəziyyətə çevrildi, bu böhran Ukrayna sərhədlərini aşdı və hətta beynəlxalq təhlükəsizliyə qarşı ciddi təhdidə çevrildi. Digər tərəfdən illərdir Suriyada baş verənlərə bir həll yolu tapa bilməyən beynəlxalq birliyin diqqəti Krımın bağımsızlığı ilə başlayan, getdikcə daha da ciddiləşən və həlledilməz şəklə gələn Ukrayna hadisələrinin üzərində cəmləndi. ABŞ və Avropa İttifaqı Krımda baş tutan referendumun və nəticələrinin beynəlxalq hüquqa əks olduğunu, bu referendumu tanımadıqlarını və Rusiyaya qarşı sanksiyaların tətbiq ediləcəyini

elan etdilər. Digər tərəfdən Ukraynada separatçılıq baş alıb gedirdi və bu gün də davam edir.

Böhranın həlli istiqamətində ilk ciddi addım kimi 5 sentyabr 2014 cü ildə Minskdə Ukrayna, Rusiya, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı nümayəndələri və Donetsk və Luqansk təmsilçiləri arasında atəşkəsin əldə olunması barədə protokol imzalandı. Sənədə əsasən tərəflər dərhal qarşıdurmalara son qoymalı və sülh danışıqlarına başlamalıydılar. Amma bu protokolun imzalanması silahlı qarşıdurmalara son qoymadı və keçərsiz oldu (41).

Sentyabr ayının sonlarında 5 sentyabr atəşkəs razılaşması pozuldu və Ukrayna Ordusu ilə üsyançılar arasında silahlı münaqişə yenidən alovlandı.Qarşıdurmalar daha çox Donetsk hava limanı ətrafında və Novoazovsk ilə Mariupol arasında gedirdi. Novoazovsk yenidən separatçıların əlinə keçdi.

2015-ci ilin yanvar ayında Ukrayna Ordusu artıq Donetsk hava limanından geri çəkilməyə məcbur oldu.Həmçinin rusyönümlü qüvvələr Mariupoldan ətraf ərazilərə də hücumlara başladılar. Donetsk Xalq Respublikasının lideri Zakarçenko bildirirdi ki, məqsəd Donetsk əyalətinin sərhədlərinə tam olaraq sahib olmaqdır (52).

Fevralın əvvəllərində separatçılar Debaltsevo ərazilərinə hücum əməliyyatlarını genişləndirdilər və uzun sürən silahlı qarşıdurmaların sonunda separatçılar Debalsevonu ələ keçirdilər (61).

Fevralın 6-dan Ukraynadakı vəziyyət artıq dünyanın ən aparıcı mövzusu idi. Bu məsələ hətta İŞİD və "Taliban" kimi terrorçuların fəaliyyətini də kölgədə qoymuşdu. Dünya liderlərinin, dünyamiqyaslı kütləvi informasiya vasitələrinin, qəzet və jurnalların diqqəti Ukraynaya yönəlmişdi.

Hadisələrin yüksələn tempdə inkişaf etməsi Almaniya və Fransa liderlərini hərəkətə keçirdi. Almaniya Federal Kansleri Angela Merkel və Fransa Prezidenti Fransua Olland 6 fevral 2015-ci il tarixində Moskvaya gələrək prezident Putin ilə görüşlər keçirdilər və məsələni Minskdə Ukrayna prezidenti Pyotr Poroşenkonun da qatılacağı “Normandiya formatı”nda keçirilməsi planlaşdırılan bir görüşdə

müzakirə etmək barədə qərara gəldilər. Bəzi mütəxəssislər Moskva görüşünü II Dünya müharibəsinin sonuna doğru keçirilmiş Yalta konfransına bənzədirlər. Çünki Ukraynada vətəndaş müharibəsi, dinc əhalinin öldürülməsi həm regional, həm də beynəlxalq sülh və təhlükəsizliyə qarşı ciddi bir problemdir (41).

Ukrayna böhranı Qərb ölkələri ilə Rusiya arasındakı gərginliyi təhlükəli məcraya aparırdı. 6-8 fevral 2015-ci ildə Münhendə keçirilən Təhlükəsizliyə dair konfransda avropalı siyasətçilər Ukraynaya silah verilməsinin münaqişəni uzatmaqdan başqa bir işə gəlmədiyini bildirdilər. Fransa prezidenti Fransua Olland və Almaniya federal kansleri Angela Merkel Münhen konfransının gedişində Ukrayna və Rusiya prezidentləri ilə görüşərək Ukrayna böhranın tənzimlənməsinə dair yeni sülh təşəbbüsləri ilə çıxış etdilər. Prezident Poroşenko bildirdi ki, münaqişəni dondurmaq yox, həll etmək lazımdır. Bunun üçün səylərimizi birləşdirməliyik . Əksinə, amerikalılar isə silah təchizatına tərəfdar yönümlü mövqe sərgilədilər. Bele vəziyyətdə NATO ilə Rusiya qarşı-qarşıya qala bilərdi. Ancaq Merkel və Olland bu varianta getmədilər. Belə ki, Rusiya tərəfinin gərginliyin artmasında birbaşa ABŞ və Aİ-nı günahlandırması da sülhü təmin etmə fəaliyyətini ön plana çəkirdi (9) .

Almaniyanın Münhen şəhərində 7 fevral, 2015-ci il tarixində başlayan 51-ci Münhen Təhlükəsizlik Konfransında danışan Almaniya federal kansleri Angela Merkel, Ukrayna böhranının hərbi yollara müraciət edilərək həll edilə bilməsinin mümkünsüzlüyü fikrini müdafiə etdi (62).

Qərbin Rusiya ilə münaqişələrə göz yumaraq deyil, Rusiya ilə əməkdaşlıq halında Avropada təhlükəsizliyi təmin etməyə çalışdığını söyləyən Merkel, Rusiyanın da böhranın həllində iştirak etməsinin lazım olduğunu ifadə etdi. Vladivostokdan Lissabona uzanan "böyük bir Avropanın" yaradılmasının Ukrayna böhranını həll etmədən mümkün ola bilməyəcəyini ifadə edən Merkel, beynəlxalq hüquqa da riayət etməyin lazım olduğunun vurğuladı: "Kimsə Avropada yeni bir bölünmənin meydana çıxmasını və ya gərginliyin yüksəlməsini istəmir"

Fransa prezidenti Fransua Holland, Almaniya lideri Angela Merkel ilə Rusiyaya etdikləri səfərin və eyni zamanda Dövlət Başçısı Vladimir Putinlə bu

əsnada keçirdikləri görüşün , Ukrayna böhranının həlli üçün atdıqları son addım olduğu mesajını verdi. Tull şəhərində jurnalistlərin suallarını cavablandıran Holland: "Bu əlimizdəki son şanslardan biri idi. Buna görə belə bir cəhdi də etdik"-dedi.

Ancaq "qaçınılmaz ssenariyə" də toxunan Holland: "Razılığa gəlməklə yanaşı davamlı bir sülh razılaşması da imzalanmasına nail ola bilməsək, ssenarinin gedişatının necə olacağını hamımız çox yaxşı bilirik. Bu ssenarinin bir adı var: "Döyüş" deyə Holland vurğuladı (44).

Beləliklə, diplomatik səylərin Minskdə Normandiya formatında keçirilən görüşdə davam etdirilməsi qərara alındı. Görüşün Normandiya formatı adını almasının səbəbi isə o idi ki, dörd lider Ukrayna münaqişəsinə dair yol xəritəsi planı hazırlamaq üçün ilk dəfə 6 iyun 2014-cü ildə bir masa arxasında oturmuşdu. Bu isə 1944-cü ildə Normandiyanın azad olunmasının 70 illiyi mərasiminə təsadüf edirdi.

Normandiya dördlüyünun Minskdə zirvə görüşü 11 fevral 2015-ci ildə keçirildi. Mətbuat yazırdı ki, Minskdə diplomatik marafon demək olar 16 saat davam etdi. Bu, prezident Vladimir Putinin karyerasında ən uzunsürən danışıqlardan biridir (69).

Gərgin siyasi dialoqun sonunda liderlər ortaq qərara gələ bildilər. Ukrayna üçün tarixi bir atəşkəs qərarı qəbul olundu. Ukrayna, Rusiya, Fransa və Almaniya rəhbərləri - Pyotr Poroşenko, Vladimir Putin, Fransua Olland və Angela Merkel arasında keçirilən danışıqlarda əldə olunan razılaşmalar üçtərəfli təmas qrupu (Ukrayna, Donetsk-Luqansk separatçıları, ATƏT) tərəfindən imzalandı (68). Sənədə Donetsk və Luqansk separatçılarının liderləri Aleksandr Zaxarçenko və İqor Plotnitski də imza atdılar. Sənəddə aşağıdakı müddəalar nəzərdə tutulurdu:

- Fevralın 15-də saat 00.00-dan etibarən atəşin dayandırılması;
- Fevralın 16-dan gec olmayaraq ağır silahlar və hərbi texnikanın təmas xəttindən qarşılıqlı olaraq geri çəkilməsi və bu prosesin 14 gün ərzində sona çatması;

- Ukraynada 2015-ci ilin sonuna qədər Konstitusiya islahatı həyata keçirilməsi və yeni Konstitusiyada hakimiyyətin qeyri-mərkəzləşdirilməsinin (desentralizasiya) təsbit olunması;

- Donbassın separatçıların nəzarətindəki hissəsinə xüsusi status verilməsi, hərbi əməliyyatların iştirakçılarının amnistiyası, dil hüququ, Rusiya regionları ilə transsərhəd əməkdaşlığı;

- Donbassın yerli idarəetmə orqanlarının bölgəyə hakimlərin və prokurorların təyinatında iştirakı, xalq milisinin yaradılması;

- Bütün qanunsuz silahlı dəstələrin tərksilah edilməsi;

- Bütün xarici silahlı birləşmələrin, hərbi texnikanın və muzdluların ATƏT-in müşahidəsi altında Ukraynadan çıxarılması (53).

Görüşdən sonra keçirilən mətbuat konfransında Fransa prezidenti Fransua Olland qəbul edilmiş qərarların Ukrayna münaqişəsinin gələcəyinə dair bir ümid, Avropa təhlükəsizliyi üçün önəmli addım olduğunu bildirdi. Almaniya kansleri Merkel isə hələ əngəllərin çox olduğunu dilə gətirdi (50).

Ukrayna prezidenti Pyotr Poroşenko görüşdən sonra mətbuata verdiyi açıqlamasında nikbin çıxış edərək bildirdi ki, Ukrayna sərhədçiləri 2015-ci ilin sonuna qədər Rusiya ilə sərhədin hazırda separatçıların əlində olan hissəsinə nəzarəti bərpa edəcəklər. Prezident bildirib ki, əldə olunan razılaşmaya əsasən bütün girovlar 19 gün ərzində azad olunacaq. Prosesin davamı olaraq Ukrayna və Rusiyanın Baş Qərargah rəisləri fevralın 15-də atəşkəs rejiminə əməl olunmasına nəzarətlə bağlı görüş keçirəcəklər (59).

Lakin hadisələr göstərdi ki, Minsk razılaşması əldə olunsa da tərəflər silahı yerə qoymaq fikrində deyildilər.Ukraynanın şərqində separatçılar hökumət qüvvələri ilə döyüşləri davam etdirirdilər. Prezident Poroşenko isə bəyan etdi ki, Minsk razılaşmaları təhlükə altındadır. Həmçinin, Poroşenko separatçıların yenə Rusiya tərəfindən idarə olunduğunu və ölkənin şərqində separatçılar tərəfindən təkcə şəhərlərin və onların dinc sakinlərinin deyil, həm də Minsk razılaşmasının da atəşə tutularaq güllələbaran olunduğunu bildirirdi .

Buna baxmayaraq, Minsk razılaşmasında da nəzərdə tutlduğu kimi fevralın 15-dən etibarən tədricən sabitlik bərqərar olmağa başladı. Ukraynanın antiterror əməliyyatları üzrə qərargahının nümayəndəsi Anatoli Stelmax bildirirdi ki, Minsk razılaşmalarına uyğun olaraq döyüşlərin əhəmiyyətli dərəcədə azalması bütün döyüş xətti boyu ağır hərbi texnikanın geri çəkilməsinə imkan verib, proses davam etdirilir və hadisələrin gedişatı, hərbi texnikanın geri çəkilməsi prosesi ATƏT müşahidəçilərinin ciddi nəzarəti altındadır.

Nəticə olaraq qeyd edək ki, Normandiya dördlüyünün Minsk görüşünü və görüş nəticəsində əldə olunan atəşkəs sazişini Avropa diplomatiyası tarixində önəmli bir hadisə hesab etmək olar. Avropa liderləri ABŞ olmadan çətin bir siyasi vəziyyətdə bir araya gəldilər və Rusiyanı hərbi qüvvələrinin bir qismini geri çəkməyə razı saldılar. ABŞ bu dəfə hadisələrə kənardan tamaşaçı olaraq baxmalı oldu və qəbul edilən qərarlarla razılaşdı. Bu, əsasən də Almaniya və Fransa liderləri üçün bir uğur sayıla bilər.

Rusiya, Ukrayna böhranı məsələsində ABŞ və Aİ arasında mövcud olan fikir ayrılıqlarından ustalıqla istifadə etdi. Belə ki, Rusiya bu münaqişəni bir Rusiya- Aİ problemindən daha çox, Rusiya- ABŞ problemi kimi göstərməklə Aİ ilə münasibətləri qırmadı. Beləliklə də münaqişədə Avroatlantik blokunun Avropa qanadı Rusiyaya qarşı daha ehtiyatlı davranmış oldu .

Bütün bunlara əsasən deyə bilərik ki, Rusiya bu münaqişədə üstünlük qazanan tərəf oldu. Çünki əslində atəşkəsin imzalanması ilə Rusiya Ukrayna ərazisində iki yeni dondurulmuş münaqişə yaratmış oldu. Putin bununla da Ukraynanın əslində de-fakto olaraq bölünmüş ölkə olduğunu bütün dünyaya diqtə etdi. Daha öncə Rusiya tərəfindən ilhaq olunan Krım məsələsi isə ümumiyyətlə gündəmə gəlmədi. Nəticə etibarilə, Donetsk və Luqansk bölgələrində separatçı qüvvələrin baş qaldırması Krım məsələsini dünyanın gündəmindən uzaqlaşdrdı. Avropa və Ukrayna üçün isə Minsk sazişi növbəti uçuruma yuvarlanmamaq üçün son çıxış yolu idi.

Digər tərəfdən daha bir problem də sərhədlərlə bağlıdır. Minskdə imzalanan sənədlər bu mənada mövcud vəziyyəti heç cür dəyişmir. Rusiya əvvəlki

kimi separatçıları lazım olan hər şeylə təmin etmək imkanlarını öz əlində saxladığından, bu sənədlər heç sülhə də zəmanət vermir. "Tədbirlər kompleksi”nə əlavədə "mərkəzi hakimiyyət orqanları tərəfindən Donetsk və Luqansk vilayətlərinin ayrı-ayrı rayonlarında Rusiya Federasiyası ilə transsərhəd əməkdaşlığına dəstəyin” mümkünlüyünün qeyd edildiyini xatırlatmaq yetər. Bir sözlə, sərhəd üzərində nəzarətin kimin tərəfindən həyata keçiriləcəyindən asılı olmayaraq, Moskva istənilən halda LXR və DXR-ə hərtərəfli yardım etmək hüququnu özündə saxlayır .

Beləliklə, Minskdə imzalanan sənədlər aparıcı dövlətlərin sülhə can atdıqlarını nümayiş etdirsə də, bu, müxtəlif dövlətlərin maraqlarının çulğaşdığı münaqişənin real həlli deyildi. Bu cür vəziyyətdə əsas nəticə kimi Ukrayna böhranının "Normand formatı” tipli daimi müzakirə mexanizminin yaradılmasını göstərmək olar: belə ki, liderlər görüşləri mütəmadi şəkildə davam etdirmək qərarını verdilər. Lakin barışığın pozulması və Minskdə imzalanmış sənədlərin yerinə yetirilməməsi ilə bağlı risklər yüksək olaraq qalmaqdadır.

Nəhayət, Minsk görüşünün nəticələrini Ukrayna üçün xeyirli saymaq olmaz. Bu görüşü ərazi bütövlüyü pozulan dövlətləri dəstəkləməyin vacibliyi baxımından Qərbə bir dərs də hesab etmək olar. Başqa sözlə desək, onunla bir yolu getmək istəyənlərin, Qərbə inteqrasiyaya üstünlük verənlərin maneələri aşmasının asan olmadığı bir daha təsdiqləndi. Bu baxımdan Ukraynadakı münaqişənin tənzimlənməsi, ölkənin ərazi bütövülüyün təmin olunmasına dair Qərbin təşəbbüsü ilə keçirilən Minsk görüşü elə onların özləri üçün uğursuzluqla nəticələndi.

Xatırlatmaq yerinə düşər ki, Rusiya prezidenti V.Putin hələ 2004-cü ildə Ukraynada noyabr-dekabr aylarında başlanmış münaqişəni şərh edərkən MDB-də Rusiyanın xarici siyasət strategiyasının yeni prinsiplərinə toxunaraq bəyan etdi: “Biz postsovet məkanında istənilən xalqın iradəsini tamamilə adekvat qəbul edirik və istənilən seçilmiş liderlə birgə fəaliyyət göstərəcəyik”. V.Putin Rusiyanın postsovet məkanında konstruktiv vasitəçi roluna toxunaraq: “Biz münaqişələrin

tam həll edilməsinə görə məsuliyyəti öz üzərimizə götürməyə hazır deyilik, onu istəmirik və etməyəcəyik. Biz tərəflərdən hər hansı birinin böhranların həlli üçün məsuliyyəti Rusiyanın üzərinə qoymasını, bu və ya digər qərarın Rusiya tərəfinin təzyiqi altında qəbul edilməsi ehtimalı yaranmasını istəmirik”-demişdi (18, s.8-9).

Belə vəziyyətdə dünya KİV-lərində maraqlı yazılar dərc olunurdu. Məsələn ABŞ-ın “Foreign policy” media qurumu Ukraynadakı ictimai-siyasi böhranın dərinləşməsi barəsində maraqlı yazı yazmışdı. Yazıda bildirilir ki, Ukraynanın baş naziri Arseni Yatsenyukun istefası Ukraynanın siyasi böhrana doğru sürünməsini dayandırmayacaq: “Son nəticədə, ölkə xaosa bürünməkdə davam edəcək. Ukrayna problemlərinin mərkəzində dayanan şəxs – Petro Poroşenko əvvəlki kimi ukraynalıların qəzəbinə səbəb olan və ölkə iqtisadiyyatını boğan ümumi korrupsiya ilə mübarizə aparmaqdan imtina edir. Qərbin sayəsində Poroşenko öz mövqeyini daha da gücləndirməkdədir. Yatsenyukda da problem olmadığını demək olmaz: ingliscə əla danışan bu siyasətçi çoxlu qalmaqalların mərkəzində dayanırdı”.

Belə ki, Yatsenyuku dəfələrlə köhnə oliqarx dəstəsi ilə əlaqələrdə suçlamışdılar. Onun Beynəlxalq Valyuta Fondu tərəfindən diktə edilmiş islahatları hansısa nəticələrə gətirib çıxarmadı və bu da onun aktivində mənfi xalların peyda olması ilə nəticələndi (36).

ABŞ Dövlət Başçısı Barak Obama Londonda, Ukrayna böhranının həll edilməsinin lazım olduğunu dilə gətirdi. Ağ Evin mətbuat xidmətindən (ABŞ) nəşr olunan şərhdə ayrıca NATO üzvü ölkələrin ÜDM–nin yüzdə ikisinin müdafiə xərclərini hədəfləmələri lazım olduğu da ifadə edildi.

Barak Obama, İngiltərə Baş naziri David Cameron ilə etdiyi ortaq yığıncaqda NATO ilə əlaqədar belə danışdı: “Biz, Əfqanıstandan başlayaraq Egey dənizinə qədər uzanan bölgədə xarici vəzifələrimizi yerinə yetirə bilmək üçün NATO-ya investisiya yatırımı etməyə davam etməliyik. Ukraynadakı böhranın həllinə nail olmalıyıq və Rus saldırqanlığından haqlı olaraq narahatlıq duyan müttəfiqlərimizə güvən verməliyik”.

Həmçinin B.Obama, SSRİ-nin son prezidenti Mixail Qorbaçov, ABŞ və Rusiya Dövlət başçılarına, Ukraynanın şərqindəki qarşıdurmanı müzakirə etmək üzrə bir araya gəlmələri üçün çağırış edib, Avropanın yeni bir "soyuq müharibə"nin öhdəsindən gələ bilməyəcəyini bildirmişdir (59).

Aİ-nın Krımın ilhaqı və Ukraynada daxili münaqişələrə təsiri səbəbindən tətbiq etdiyi investisiyalar Rusiya iqitisadiyyatında hal-hazırda ciddi şəkildə hiss edilir. Əlavə olaraq, Aİ ölkələrinin XİN səviyyəsində keçirilən toplantısından Rusiyaya qarşı sərmayələri 6 ay müddətində uzatma qərarı çıxarması, digər tərəfdən, yeni sərmayədarlar mövzusunda bir qərar verilmədi. Ticarət fəaliyyəti və enerji əla qələri baxımından Aİ ölkələri Rusiyaya qarşı bir birlik yaratmaq onsuz da çətinlik içində boğulan Yunanısıstanda yeni hökümətin də başqa investesiyaları istəmədiyi fikrini ortaya qoyması birliyin tək donor olmaq ehtimalını çətinləşdirdi. Vaşinqton isə sərmayələr mövzusunda Aİ tərəfindən dəvət edilir , həm də Avropa ölkələri bu siyasi strateji partnyoru ilə iqtisadi narahatlığının nizamlamağa çalışır.

Rusiya və Kiyev arasında baş vermiş bu humanitar böhranın nəticəsi olaraq Şərqi Ukraynanın bir hissəsi humanitar böhran vəziyyətinə gəlib çatmışdır və şaxtalı hava şəraitində 19 insanın ölümünə və minlərlə insanın ac-susuz və istiliksiz qalmasına səbəb olmuşdur. BBC yazırdı ki, "İnsanlar qorxur və çıxmağa çalışırlar. Çox soyuqdur. Çörək növbələri var. Yalnız bir neçə mağaza açıqdır" (38).

Ukraynadakı konflikt 5 ilə yaxındır davam edir və 10 minədək insanın həyatına son qoyub. 2 il öncə yəni 2015-ci ilin fevralında Minskdə atəşkəsin əldə olunmasından sonra problemin sülh yolu ilə həll olunmasına ümidlər var idi və ötən il ərzində böyükmiqyaslı qarşıdurmalar çox az müşahidə olunmuşdu. Amma 2017-ci ilin yanvarın sonuna doğru tərəflər yenidən təmas xəttində aktivlik nümayiş etdirirlər, raket sistemlərindəın istifadə edilməklə mütamadi olaraq atəşkəs pozulur. Yanvarın 28-i isə 3 Ukrayna əsgəri və 4 dinc sakin separatçılar tərəfindən qətlə yetirindi (43).

Fevralın ilk günlərindən başlayaraq Ukrayna hökuməti təmas xəttində yaranan, humanitar böhrana səbəb olan gərginlik səbəbilə təmas xəttinə yaxın bölglərdən yerli əhalini təxliyə etmək məcburiyyətində qaldı (7).

NATO Baş Katibi Yens Stoltenberq isə Rusiya tərəfinə müraciətində separatçılar üzərindəki Rusiya təsirindən istifadə edərək atəşkəsə kömək etməyə çağırdı.

Konflikt Donald Trampın Rusiya ilə daha yaxşı münasibət gözləntisindən sonra daha da kəskinləşmişdir. Kiyev Trampın dəfələrlə Rusiya üzərindən sanksiyaların götürülməsi fikrini səsləndirməsinə çox aqressiv yanaşır (64).

Rusiyanın dövlət qəzeti "Rossiyskie qazeta" yazır ki, atəşkəsin pozulmasına görə Vaşinqton tərəfləri günahlandırmır, nə Kiyevin mövqeyini dəstəkləyir, nə də hadisələrdə Rusiyanı günahlandırır. Qeyd edilir ki, bu elementlər Barak Obama administrasiyasının siyasi xəttinin davamıdır.

Lakin ABŞ-ın ATƏT təmsilçisi Kate Byrnes bəyanatında bildirir ki, Şərqi Ukraynada Avdiivka şəhərində meydana gələn humanitar böhranın səbəbkarı Rusiyadır. Rusiya təcili olaraq zorakılığı dayandırmalıdır.

Analoji reaksiyanı ABŞ-ın BMT-dəki daimi təmsilçisi Nikki Haley də göstərdi. Diplomat BMT Təhlükəsizlik Şurasındakı çıxışında 2017-ci ilin yanvar ayının sonlarından etibarən Şərqi Ukraynada artan gərginliyin günahkarının Rusiya olduğunu bildirdi. "Biz Rusiya ilə münasibətləri yaxşılaşdırmaq istəyirik. Ancaq Şərqi Ukraynada baş verən münaqişə birbaşa Rusiyanın fəaliyyətinin nəticəsidir. Şiddət isə getdikcə artır" .Rusiya adından çıxış edən diplomat Çurkin Ukrayanı Beynəlxalq ictimaiyyətin və yeni ABŞ hakimiyyətinin diqqətini çəkmək üçün vəziyyəti gərginləşdirməkdə günahlandırdı. Ukraynalı təmsilçi Yelçenko isə Rusiyanın Hələbdə törətdiyi insanlıq faciəsini Avdiivkada törətmək istədiyi bildirdi (41).

Amerika və Avropa Birliyinin Krımın anneksiyası və Şərqi Ukrayna münaqişəsi ilə bağlı mərhələli sanksiyaları mövcuddur. Prezident Donald Tramp isə bildirmişdir ki, artıq bu sanksiyaların aradan qaldırılmasının vaxtıdır. O, bu məsələ ilə bağlı V.Putinlə danışıqlarda maraqlı olduğunu bildirmişdir. Qeyd edilən

problemlə əlaqədar olaraq prezidentlərin yaxın zamanda görüşünün baş tutacağı gözlənilənDir. Ukrayna Prezidenti Pyotr Poroşenko isə cavabında belə bir kritik vəziyyətdə sanksiyaların aradan qaldırılmasından danışmağın ağlasığmaz olduğunu bildirdi.

Rusiyanın AŞPA-dan uzaqlaşdırılması məsələsinə münasibət bildirən Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti Samir Həmidov hesab edir ki, Avropa Şurası Parlament Assambleyasında səsvermə hüququnun əlindən alınması Rusiyaya qarşı siyasi təzyiq formalarından biridir. Avropalılar anlayırlar ki, istər iqtisadi, istər humanitar, istərsə də siyasi şəkildə Rusiyaya qarşı təzyiqlər onun Ukraynaya qarşı aqressiv siyasətinin qarşısını ala bilər. Bu baxımdan hesab edirəm ki, Avropa Şurasının bu addımı, tamamilə, məntiqlidir. Eyni zamanda Rusiyanın təşkilatdan, tamamilə, uzaqlaşdırılması da doğru addım sayıla bilməz. Ona göə ki, bu qurum təzyiqetmə rıçaqlarını itirəcək. Bu səbəbdən də təşkilat orta mövqe tutmalıdır. Əgər təzyiqlər olmasa, Rusiya digər ərazilərə doğru irəliləyə bilər.

Məlum olduğu kimi, Ukraynada təxminən üç ildir davam edən qarşıdurmanın beynəlxalq və ikitərəfli müstəvidə həll axtarışları heç bir nəticə verməyib. Dövlət başçılarının Normandiya formatında dəfələrlə keçirilən görüşləri, dəyirmi masalar Şərqi Ukraynada separatçılıq, həmçinin Krım və Sevastopolun hüquqi taleyi məsələlərinə aydınlıq gətirə bilməyib. Son vaxtlar isə artıq siyasi dairələrdə belə bir qənaət yaranıb ki, Normandiya formatı Rusiya-Ukrayna arasında birbaşa qarşıdurmanın qarşısını alsa da, Ukrayna böhranını çözə bilmədi. Belə ki,görünən budur ki, Krımı ilhaq edərək soydaş Krım tatarları üzərindən təzyiqlərini hər keçən gün artıran Rusiya höküməti Ukraynanın şərqində mövcud olan separatçı qüvvələrə verdiyi dəstəklə ölkə üzərində mövqeyini gücləndirmək arzusundadır. Daxili münaqişənin hər keçən gün onlarca gühansız cana zərər olduğu regionda təzyiq hər keçən gün daha da artır. Rusiya regionda bir tərəfdən müharibə üçün təchizat göndərərkən, digər tərəfdən dövlət televiziyalarında hər keçən gün yayılan dezinformasiyalar ilə Ukraynadakı davam

edən müharibənin və gətirdiyi ağır iqtisadi yükün hər hansı bir cəmiyyətə təsirini də ortalığa qoymuş olur.

Lakin Avropa ölkələri  də Krım yarımadasının işğalı və Şərqi Ukraynada separatçı qurumların elan edilməsi faktı ilə barışmamaqda israrlıdır. Fikrimizə qüvvət olaraq İngiltərə xarici işlər Naziri Boris Consonun 1 mart 2017-ci ildə Kiyevdə keçiridyi mətbuat konfransında səsləndirdiyi fikirləri göstərə bilərik. Conson, bir daha vurğuladı ki, “Rusiyanın hücumu dayandırılmalı, Krımın işğalına da son verilməlidir. Biz Ukraynaya işğal edilən torpaqları üzərində hakimiyyətini yenidən bərpa etməsi yolunda kömək edəcəyik. İngiltərə xalqı sizin yanınızdadır” (44).

# NƏTİCƏ

Tədqiqat işinin yekununda müəyyən nəticələr əldə edilmişdir.

Ukraynadakı konflikt 5 ilə yaxındır davam edir və 10 minədək insanın həyatına son qoyub. 2 il öncə yəni 2015-ci ilin fevralında Minskdə atəşkəsin əldə olunmasından sonra problemin sülh yolu ilə həll olunmasına müəyyən ümidlər var idi və ötən il ərzində böyük miqyaslı qarşıdurmalar çox az müşahidə olunmuşdu. Lakin 2017-ci ilin yanvarın sonlarından etibarən yenidən münaqişə zonasında atəşkəs mütəmadi olaraq pozulur. Hər iki tərəfdən əsgərlər, o cümlədən dinc sakinlər öldürülür. Krım və Sevastopol məsələsində də heç bir irəliləyiş yoxdur. Münaqişənin ikitərəfli və beynəlxalq müstəvidə həll axtarışları heç bir nəticə verməyib.

Rusiya Krım daxil olmaqla Qərb ilə geosiyasi münasibətlərdə "va-bank" getməklə yanaşı, eyni zamanda, regionda iqtisadi müstəvidə də yeni oyun qaydaları formalaşdırmağa çalışdı. Təbii ki, iqtisadi və eləcə də siyasi sanksiyalar ilə üz-üzə qalacağını öncədən proqnozlaşdırılan və əslində Qərb tərəfindən münaqişədən öncə dəfələrlə bu haqda eşitdirilən Moskvanın belə riskli oyuna başlaması səbəbləri daha çox Kremlin iqtisadi hesablamaları üzərində qurulmuşdu. Doğrudur, Moskvanın iqtisadi baxımdan Ukraynanın itirilməsinə göz yuma bilməməsi başa düşülən idi: Kiyevin iştirak etmədiyi Kreml xeyir-dualı bütün layihələr formal xarakter daşıyacaq. Moskvanın Gömrük İttifaqı ətrafındakı hesablamalarının da mərkəzində məhz Ukraynanın iştirakı dururdu. Aydındır ki, nə Ermənistan, nə Belarus nə də üzvlükdə maraqlı olan Qırğızıstan ilə Gömrük İttifaqını ciddi bir qurum kimi formalaşdırmaq mümkün deyil. Moskva eyni zamanda anlayırdı ki, Ukrayna ərazisinə görə Avropada ən böyük ölkə statusu ilə də Rusiyanın layihələrinə rəng qata bilərdi. Başqa tərəfdən, Ukraynanın Rusiyanın nəzarətindən çıxması domino effekti ilə digər Şərqi Tərəfdaşlıq ölkələrinin də Moskvadan uzaqlaşmasına səbəb olacaqdı.

Ukrayna Rusiyaya görə ciddi strateji əhəmiyyətə malik mövqedə yerləşir. Ukrayna Rusiya üçün Avrasiya İttifaqı layihəsinin bədənini təşkil edir. Rusların

Sevastopol şəhərindəki dəniz bazasının olması Rusiya donanmasının Qara dənizdəki gücünün davamlılığı, həmçinin Balkan yarımadasına, Aralıq dənizi və Orta Şərqə nəzarət üçün gərəklidir. Ukraynanın Avropa İttifaqından imtina edib Rusiyaya yaxınlaşması Kremlin imperialist Avrasiya İttifaqı və Gömrük Birliyi layihələrinin reallaşdırılmasına rəvac verə bilər. Həmin layihələrlə Rusiya ABŞ, Qərb və Çinlə yanaşı qlobal güc olmağı qarşısına məqsəd qoyub. Ukrayna isə həmin layihələrin açarıdır, buna görə də Moskva bu ölkəni əlində saxlamaq üçün bütün yollara əl atır və atacaq. Ukraynanın iqtisadi və siyasi arsenalının olduqca zəif olması Qərb və Rusiya arasında hələ uzun müddət çəkişmə kəndiri olacaq.

Qeyd etmək lazımdır ki, Ukraynanın mövqeyi bir çox məsələdə ABŞ, NATO və Qərbi Avropa ölkələrinin maraqlarına uyğun gəlir. Qərbin strategiyasında Ukraynaya xüsusi rol ayrılır. Qərb Moskvanın Kiyevə təsirini məhdudlaşdırmağa, Ukraynanın Şərq sərhədləri boyunca ABŞ və NATO-nun "həyati vacib maraqları" xəttini çəkməyə səy edir. Ukraynanın üçüncü dövlətlər sahəsinə cəlb edilməsinin mənfi aspekti isə ondan ibarətdir ki, rus-amerikan, rus-qərbi alman və ya Rusiya-NATO münasibətlərinin kəskinləşəcəyi halda, Ukraynanın iştirakı ilə "bufer zona"nın Rusiya əleyhinə formalaşması üçün istifadə olunacaqdır.

Bundan əlavə Ukrayna hadisələrinin təhlil edilməsi zamanı müəllif tərəfindən bəzi aşağıdakı nəticələr əldə edilmişdir:

-Krımın Rusiya tərəfindən işğalı və Şərqi Ukraynada yaradılmış qondarma Donetsk və Luqansk Respublikaları hər nə qədər tanınmasa da Ukraynanın bu bölgələr üzərində sadəcə de-yure hakimiyyəti mövcuddur;

-Maydanda başlayan Yanukoviç hakimiyyətinə qarşı yönəlmiş nümayişlər vətəndaş müharibəsinə və ölkənin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmışdır;

-Krımın Rusiya tərəfindən işğalı, o cümlədən Ukraynanın şərqində separatçılıq fəaliyyəti suveren dövlətin ərazi bütövlüyünün birbaşa pozulması faktıdır və bunun qarşısın alınması yolunda hələ ki ciddi əməli nəticə əldə olunmayıb;

-ABŞ-da Donald Trampın hakimiyyətə gəlməsi və dəfələrlə Rusiya üzərindən sanksiyaları götürəcəyi fikrini səsləndirməsi Kiyevdə kifayət qədər aqressivliklə qarşılanır və hadisələrin gərginləşəcəyindən xəbər verir;

Böhranın həllinə dair aşağıdakı fikirlər irəli sürülə bilər:

-Ukraynanın daxilində separatçılığın qarşısının alınması üçün ilk növbədə Rusiyanın separatçılara hərtərəfli dəstəyinin, silah yardımının qarşısı alınmalıdır;

-Davamlı atəşkəsin əldə olunması təmin edilməli və münaqişənin siyasi həlli yollarının tapılması üçün birgə danışıqlar davam etdirilməlidir;

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Abbasbəyli A.N., Yusifzadə S.Z. Dünya siyasəti. Bakı: Nurlar, 2011, 584 s.
2. Abbasbəyli A.N. Beynəlxalq münasibətlər tarixi. Bakı: BDU, 2009, 309 s.
3. Bjezinski Z.K. Böyük Şahmat taxtası. Bakı, Qanun nəşriyyatı, 2011, 328 səh.
4. Bjezinski: ABŞ Ukraynadakı prosesləri yönləndirməlidir, http://newtimes.az/az/relations/dialogue/3439
5. Britaniya XİN: Rusiya Krımı Ukraynaya qaytarmalıdır, http://www.bbc.com/azeri/region/2015/03/150322_britain_russia_crimea
6. Cəfərov X. ABŞ-ın Krım tələsi, http://www.mia.az/w103575/AB%C5%9E-%C4%B1n_Kr%C4%B1m_t%C9%99l%C9%99si/
7. Donbas: tərəflər yeni itkilər barədə xəbər verir http://www.bbc.com/azeri/region-38825667
8. Əfəndiyev M.Ə. Siyasi elm. Bakı: Siyasət, 2010, 859 s.
9. Əmircanov P. Pyotr Poroşenko: Münaqişəni dondurmaq yox, həll etmək lazımdır. “Xalq” qəzeti,Bakı, 2015,10 fevral
10. Həsənov Ə.M. Geosiyasət. Bakı: Aypara, 2010, 602 s.
11. Hüseynov L. Beynəlxalq hüquq; Bakı,Qanun nəşriyyatı, 2012, 368 səh.
12. Krımın Türk tarixi . http://modern.az/articles/70899/1
13. Qasımlı M.C. Avropanın sosialist ölkələrində və SSRİ-də baş verən hadisələrin geosiyasi nəticələri // Geostrategiya jurnalı. Bakı: Maarif, 2011, səh-44.
14. Qurbanova Ş.M. Ukraynada ABŞ-Rusiya rəqabəti (1991-2010-cu illər) //Tarix və onun problemləri,2013,№2,s.333-338.
15. Qurumayan qan çanağı: türk yurdu Krım necə rusların oldu? http://m.lent.az/news/159007
16. Məmmədov N.İ. Geosiyasətə giriş. II cild. Bakı: Azərbaycan , 2011, 416 s.
17. Məmiyeva L.N. Rusiya-Ukrayna qarşıdurması və Qərbin mövqeyi: mag, Bakı, 2016, 71 s.

18. Mirabdullayev A.M. Rusiyanın possovet məkanında geostrategiyası. s.e.d. alim.dərəcə.al.üçün təqd.edil.diss. Bakı, 2010, 287 s.
19. Musa İ.M. Azərbaycanın Xarici Siyasəti. Bakı: BDU, 2011,776 s.
20. NATO məlumat kitabı. Brüssel,Belçika,388 s.
21. New Times: "Aİ- postsovet məkanı: geosiyasi dəyişikliklər fonunda problemlər- İkinci hissə" http://newtimes.az/az/geopolitics/3338/
22. New Times: "Qərb-Rusiya qarşıdurmasında Ukrayna amili- Birinci hissə" http://newtimes.az/az/views/3205
23. New Times: "NATO və Avropa İttifaqının şərqə doğru genişlənməsi və Rusiya" http://newtimes.az/az/politics/3162/
24. New Times: "Uraynanın seçimi:assosiativ üzvlük ölkəni hara aparır?" http://newtimes.az/az/processestrends/3081/
25. Nəsibov E.M. Beynəlxalq münasibətlər və dövlətlərin güclərinə görə təsnif olunmalarının əsasları. Bakı: Elm və Təhsil, 2013, 320 s.
26. Nəsibov E.M. Gələcək dünya düzəni və geosiyasi mənzərə. Siyasi proqnozların əsasları. Bakı: Elm və Təhsil, 2013, 543 s.
27. Nəsibov E.M. Siyasət: (mövqelər, baxışlar, təhlillər, nəzəriyyələr, ideyalar, təkliflər, proqnozlar) elmi və elmi-publisistik məqalələr toplusu. I cild. Bakı: Təhsil, 2009, 496 s.
28. Protopopov A.S. Beynəlxalq münasibətlər və Rusiyanın xarici siyasəti tarixi. Bakı: Qanun, 2009, 444 s.
29. "Rusiya Krımın anneksiyasını rəsmiləşdirir" https://www.azadliq.org/a/25298582/lbl1lbi26507.html
30. "Rusiyanın Cənubi Qafqaz siyasəti.Təcavüzkar və müdafiə xarakterli realizm" http://vaxt.az/site/?name=xeber&xeber_id=7721
31. "Ruslar Krımı türklərin əlindən necə aldı?-Qısa xronika" http://www.anspress.com/siyaset/07-03-2014/ruslar-krimi-turklerin-elinden-nece-alib-qisa-xronika
32. "Səngərdə münaqişə-Donbas" http://eurasiadiary.com/az/news/analytical-wing/42878-sengerde-munaqise

33. "Sərhədləri müzakirəyə qoymaq beynəlxalq hüquqa ziddir" http://www.trt.net.tr/azerbaycan/dunya/2017/03/22/s-rh-dl-ri-muzakir-y-qoymaq-beyn-lxalq-huquqa-ziddir-696272

34. Strateji Araşdırmalar Mərkəzi:"Yaxın gələcəkdə yeni münaqişələrin şahidi ola bilərik" http://az.trend.az/azerbaijan/politics/2365724.html

35. "Ukrayna böhranı dünya üçün sınaq məqamıdır" https://www.azadliq.info/42785.html

36. "Ukraynada inqilab "bala"larının korrupsiya qalmaqalı" http://palitranews.az/news.php?id=51737

37. Ukrayna hadisələri: xronika və nəticələr. https://www.azadliq.info/40922.html

38. Ukrayna münaqişəsi: BMT təhlükəli gərginlikdən sonra xəbərdarlıq edir. http://www.bbc.com/azeri/international-38824308

39. Ukrayna- Rusiya : Təkəbbürlü münasibətlər http://www.amerikaninsesi.org/a/ukrayna-qardash/1943771.html

40. Yanukoviç sərt dönüş etdi və ya Ukrayna "əldən verilənimkanlar" dövründən sonra http://regionplus.az/az/articles/view/3700Ф

41. Avrupa'nın geleceği Ukrayna'nın omuzlarına yüklendi http://www.aljazeera.com.tr/gorus/avrupanin-gelecegi-ukraynanin-omuzlarina-yuklendi

42. Euronews: ABD'in BM temsilcisi Rusya'yı kınadı. http://tr.euronews.com/2017/02/03/abd-nin-bm-temsilcisi-rusya-yi-kinadi

43. Euronews:Ukrayna ordusu çatışma bölgesinden sivilleri tahliye etmeye başladı. http://tr.euronews.com/2017/02/01/ukrayna-ordusu-catisma-bolgesinden-sivilleri-tahliye-etmeye-basladi

44. "Hollande:Ukrayna'da kalıcı barış sağlanmazsa savaş çıkabilir" https://tr.sputniknews.com/avrupa/201502071013842962/

45. Kırım Haber Ajansı: http:// qha.com.ua/tr

46. Kırım'ın Tekrar İşgali: Rusya'nın Artan Bölgesel Etkisi http://www.sde.org.tr/tr/authordetail/kirimin-tekrar-isgali-rusyanin-artan-bolgesel-etkisi/3664
47. Kırım'ın Ruslar Tarafından İşgal ve İlhakı / Yrd. Doç. Dr. Osman Köse https://www.tarihtarih.com/?Syf=26&Syz=356186
48. Kırımda bir yıl sonra, http://www.dw.de
49. M.Ercan "Uluslararası hukuk normları bağlamında Kırım meselesi: self determinasyon mu? ilhak mı?" //The Journal of Academic Social Science Studies, Elazığ,2011,seh95-111.
50. Prof. Dr. Ümit Yazıcıoğlu "Ukrayna krizi ve Normandiya dörtlüsü" https://tekmanpost.wordpress.com/2015/02/13/ukrayna-krizi-ve-normandiyadortlusu/
51. Ukrayna Krizinde Kırım'ın İlhakının Getirdikleri Gösterdikleri, http://www.usakanalist.com/
52. Ukrayna'da ateşkes: kriz donduruluyor mu? http://politikaakademisi.org/2015/02/16/ukraynada-ateskes-kriz-donduruluyor-mu/
53. "Ukrayna zirvesinden ateşkes kararı çıktı" http://www.bbc.com/turkce/haberler/2015/02/150212_ukrayna_rusya_minsk
54. Uluslararası Hukuk Açısından Kırım'ın İlhakı ve Self Determinasyon Hakkı http://www.academia.edu
55. Gordon M.Y. NATO-Ukraina a distinctive partnership // Political news journal. Berlin: Ukrintrocng, 2004,8p.
56. Individual Partnership Action Plans http://www.nato.int/cps/on/natohq/topics_49290.htm
57. Kissinger H.A. Diplomacy. New-York: Simon & Schuster, 1994, 912 p.
58. NATO-Ukraine. An intensified dialogue https://scoalanato.files.wordpress.com/2010/03/nato-ukraine.pdf
59. NBC NEWS: Ukraine Crisis http://www.nbcnews.com/storyline/ukraine-crisis

60. Oliver Geden,Clemence Marcelis,Andreas Maurer “Perspectives for the European Union’s Exsternal Energy Policy Berlin-2006, 134 p.
61. “Support for separatism in southern and eastern Ukraine is lower than you think” https://www.washingtonpost.com/news/monkey-cage/wp/2015/02/06/support-for-separatism-in-southern-and-eastern-ukraine-is-lower-than-you-think/?utm_term=.a42de1f1c486
62. The New York Times: Ukraine https://www.nytimes.com/2015/02/08/world/europe/divisions-on-display-over-western-response-to-ukraine-at-security-conference.html?rref=collection%2Ftimestopic%2FUkraine&action=click&contentCollection=world&region=stream&module=stream_unit&version=latest&contentPlacement=625&pgtype=collection
63. “The European Union and Russia: Close Neighbours, Global Players, Strategic Partners // European Comission. http://www.st-gaterus.eu/_media/russia_brochure07_en.pdf
64. Ukraine clashes leave several dead and test Trump's Russia stance. https://www.theguardian.com/world/2017/feb/01/ukraine-clashes-leave-several-dead-and-test-trumps-russia-stance
65. Дугин А.О. Основы геополитики. Геополитическое будущее России. Мыслитъ Пространством. Москва: АРКТОГЕЯ-центр, 2000, 928 с.
66. Журнал "Геополитика" 01.2014. Вячеслав Дашичев “Украинская трагедия и новая холодная война” səh 6-11
67. Коппел-Ковтун Светлана Анатольевна “Трагедия Украины. Концлагерь вместо рая?” Москва, Ексмо, 2015 416ст.
68. "Лучше, чем супер": как проходила встреча "нормандской четверки" в Минске Подробнее на ТАСС http://tass.ru/mezhdunarodnaya-panorama/1761156
69. “Переговоры в "нормандском формате" в Минске, 12 февраля. Текстовая трансляция” http://tass.ru/politika/1761665

70. Украинская трагедия русского мира. Работа над ошибками http://politobzor.net/show-118512-ukrainskaya-tragediya-russkogo-mira-rabota-nad-oshibkami.html

71. Тарас Березовецъ “ Аннексия: остров Крым. Хроники гибридной войны”. Kiyev 2015,584s.